RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 184 (9351) 29 AVQUST 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# İRADƏ CƏSARƏT ƏMİNLİK nümunəsi



## İlham Əliyev müdrikcəsinə, tədbirlə, cəsarətlə, ən əsası özünəəminliklə separatçıların və onların havadarlarının şah damarını kəsdi

*2020-ci il sentyabrın 27-si heç zaman heç birimizin yadından çıxmayacaqdır!*

*Azərbaycan xalqı 8 Noyabrı əsrlərboyu Zəfər günü kimi qeyd edəcəkdir!*

**Hərbi əməliyyatların gedişi, müharibə dövründə Müzəffər Ali Baş Komandan İlham Əliyevin daim xalqa etdiyi müraciətlər, dünya KİV-inə verdiyi müsahibələr bütün bunları görənlərin xatirindən heç zaman silinməyəcəkdir!**

*44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyev düşmənə bütün parametrlərdə - həm hərb meydanında, həm diplomatiya cəbhəsində, həm də informasiya müharibəsində qalib gəldi!*

**"Dəmir yumruğ"u ilə Ermənistan ordusunu darmadağın edərək qorxaqlar və fərarilər dəstəsinə çevirdi, möhtəşəm qələbəmizi təmin etdi!**

**Bu döyüşlərdə böyük iradə, cəsarət və əminlik göstərdi!**

**Biz indi də Prezidentimizdə həmin iradə, cəsarət və əminliyin şahidiyik!**

*Düşmən ordusu məhv edilsə də, Paşinyan kapitulyasiya aktına qol çəksə də, hələ də onu müdafiə edənlərə arxalanaraq sülh müqaviləsinin imzalanmasını müxtəlif bəhanələrlə uzadır.*

**Azərbaycan xalqı isə İlham Əliyevin rəhbərliyi ilə qurub-yaratmaqla, məcburi köçkünləri doğma yurdlarına qaytarmaqla, xoşbəxt həyatlarını təmin etməklə məşğuldur!**

*Bəli, cəmi 8 ayda yenidən tikilib qurulan Laçın öz sakinlərini qoynuna alır!*

*Hələ ki, Azərbaycan səbir və təmkin göstərir!*

*"Dəmir yumruq" isə əvvəlkitək hazır vəziyyətdədir!*

→ 3

## Ənənəvi dostluq əlaqələri möhkəmlənir

### Moldova Respublikasının Prezidenti zati-aliləri xanım Maya Sanduya

Hörmətli xanım Prezident!

Moldova Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.



Xoş ənənələr üzərində qurulmuş Azərbaycan-Moldova dostluq və əməkdaşlıq əlaqələrinin müvəffəqiyyətlə inkişaf etməsi məmnunluq doğurur. Siyasi əlaqələrimizin yüksək səviyyəsi bir sıra sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımızı genişləndirmək üçün yaxşı zəmin yaratmışdır.

Kişineuda təşkil olunan Avropa Siyasi Birliyinin ikinci Zirvə Toplantısında iştirak etmək məqsədilə Moldovaya səfərim çərçivəsində Sizinlə səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşümüzü, ikitərəfli münasibətlərin geniş spektri və əməkdaşlığımızın perspektivləri ətrafında apardığımız danışıqları ən xoş təəssüratlarla xatırlayıram.

Əminəm ki, Azərbaycan ilə Moldova arasında ənənəvi dostluq əlaqələrinin möhkəmləndirilməsi, xalqlarımızın mənafelərinə uyğun olaraq həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığımızın dərinləşdirilməsi, birgə fəaliyyətimizin potensialından tam istifadə olunması naminə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Moldova xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 avqust 2023-cü il*

## Laçın sərhəd-keçid məntəqəsində saxlanılan erməni futbolçular həbs ediliblər

Laçın sərhəd-keçid məntəqəsində saxlanılan erməni futbolçular həbs ediliblər. Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib.

Məlumata görə, erməni futbolçularının Azərbaycan Respublikasının Dövlət Bayrağı barədə təhqiredici hərəkətlər etmələri faktı ilə bağlı Cinayət Məcəlləsinin 283.2.3 (Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması mütəşəkkil dəstə tərəfindən törədildikdə) və 324-cü (Azərbaycan Respublikasının Dövlət Bayrağı və ya gerbi barədə təhqiredici hərəkətlər) maddələri ilə Azərbaycan Respublikasının Baş Prokurorluğunda cinayət işi başlanmaqla istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə olunub.

Aparılan cinayət işi üzrə kifayət qədər əsaslı şübhələr yarandığından Ermənistan Respublikasının vətəndaşları - 2001-ci il təvəllüdlü Alen Sarqsyan, 2003-cü il təvəllüdlü Vahe Hovsepyan və Levon Qriqoryanın Azərbaycan Respublikası Cinayət Məcəlləsinin qeyd olunan maddələrilə təqsirləndirilən şəxs qismində cəlb olunması barədə qərar qəbul edilib, lakin olduqları yer istintaqa məlum olmadığına görə barələrində beynəlxalq axtarış elan edilməklə məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Keçirilmiş axtarış tədbirləri nəticəsində avqustun 28-də qeyd olunan şəxslər Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Laçın sərhəd-keçid məntəqəsində saxlanılıblar.

Müdafiə hüquqları təmin edilməklə istintaqa cəlb edilən şəxslər dindirmə zamanı törətdikləri əməli etiraf edərək səmimi peşman olduqlarını, gələcəkdə bir daha bu kimi hərəkətlərə yol verməyəcəklərini bildiriblər.

→ 5

## Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı uğurla inkişaf edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güləri qəbul edib.**

→ 2

## Qardaş ölkələrin hərbi qurumları arasında səmərəli işbirliyi yaradılıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Türkiyə Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Metin Gürakı qəbul edib.**

→ 2

## Fransa bitib-tükənməyən təxribatlarından əl çəkməlidir

Ermənistan-Fransa cütlüyünün ölkəmizə qarşı təxribatları bitib-tükənmək bilmir. Bəlkə bu ölkələrin qonşu dövlətlərlə sərhədləri və sərhədlərində nəzarət-buraxılış məntəqəsi yoxdur? Bəlkə bu ölkələrdə sərhədlər o qədər "şəffaf"dır ki, kim istəyir və necə istəyir Fransaya, eləcə də Ermənistana girib çıxa bilir? Dünya bilir ki, çığır-bağır salıb şivən qoparan bu iki "bacı" dünyada insanlığa yaraşmayan qanlı qətliamlar törətmiş dövlətlərdir. İnsanlığa ləkə gətirən, insan qanı içən cəlladların bu gün "humanizm"dən don geyinmələri törətdikləri əməllər kimi çox eybəcər görünür. Təəssüf ki, dünya birliyi bunu görsə də, reaksiyası yoxdur...

→ 6

## İrəvan yenə təşvişdədir: "İlham Əliyev hər vədini yerinə yetirir, bizimkilər isə çarəsizdirlər"

Bu arada Xankəndidə separatçılar arasında qarşıdurma gündən-günə gərginləşir. Dünən baş separatçı Araik Arutyunyanın "iqamətgahı" atəşə tutulub. Bildirilir ki, bir qrup şəxs Araikin yanına gələrək onunla sərt söhbət edib. Daha sonra onlar çölə çıxaraq binanı atəşə tutublar. Bu hadisə onu göstərir ki, separatçılar arasında qarşıdurma silahlı münaqişə həddinə çatıb. Böyük ehtimalla yaxın günlərdə separatçılar bir-birilərinə güllə atacaqlar. Sadə ermənilərin isə belə durumda bir çıxış yolu qalır: Azərbaycan vətəndaşlığını qəbul etmək...

→ 6

## Hayların harayına daha inanan yoxdur

### Yaxud özgəyə quyu qazan özü düşər

Rəsmi İrəvan yenə də hiylədən əl çəkmir, məkrli xislətini yerə qoymur. Bu dövlətə nə Qarabağda yaşamaq istəyən hayların taleyi, nə də bölgəyə sülhün gəlişi lazımdır. Onların göyə dirənən "humanitar fəlakət" bəhanələrinin və manipulyasiyalarının "strateji hədəf"i hərbi təxribatlar üçün süni səbəblər yaratmaq, Azərbaycanın Qarabağ bölgəsində vəziyyətin gərginləşməsinə nail olmaqdır. Lakin haylar bu yolda nə qədər məkrli oyunlara əl atsalar da, nəticədə qazdıqları quyuya özləri düşəcəklər. Dəfələrlə olduğu kimi.

→ 4

# Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı uğurla inkişaf edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güləri qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Yaşar Gülərin Türkiyənin milli müdafiə naziri vəzifəsinə təyin edilməsini Türkiyə Prezidenti tərəfindən göstərilən böyük etimad kimi dəyərləndirdi və ona vəzifəsinin icrasında uğurlar arzuladı.

Prezident İlham Əliyev Yaşar Gülərin Azərbaycan və Türkiyə Silahlı qüvvələrinin birgə işbirliyi ilə bağlı böyük səylər göstərdiyini və töhfələr verdiyini vurğuladı, bu işbirliyinin çox yaxşı səviyyədə olduğunu qeyd etdi. Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanın Prezident seçiləndən sonra Azərbaycana həyata keçirdiyi ilk dövlət səfərinə toxunaraq, bu səfər zamanı Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışının önəmini vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən Yaşar Gülər özünün və rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərdən böyük məmnunluq və şərəf hissi duyduqlarını bildirərək, ilk növbədə Türkiyə Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Türkiyənin milli müdafiə naziri torpaqlarımızın işğaldan azad edilməsinə toxunaraq, şəhidlərimizin ruhunu ehtiramla yad etdi, Azərbaycan əsgərlərinin fədakarlıq və qəhrəmanlıqlarının heç zaman unudulmayacağını dedi.

Yaşar Gülər qeyd etdi ki, Ümummilli Lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində Azərbaycanın beynəlxalq aləmin önəmli və nüfuzlu üzvünə çevrilməsi böyük qürur hissi doğurur. Nazir iki ölkənin dövlət başçıları arasında sıx münasibətlərin və təmasların əlaqələrimizin daha da güclənməsi işinə çox müsbət təsir göstərdiyini bildirdi və azərbaycanlı həmkarları ilə səmərəli qarşılıqlı fəaliyyətin həyata keçirildiyini qeyd etdi.

Söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən hərbi sahədə bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Qardaş ölkələrin hərbi qurumları arasında səmərəli işbirliyi yaradılıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Türkiyə Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Metin Gürakı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə olduğu kimi, hərbi sahədə də uğurla inkişaf etdiyi vurğulandı. Metin Gürakın vəzifəyə təyin olunmasından qısa zaman sonra ölkəmizə səfər etməsinin önəmi qeyd edildi və bu səfərin əməkdaşlığın genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu.

Azərbaycan və Türkiyənin hərbi qurumları arasında səmərəli iş birliyinin həyata keçirildiyi qeyd edildi.

Görüşdə Azərbaycanın Vətən müharibəsində Qələbəsinin önəmi və ordumuzun bu qələbənin əldə olunmasında göstərdiyi yüksək peşəkarlığı və qəhrəmanlığı vurğulandı.

# "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkənin informasiya məkanının təhdidlərdən qorunması, informasiya təhlükəsizliyi sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi, habelə bu sahədə qarşıda duran vəzifələrin müəyyən edilməsi məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Strategiyanın (bundan sonra - Strategiya) həyata keçirilməsini əlaqələndirsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası:

3.1. Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının mütəmadi monitorinqini və qiymətləndirilməsini təmin etsin;

3.2. Strategiyanın həyata keçirilməsi ilə bağlı görülən işlər barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 avqust 2023-cü il*

# V.B.Mustafayevin 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Vaqif Behbud oğlu Mustafayev 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 avqust 2023-cü il*

# "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramında (bundan sonra - Dövlət Proqramı) nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin;

2.2. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçirilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 avqust 2023-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

## QƏRAR

**№ 289** **Bakı şəhəri, 26 avqust 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 88 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət mülkiyyətinə keçirilmiş və gömrük hərraclarında satılmamış qalan, yaxud mülki dövriyyədə olmasına yol verilməyən və mülki dövriyyəsi məhdudlaşdırılmış mallar, həmçinin tez xarab olan və saxlanc müddəti keçmiş mallar barəsində sərəncam verilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 88 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 319; 2015, № 5, maddə 617; 2016, № 7, maddə 1348; 2022, № 2, maddə 172) ilə təsdiq edilmiş "Dövlət mülkiyyətinə keçirilmiş və gömrük hərraclarında satılmamış qalan, yaxud mülki dövriyyədə olmasına yol verilməyən və mülki dövriyyəsi məhdudlaşdırılmış mallar, həmçinin tez xarab olan və saxlanc müddəti keçmiş mallar barəsində sərəncam verilməsi Qaydaları"nın 4.1-ci bəndində "3 (üç) sutka müddətinə" sözləri "1 (bir) aydan çox olmayan müddətə" sözləri ilə əvəz edilsin.

2. Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib

Avqustun 28-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Metin Gürakın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Nazirliyin Mətbuat xidmətindən bildirilib ki, müdafiə naziri ordu generalı M.Gürakı Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi vəzifəsinə təyin olunması münasibətilə təbrik edib. General-polkovnik Z.Həsənov "Pençe-Kilit" antiterror əməliyyatlarının aparıldığı bölgədə şanlı türk ordusunun hərbi qulluqçusunun şəhid olması ilə bağlı xəbərdən kədərləndiyini qeyd edərək Türkiyə tərəfinə başsağlığı verib.

Müdafiə naziri Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Ordumuzun Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində görülən uğurlu işlərdən danışıb və göstərilən dəstəyə görə qardaş ölkəyə təşəkkürünü bildirib. Hazırda Azərbaycan-Türkiyə əlaqələrinin Şuşa Bəyannaməsinə əsasən müttəfiqlik münasibətlərinə söykəndiyi və bunun tərkib hissəsi kimi ordu quruculuğu sahəsində ardıcıl tədbirlərin görüldüyü qeyd edilib.

Nazir qeyd edib ki, ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyəyə çatmasında hər iki dövlət başçısının səmimi münasibətlərinin əvəzsiz rolu vardır. Göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən ordu generalı M.Gürak Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın daima yüksələn xətt üzrə inkişaf etdiyini vurğulayıb. Qarşılıqlı hərbi əməkdaşlığımızın birliyimizi daha da gücləndirdiyini və gələcəkdə yeni imkanlar açdığını qeyd edib. Azərbaycan və Türkiyə arasında sarsılmaz dostluq və qardaşlıq münasibətlərinin tarix boyu mövcudluğu qeyd olunub və bundan sonra daha da möhkəmlənəcəyinə əminlik ifadə edilib.

Görüşdə iki qardaş ölkənin orduları arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.

❖ ❖ ❖

Azərbaycanda rəsmi səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Metin Gürakın rəhbərlik etdiyi nümayəndə heyəti Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını, həmçinin Şəhidlər xiyabanı və Türk şəhidliyini ziyarət edib, əklil və gül dəstələri qoyub, xatirələrinə ehtiram nümayiş etdirib.

Nazirliyin Mətbuat xidmətindən bildirilib ki, Azərbaycan Ordusunun Baş Qərargahında təntənəli qarşılama mərasimi olub, hər iki ölkənin Baş qərargah rəisləri fəxri qarovulun önündən keçiblər. Müdafiə Nazirliyinin Nümunəvi Hərbi Orkestrinin ifasında iki qardaş ölkənin Dövlət himnləri səsləndirilib.

Ordu generalı M.Gürak protokola uyğun olaraq "Şərəf kitabı"nı imzalayıb.

Sonra müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev türkiyəli həmkarı ilə görüşüb.

General-polkovnik K.Vəliyev ordu generalı M.Gürakı Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi vəzifəsinə təyin olunması münasibətilə təbrik edib, onu və rəhbərlik etdiyi nümayəndə heyətini ölkəmizdə görməkdən məmnunluğunu bildirib.

General-polkovnik K.Vəliyev "Pençe-Kilit" antiterror əməliyyatlarının aparıldığı bölgədə şanlı türk ordusunun hərbi qulluqçusunun şəhid olması ilə bağlı türkiyəli həmkarına başsağlığı verib. Qardaş ölkə ilə birgə keçirilən ikitərəfli və çoxmillətli təlimlərin hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərdiyi xüsusi vurğulanıb.

Görüşə görə təşəkkürünü bildirən ordu generalı Metin Gürak Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi kimi ilk olaraq Azərbaycana rəsmi səfərindən məmnunluğunu bildirib. Ordu generalı M.Gürak Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə cari ildə və 2024-cü ildə keçirilməsi planlaşdırılan birgə tədbirlərin əhəmiyyətini qeyd edib.

Görüşdə hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində görülən işlərin nəticələri müzakirə olunub, bu fəaliyyətlərin daha intensiv şəkildə həyata keçirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Tərəflər qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

*AZƏRTAC*

# İRADƏ CƏSARƏT ƏMİNLİK nümunəsi



## İlham Əliyev müdrikcəsinə, tədbirlə, cəsarətlə, ən əsası özünəəminliklə separatçıların və onların havadarlarının şah damarını kəsdi

Taleyüklü hər bir məsələ və ya problemin həlli düşüncədən, fikirdən başlayır.

Sonra bu düşüncə amala, məqsədə, ideyaya çevrilir.

*Milyonların arzu, məqsəd və ideyasını gerçəkləşdirmək üçün isə hər zaman güclü və uzaqgörən liderə ehtiyac yaranır.*

**Həmin lider öz siyasəti, möhkəm iradəsi, sarsılmaz qətiyyəti və dönməzliyi sayəsində ideyanı gerçəyə çevirir.**

Beləliklə, milyonların arzusu və istəyini həyata keçirmiş olur.

❖ ❖ ❖

Azərbaycan ötən əsrin sonlarında ikinci dəfə dövlət müstəqilliyi qazananda qarşısında bir sıra həlli vacib məsələlər dayanırdı.

**Başlıca problemi isə Qarabağ münaqişəsi idi!**

Onu yoluna qoymadan bazar iqtisadiyyatı münasibətlərinə keçmək, dövlət müstəqilliyini bərpa edib möhkəmləndirmək, xalqın həyat səviyyəsini yüksəltmək müşkül görünürdü.

*"Baş problem"i Azərbaycan tarixinə "maymaq dövlət başçısı" kimi düşən, "muştuluğumu verin, ermənilər qayıdıb" deyimi ilə yadda qalan Ə.Vəzirov həll edə bilmədi.*

Elə bu səbəbdən də xalqın qəzəbinə tuş gəldiyindən hərbi təyyarəyə minərək ölkədən qaçdı.

**"Qorxaq və qətiyyətsiz prezident" kimi ad çıxaran, "AXC-nin bəyləri" ilə ittifaqa girən A.Mütəllibov da "baş problem"in öhdəsindən gələ bilmədi.**

Parlamentə mandat verdiyi "cəbhəçi bəylər" elə parlament yolu ilə də onu devirib özləri iqtidara gəldilər.

A.Mütəllibov da Rusiyaya sığınmalı oldu.

*"Naşılar və səriştəsizlər iqtidarı" kimi ad çıxaran AXC-Müsavat cütlüyü dövlətçilikdən xəbərləri olmadıqları, siyasətdə piyadalıqları, şəxsi maraqlarını dövləti maraqlardan üstün tutmaları səbəbindən iflasa uğradı.*

**Xalq onları hakimiyyətdən süpürüb atdı!**

*Başı daşdan-daşa dəyən, Vətəndə vətənsizə, məcburi köçkünə çevrilən xalq üzünü sınanmış oğluna - Ulu Öndər Heydər Əliyevə tutdu!*

**Heydər Əliyev xalqın çağırışına səs verərək yenidən ölkə rəhbərliyinə qayıtdı.**

Təəssüf ki, iş işdən keçmiş, Azərbaycanın böyük bir ərazisi işğala məruz qalmışdı.

Ulu Öndərimizin qarşısında bir sıra təxirəsalınmaz məsələlər dururdu və ilk növbədə onlar həll edilməli idi.

**Ulu Öndər Heydər Əliyev problemlərin həlli üçün böyük zəhmət, qüvvə və enerji sərf etdi:**

QISA BİR MÜDDƏTDƏ:

- Müharibə bölgəsində atəşkəsə nail olundu;
- Azərbaycan bir dövlət kimi məhvolmadan xilas edildi, müstəqilliyimiz əbədiliyə və dönməzliyə çevrildi;
- Ölkədə möhkəm və dönməz sabitlik yaradıldı;
- Ordu quruculuğuna başlanıldı və 1994-cü ilin yanvarında Qarabağda 22 kənd düşməndən geri alındı;
- Yeni Konstitusiya qəbul olundu, zəruri islahatlar aparıldı, bazar iqtisadiyyatına keçid təmin olundu;
- "Əsrin müqaviləsi" imzalanaraq Azərbaycanın gələcək iqtisadi inkişafı təmin edildi;
- Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə əsl həqiqətlər dünya ictimaiyyətinə çatdırıldı, Azərbaycan Avropa Şurasına üzv qəbul olundu...

**Lakin vəfasız ömür Ulu Öndər Heydər Əliyevə düşündüklərini və istədiklərini sonadək həyata keçirməyə imkan vermədi.**

*Cənab İlham Əliyev Azərbaycana rəhbər seçiləndə onun da qarşısında çoxsaylı və təxirəsalınmaz vəzifələr dururdu.*

"Baş problem" isə yenə əvvəlki idi:

Torpaqların işğaldan azad edilməsi!

**İlham Əliyevin bütün fəaliyyəti hamımızın və dünyanın gözü qarşısında olduğundan təfərrüata varmırıq.**

*Bircə onu xatırladırıq ki, Azərbaycan Prezidenti fəaliyyəti dövründə üç mühüm məqamı daim və açıq şəkildə söyləyirdi:*

- Azərbaycan bir qarış torpağını belə heç kəsə güzəştə getməyəcəkdir!
- Azərbaycan heç zaman öz ərazisində ikinci erməni dövləti yaradılmasına yol verməyəcəkdir!
- Münaqişənin həlli sülh yolu ilə baş tutmasa, digər vasitələrdən istifadə olunacaqdır!

"Digər vasitə" isə hərb yolu idi!

**Beləliklə, İlham Əliyev son sözünü hərb meydanında söylədi, münaqişəni müharibə yolu ilə, həm də uğurla həll etdi!**

❖ ❖ ❖

*2020-ci il sentyabrın 27-si heç zaman heç birimizin yadından çıxmayacaqdır!*

*Azərbaycan xalqı 8 Noyabrı əsrlərboyu Zəfər günü kimi qeyd edəcəkdir!*

**Hərbi əməliyyatların gedişi, müharibə dövründə Müzəffər Ali Baş Komandan İlham Əliyevin daim xalqa etdiyi müraciətlər, dünya KİV-inə verdiyi müsahibələr bütün bunları görənlərin xatirindən heç zaman silinməyəcəkdir!**

*44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyev düşmənə bütün parametrlərdə - həm hərb meydanında, həm diplomatiya cəbhəsində, həm də informasiya müharibəsində qalib gəldi!*

**"Dəmir yumruğ"u ilə Ermənistan ordusunu darmadağın edərək qorxaqlar və fərarilər dəstəsinə çevirdi, möhtəşəm qələbəmizi təmin etdi!**

**Bu döyüşlərdə böyük iradə, cəsarət və əminlik göstərdi!**

**Biz indi də Prezidentimizdə həmin iradə, cəsarət və əminliyin şahidiyik!**

*Düşmən ordusu məhv edilsə də, Paşinyan kapitulyasiya aktına qol çəksə də, hələ də onu müdafiə edənlərə arxalanaraq sülh müqaviləsinin imzalanmasını müxtəlif bəhanələrlə uzadır.*

**Azərbaycan xalqı isə İlham Əliyevin rəhbərliyi ilə qurub-yaratmaqla, məcburi köçkünləri doğma yurdlarına qaytarmaqla, xoşbəxt həyatlarını təmin etməklə məşğuldur!**

*Bəli, cəmi 8 ayda yenidən tikilib qurulan Laçın öz sakinlərini qoynuna alır!*

*Hələ ki, Azərbaycan səbir və təmkin göstərir!*

*"Dəmir yumruq" isə əvvəlkitək hazır vəziyyətdədir!*

❖ ❖ ❖

*"Bu gün biz bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Bunu biz müharibə dövründə göstərmişik, 44 gün ərzində ancaq və ancaq irəli gedərək, düşməni məhv edərək, bayrağımızı qaldıraraq göstərmişik. Müharibədən sonra keçən 3 ilə yaxın müddətdə də bunu sübut etməyə məcburuq. Çünki bizə qarşı aparılan kampaniya, çirkin təbliğat bizim iradəmizə təsir edə bilməz, bizi yolumuzdan döndərə bilməz".*

**Cənab İlham Əliyevin Laçın Şəhəri Günündə qürurla söylədiyi sözlərdir!**

**Həm də təkcə söz deyil, real, hamının gördüyü və bildiyi gerçəkliklərdir.**

*Müzəffər Ali Baş Komandanın dönməz iradəsinin arxasında həm də cəsarət dayanır!*

*Çünki xalqına güvənən rəhbərlər heç zaman heç bir halda heç kimdən çəkinmirlər!*

- 44 günlük müharibədə Rusiyadan, İrandan Ermənistana gecə-gündüz dayanmadan silah-sursat daşındı;
- Ermənipərəst dövlət başçıları durmadan Azərbaycan Prezidentinə zənglər edərək hərbi əməliyyatların dayandırılmasını xahiş etdilər, bəzən hətta tələb etdilər;
- Dünyanın bütün satılmış KİV-ini, telekanallarını Azərbaycana göndərərək bizi borclu çıxarmağa, bizə şər-böhtan ataraq qara yaxmağa çalışdılar!
- Fransanın təşəbbüsü ilə BMT-nin Təhlükəsizlik Şurasında iclas keçirilərək Azərbaycanın əleyhinə qərəzli və birtərəfli sənəd qəbuluna cəhd göstərildi!

**İlham Əliyev böyük iradə, cəsarət və təmkinlə hamısının cavabını verdi, hamısını yerində oturtdu!**

❖ ❖ ❖

Şuşa yalın əllə geri qaytarıldı!

Ermənistanın məğlub ordusunun Azərbaycan ərazisindən çıxma qrafiki təqdim edilməyənədək, Paşinyan kapitulyasiya aktına qol çəkməyənədək hərbi əməliyyatlar dayandırılmadı!

**Biz İlham Əliyevin dönməz iradəsinin hələ sülh danışıqları dövründə də şahidi olmuşduq.**

*Azərbaycanı Laçın və Kəlbəcəri güzəştə getməyə, 5+2 prinsipi əsasında iki rayondan vaz keçməyə vadar etmək istədilər.*

**Baş tutmadı!**

*Təsir və təzyiq göstərməyə çalışdılar.*

**Faydası olmadı!**

İndi isə yeni "forma" tapıblar.

"TIR şousu" düzəldiblər.




"Humanitar fəlakət" ssenarisi oynayaraq Laçın yolundan əvvəlki kimi sərbəst istifadəyə cəhdlər edirlər.

Gah Avropadan "müşahidəçilər" gətirir, gah ölkələrindəki diplomatları və səfirləri yığaraq şəkil çəkdirməyə göndərir, gah da rüşvət və korrupsiya yolu ilə saxta "hesabatlar" və "arayışlar" hazırlatdırırlar.

*Hər dəfə məğlubiyyətə düçar olaraq uğursuzluqlara yuvarlansalar da, yenə murdar niyyətlərindən əl çəkmirlər.*

*"Humanitar şou" iştirakçıları bu gün də Laçın-Gorus yolunda "günəş vannası" qəbul edirlər.*

Yəqin ki, Laçında keçirilən ilk şəhər gününün atəşfəşanlığını da seyr etdilər.

**Başda Paşinyan olmaqla Fransa, ABŞ, Rusiya, hətta BMT Təhlükəsizlik Şurası da bilir ki, bu maşınlar Laçın yolundan heç bir halda keçə bilməyəcəklər!**

*İndi pərişan və çarəsiz vəziyyətə düşüblər:*

*İrəli getməyə gücləri, geri qayıtmağa üzləri yoxdur!*

*İstədikləri qədər yatıb dincələ bilərlər.*

❖ ❖ ❖

**Azərbaycan ərazisində bütün məsələləri Azərbaycan Prezidenti həll edir, bütün icazələri dövlətimizin başçısı verir!**

**İlham Əliyev isə sözünü bir dəfə deyir!**

**Onu da artıq deyib:**

*Əgər həqiqətən aclıq çəkirsinizsə, Ağdam-Xankəndi yolundan qanun çərçivəsində istifadə edə bilərsiniz!*

*Zəhmət çəkin, beton bloklarınızı və plitələrinizi necə qoymusunuzsa, eləcə də götürün!*

❖ ❖ ❖

**"Biz istədiyimizə hər zaman nail oluruq".**

**Bu da Prezident İlham Əliyevin sözüdür!**

Arxasında real iş, konkret əməl duran gerçək söz!

*Bu il aprelin 23-də Azərbaycan Laçında öz sərhədlərinə sahib çıxmaqla nəzarət-buraxılış məntəqəsi qurdu!*

**Bu, bizim 44 gündə qazanılan zəfərdən sonra ikinci möhtəşəm qələbəmiz oldu!**

- Azərbaycana xəyanət, fitnə-fəsad həmişə bu yolla gəlib.
- Düşmənlərimizin və onların havadarlarının erməniyə verdikləri silah-sursat bu yolla Qarabağa ötürülüb.
- Satqın və rüşvətxor siyasətçilər, deputatlar, müxtəlif ölkələri təmsil edən diplomatlar bizdən icazəsiz bu yolla ölkəmizə soxularaq separatçılara dəstək veriblər.
- Qarabağın və Şərqi Zəngəzurun bütün sərvətləri, dağıdılan evlərin materialları və qarət olunan əmlak bu yolla ölkədən kənara daşınıb.

*Əslində, bu yolu - Laçın-Gorus yolunu erməni separatizminin şah damarına çevirmişdilər.*

**İlham Əliyev müdrikcəsinə, tədbirlə, cəsarətlə, ən əsası özünəəminliklə separatçıların və onların havadarlarının şah damarını kəsdi!**

İndi isə eyni əminliklə dağıdılan əraziləri bərpa edir, 30 ildən çox qaçqın həyatı yaşamış insanları yenidən geri qaytararaq torpağının sahibinə çevirir!

- Biz sərhədlərimizin sahibiyik!
- Biz qapılarımızı istədiyimiz vaxt, həm də dostlarımızın, xoş niyyətlə gələnlərin üzünə açırıq!
- Biz güclüyük, vahidik, rəhbərimizin ətrafında sıx birləşmişik!
- Biz yaradan, quran xalqıq!

**Gücümüzü düşmənə də, dünyaya da əvvəlcə hərb meydanında göstərdik!**

**İndi isə quruculuq meydanında birliyimizi və imkanlarımızı nümayiş etdiririk!**

**Nə qədər gec deyil, Prezident İlham Əliyevin şərtləri əsasında sülh müqaviləsi imzalanmalıdır!**

**Bəxtiyar SADIQOV**








# Zabux həsrətinə də son qoyuldu

## Şərqi Zəngəzurun hər qarışında dalğalanan bayrağımız düşmənin bağrını yarır



İllərdir yurd həsrəti çəkən soydaşlarımız artıq tədricən doğma torpaqlarımıza geri dönürlər.





Böyük zəfərdən qısa müddət keçməsinə baxmayaraq, xəbis düşmənin viran qoyduğu yerlərimiz sürətlə bərpa olunur, xarabazarlığa çevrilmiş ev-eşiklərimiz yenisi, özü də daha gözəli ilə əvəz edilir. Otuz ilə yaxın dövrdə erməni vandalizminə məruz qalan Laçın artıq yeni dövrünə qədəm qoyub.

Avqustun 25-də Ali Baş Komandan İlham Əliyevin tapşırığına uyğun olaraq, Laçın rayonunun yenidən salınan Zabux kəndinə ilk köç karvanı yola salındı. Bakının Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola düşən köç karvanına Bərdədən, Şirvandan və Mingəçevirdən Zabuxa qayıdan ailələr qoşulub. İlk mərhələdə kəndə 20 ailə - 88 nəfər köçürülüb.

Doğma yurda qayıdan zabuxlular hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə, Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təşəkkür ediblər. İllərdir həsrətlə yaşayan laçınlılar hazırda öz doğma yurdlarına qayıdışın sevincini yaşayırlar. Avqustun 26-da isə onlar Laçın Şəhəri Gününü böyük coşqu və atəşfəşanlıqla qeyd etdilər.

### Zabux kəndinə ümumilikdə 245 ailənin köçürülməsi nəzərdə tutulur

Ümumi sahəsi 81 hektar olan Zabux kəndinə ümumilikdə 245 ailənin köçürülməsi nəzərdə tutulur. Eyni zamanda kənd sakinlərinin rahatlığı və məşğulluğu nəzərə alınaraq bir sıra infrastruktur binalarının da inşası həyata keçirilib. 81 hektar ərazidə ilkin mərhələdə 223 evdən ibarət kənd salınıb. 223 evin 53-ü 2 otaqlı, 116-sı 3 otaqlı, 28-i 4 otaqlı, 26-sı 5 otaqlıdır.

Həmçinin 50 yerlik uşaq bağçası, inzibati bina, tibb məntəqəsi və böyük ərazidə yerləşdirilmiş park salınıb. 3 aşırımlı, 73 metr uzunluğunda körpü tikilib. Bunların hamısı 5 ayın içində başa gəlib. Zabuxda evlərin, sosial obyektlərin və küçələrin işıqlandırılmasında "yaşıl enerji"dən istifadə edilir. Dövlət başçısının tapşırıqlarına uyğun olaraq, kənddə bütün işlər ən yüksək səviyyədə yerinə yetirilib. Laçınlıların kəndə köçürülməsi davam edəcək. İndiyədək Laçın rayonunda 254 ailənin, yəni 992 nəfərin daimi məskunlaşması təmin edilib.

Ümumiyyətlə, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Prezident İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası sürətlə həyata keçirilir. Artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə, Laçın şəhərinə, Füzuli rayonuna məcburi köçkünlərin qayıdışı təmin olunub və bu istiqamətdə işlər davam etdirilir.

Mayın 28-dən isə laçınlıların doğma yurda qayıdışına start verilib. Artıq Laçın şəhərində məskunlaşan sakinlərin sayı min nəfərə yaxınlaşıb. Laçınlıların dövlət başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb. Böyük qayıdışı təmin edəcək dövlət proqramına əsasən, 2023-cü ildə Laçın şəhərinə 700 ailənin, rayonun Zabux və Sus kəndlərinə isə 800-dən çox sakinin köçürülməsi nəzərdə tutulub.

### Növbəti 3 ildə Qarabağa və Şərqi Zəngəzura 150 mindən çox insan qaytarılacaq

İşğal dövründə Ermənistan tərəfindən viran qoyulan, dağına-daşına belə zərər yetirilən, zərrə həyat nişanəsi belə tapmaq mümkün olmayan ərazilərimiz indi nəhəng tikinti-quruculuq meydanına çevrilib. Azərbaycan dövləti tərəfindən bu yerlərə qayıdış üçün mühüm layihələr həyata keçirilir, yeni yollar, tunellər çəkilir, elektrik stansiyaları tikilir.

İyulun 21-də Prezident İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda I Şuşa Qlobal Media Forumunda bildirib ki, növbəti üç il ərzində Qarabağ və Şərqi Zəngəzur rayonları üzrə 150 mindən çox insan qaytarılacaq. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur.

Bir zamanlar ah-nalə ilə yurd-yuvalarından didərgin salınan soydaşlarımız fərəh, qürur və sevinclə torpaqlarına qovuşurlar. Zəfər coşqulu bu qayıdış əbədi qayıdışdır.

Dövlətimizin əsas məqsədi keçmiş məcburi köçkünləri tezliklə doğma diyara qaytarmaqdır. Bu gün keçmiş məcburi köçkünlər iftixarla deyirlər ki, Qarabağa və Şərqi Zəngəzura əbədi qayıdırıq və bundan sonra tarixi torpaqlarımızda əbədi yaşayacağıq. İnfrastruktur layihələrinin uğurla və sürətlə icra edilməsi heç də təsadüfi deyil. Qarabağda və Şərqi Zəngəzurda gerçəkləşdirilən layihələrin icrasına və dövlət proqramlarının yerinə yetirilməsinə, çoxyönlü tədbirlərə Prezident İlham Əliyev birbaşa özü nəzarət edir. Ölkə rəhbərinin tapşırığına əsasən, işğaldan azad edilmiş ərazilərdə infrastrukturun yenidən qurulması və bərpası, yaşayış məntəqələrinin yenidən tikintisi məqsədilə baş planlar hazırlanır və ona uyğun tikinti işləri davam etdirilir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Fransa Prezidentinin qərəzli fikirləri sülh prosesinə xələl gətirir

"Avqustun 28-də Fransa Prezidenti Emmanuel Makronun səfirlər konfransı zamanı səsləndirdiyi bölgə üzrə mövcud vəziyyətə dair yanlış təəssürat formalaşdıran və Ermənistanı birtərəfli qaydada müdafiə edən qərəzli fikirləri sülh prosesinə xələl gətirir".



AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Fransa Prezidenti E.Makronun səfirlər konfransında səsləndirdiyi fikirlərə dair şərhində əksini tapıb.

Ayxan Hacızadənin sözlərinə görə, Fransa Prezidentinin növbəti dəfə bölgədə humanitar vəziyyət barədə iddiaları əsas götürərək fikirlər səsləndirməsi bu ölkənin siyasətinin yanlış olduğunu bir daha sübut edir.

"Azərbaycana qarşı 30 ilə yaxın müddətdə Ermənistan tərəfindən həyata keçirilən işğalçılıq və təcavüz əməllərini qınamayan, işğal nəticəsində bir milyona yaxın qaçqın və məcburi köçkünün humanitar vəziyyətinə dair heç bir şərh verməyən Fransa tərəfinin indi Azərbaycanın BMT nizamnaməsinə və beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq öz torpaqlarının azad edilməsi ilə nəticələnən 2020-ci il 44 günlük Vətən müharibəsini qınaması, eləcə də bölgədə humanitar vəziyyətlə bağlı iddialara çıxışında xüsusi vurğu etməsi anlaşılan deyil", - deyə Xarici İşlər Nazirliyinin rəsmisi vurğulayıb.

O qeyd edib ki, Fransa Prezidentinin leksikonunda "Laçın humanitar dəhlizi" kimi ifadələrə yer verməsi, bu istiqamətdə təzyiq dili ilə danışması qəbuledilməzdir və Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə hörmətsizlikdir.

"Laçın yolundan və sərhəd-buraxılış məntəqəsindən gün ərzində onlarca erməni sakinin keçdiyi, Azərbaycan tərəfindən erməni sakinlərə yüklərin daşınması üçün Ağdam-Xankəndi və digər alternativ yolların ayrıldığı, bütün bu səylərə baxmayaraq, bu yollardan istifadənin Ermənistan və özlərini erməni sakinlərin nümayəndələri kimi təqdim edən şəxslər tərəfindən siyasiləşdirilməsi Fransa tərəfinə yaxşı məlumdur. Bu istiqamətdə cari ilin avqust ayının əvvəlində əldə olunmuş razılıqların icrasını təşviq etmək əvəzinə erməni tərəfinin təhrikçi addımlarına dəstək verən fikirlərə çıxış zamanı yer verilməsi prosesə birbaşa maneçilik törədən amillərdəndir.

Praqada Avropa İttifaqı missiyasının və 1991-ci il Alma-Ata bəyannaməsi çərçivəsində sərhədlərin tanınması təşəbbüsünün müəllifliyinin Fransanın olduğunu bildirən Fransa tərəfinin nəyə görə Azərbaycan əraziləri işğal altında olan 30 ilə yaxın bir dövrdə bu kimi təşəbbüslərlə çıxış etmədiyi sualına da cavab verməsi daha faydalı olardı.

Azərbaycan tərəfi bölgədə sülh və təhlükəsizliyin təmin olunmasında qərarlıdır və bu prosesə maneçilik törədən bütün kənar müdaxilələrin qarşısı qətiyyətlə alınacaq", - deyə Ayxan Hacızadə əlavə edib.

# Qərbi Azərbaycan İcmasından Avropa Şurasının İnsan hüquqları üzrə komissarına çağırış

Qərbi Azərbaycan İcması Avropa Şurasının İnsan hüquqları üzrə komissarı Dunya Miyatoviçin 2023-cü il 28 avqust tarixli ədalətsiz açıqlamasını pisləyib.

AZƏRTAC xəbər verir ki, bununla bağlı icma bəyanat yayıb.

"İlk öncə vurğulamaq istərdik ki, Azərbaycan ərazisində "Dağlıq Qarabağ" adlı ərazi vahidi yoxdur. Ermənistanın ən azı sözdə Qarabağı Azərbaycan ərazisi kimi tanımasından sonra bəzilərinin hələ də Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmətsiz münasibət bəsləməsi bir sıra suallar doğurur. Komissarı gələcəkdə "Azərbaycanın Qarabağ bölgəsi" ifadəsindən istifadə etməyə çağırırıq.

Azərbaycan 2001-ci ildə Avropa Şurasına daxil olduqdan sonra daim Ermənistan işğalının humanitar, insan hüquqları ilə bağlı fəsadlarını təşkilatda qaldırır, lakin hər dəfə "Biz siyasi təşkilat deyilik, bu kimi məsələlərə qarışmırıq" kimi standart, qəbuledilməz cavablar alırdı. Bəs indi Azərbaycan öz ərazilərini azad etdikdən sonra nə üçün eyni təşkilat və eyni rəsmilər artıq tamamilə fərqli mövqedən çıxış edirlər?!

2018-ci ildən komissar olan Dünya Miyatoviç nə üçün bircə dəfə Azərbaycan ərazilərinin işğalı, etnik təmizləmə, bir milyon azərbaycanlının qovulması ilə bağlı narahatlığını ifadə etməyib?

Azad edilmiş ərazilərdə bir-birinin ardınca kütləvi məzarlıqlar aşkar olunur. Kütləvi məzarlıqlarda aşkar edilmiş insan qalıqları əsasında 30 ildən sonra kimliyi müəyyən edilmiş bir neçə Azərbaycan hərbçisi bu günlərdə dəfn edilib. Kütləvi məzarlıq bir anlayış olaraq özündə insan hüquqlarının kobud şəkildə pozulmasını ehtiva edir. Niyə bu məsələyə dair narahatlığınızı ifadə etmirsiniz? Qarşıdan 30 Avqust - Beynəlxalq İtkin Düşmüş Şəxslər Günü gəlir. Bəlkə Ermənistanı kütləvi məzarlıqların koordinatlarını Azərbaycana təqdim etməyə çağırasınız?

2020-ci ildən bəri 300-dən çox azərbaycanlı Ermənistanın mina terrorunun qurbanı olub. Bəs bunlara siz komissar kimi nə vaxt münasibət bildirəcəksiniz?

Avropa Şurasının İnsan hüquqları üzrə komissarı Azərbaycanın Qarabağ bölgəsinə yox, qərbi azərbaycanlıları öz dədə-baba yurdlarından deportasiya etmiş, onların qayıdış hüququnu inkar edən Ermənistana səfər etməlidir. Bəlkə qərbi azərbaycanlıların dağıdılmış məscidlərini, qəbiristanlıqlarını ziyarət etməsinə imkan yaratmaq üçün Ermənistana çağırış edəsiniz?

Qərbi Azərbaycan İcması komissarı ikili standartların əsiri olmamağa və özünün müstəqilliyini qorumağa çağırır", - deyə bəyanatda vurğulanıb.

# Hayların harayına daha inanan yoxdur

## Yaxud özgəyə quyu qazan özü düşər

Düşmən üzərində 44 günlük müharibədə qazanılan qələbə nə qədər möhtəşəmdirsə, Laçın rayonu ərazisində Həkəri çayının üzərində sərhəd-buraxılış məntəqəsinin qoyulması da bir o qədər tarixi əhəmiyyətlidir.

Dünənədək döşünə döyüb özünü əbədi qalib bilən hayların bu gün üçrəngli bayrağımızın altında yazıqcasına növbədə durmaları möhtəşəm qələbəmizin bizə yaşatdığı daha bir qürur hissidir.

Bunu həzm edə bilməyən ermənilər və onların himayədarları isə heç bir əsasları olmadan yenə də azğıncasına ölkəmizi Ermənistanla sərhəddə vəziyyəti gərginləşdirməkdə, "humanitar fəlakət" yaratmaqda ittiham edirlər. Rəsmi İrəvanın havadarları ilə birlikdə işğalın 30 ili ərzində törətdikləri vəhşilikləri etiraf etmədən timsah göz yaşları hesabına gündəmə çıxmaq cəhdi ən azından təəccüb doğurur. Təəccüb doğurur ki, Laçın sərhəd-buraxılış məntəqəsinin yaradılmasının ölkəmizin suveren hüququ olmasını bu zavallılar bilməmiş deyillər. Bilməmiş deyillər ki, Azərbaycan dövlətinin sərhədlərinin toxunulmazlığını təmin edən bütün qanunların icrası milli təhlükəsizliyimizin ana şərtidir. Yəni burada erməni təbliğatçılarının eşələnməsi, ağı deyib küy salması gülünc və gülünc olduğu qədər də faciəvidir.

Milli maraqların qorunmasında dövlətimizin başçısının qətiyyətlə siyasi iradəsini nümayiş etdirməsi onu təsdiq edir ki, bu qərarların həyata keçirilməsində heç bir güzəştə yol verilməyəcək. Bu yerdə Prezident İlham Əliyevin 2023-cü ilin may ayında ABŞ dövlət katibi Entoni Blinkenlə telefon danışığı zamanı söylədiyi bir fikri xatırlatmaq yerinə düşər: "Azərbaycan-Ermənistan sərhədində Laçın sərhəd-buraxılış məntəqəsinin qurulması Azərbaycanın suveren hüquqları çərçivəsində və bütün beynəlxalq qaydalara uyğun olaraq təmin edilib... Məqsəd hərəkətin məhdudlaşdırılması deyil, əksinə, nəzarətin təmin edilməsidir və artıq bu məntəqə vasitəsilə gediş-gəliş həyata keçirilir... Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisinin hüquqları Azərbaycanın Konstitusiyası və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlər çərçivəsində təmin olunacaqdır".

Prezidentin bu fikrini təkrar edirik: "Laçın sərhəd-buraxılış məntəqəsinin qurulması və fəaliyyəti Azərbaycan dövlətinin müstəqilliyini təmin edən vacib qərardır və onun geriyə dönüşü mümkünsüzdür. Bayrağımızın altından Ermənistana və geriyə hərəkət edən sadə ermənilər birdəfəlik dərk etməli və başa düşməlidirlər ki, onların bu qarşıdurmadan və gərginlikdən yeganə xilas yolu Azərbaycana güvənməkdən, onun gücünə inanmaqdan keçir. Anlamalıdırlar ki, Azərbaycanın ərazi bütövlüyü müqəddəsdir, onun millətindən asılı olmayaraq bütün vətəndaşları qanunun himayəsi altındadır. Qatillər, canilər, iki xalqı düşmən etməyə çalışan qüvvələr isə məsuliyyətə cəlb ediləcəklər - Vaqif Xaçaturyan və başqaları kimi".

Laçın sərhəd-buraxılış məntəqəsinin açılması, burada rəsmi dövlət qurumlarımızın fəaliyyəti bir daha onu təsdiq edir ki, Azərbaycan savaş yox, sülh tərəfdarıdır. Ona görə də ərazisində hər hansı qanunsuz silahlı dəstənin mövcudluğuna imkan verməyəcək. Buna cəhd edənlərin qarşısı qanunun gücü ilə qətiyyətlə alınacaq. Qoy bunu İrəvandakı və Xankəndidəki revanşistlər qulaqlarını açıb yaxşı eşitsinlər. Təsadüfi deyil ki, Beynəlxalq Ədalət Məhkəməsi də 6 iyul 2023-cü il tarixli yekdil qərarı ilə Ermənistanın nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı müvəqqəti tədbir görmək tələbini rədd etməklə yanaşı, Ermənistanın Laçın keçid məntəqəsinin qanunsuz olması ilə bağlı iddialarını qəti şəkildə təkzib etmişdir.

Amma nə edəsən ki, rəsmi İrəvan yenə də hiylədən əl çəkmir, məkrli xislətini yerə qoymur. Bu dövlətə nə Qarabağda yaşamaq istəyən hayların taleyi, nə də bölgəyə sülhün gəlişi lazımdır. Onların göyə dirənən "humanitar fəlakət" bəhanələrinin və manipulyasiyalarının "strateji hədəf"i hərbi təxribatlar üçün süni səbəblər yaratmaq, Azərbaycanın Qarabağ bölgəsində vəziyyətin gərginləşməsinə nail olmaqdır. Lakin haylar bu yolda nə qədər məkrli oyunlara əl atsalar da, nəticədə qazdıqları quyuya özləri düşəcəklər. Dəfələrlə olduğu kimi.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Paytaxtın mərkəzi küçələrini klassik avtomobillər bəzəyib: *yürüş və sərgi təşkil edilib*













Azərbaycan Avtomobil Federasiyası (AAF) və "Zhara Events"in təşkilatçılığı ilə avqustun 27-də klassik avtomobillərin yürüşü və sərgisi keçirilib.

AZƏRTAC xəbər verir ki, bu avtomobillər yürüş üçün Avtomobil Federasiyasında qeydiyyatdan keçən və Heydər Əliyev Mərkəzindəki daimi sərginin bəzi eksponatlarından ibarət nəqliyyat vasitələri olub.

Heydər Əliyev Mərkəzinin qarşısından start götürən klassik avtomobillər "Sea Breeze" istirahət mərkəzinədək yürüş ediblər. Yürüşə 1983-cü ilədək istehsal olunan nəqliyyat vasitələri qatılıb. Əvvəlcə klassik avtomobillər şəhərin mərkəzi küçələri ilə hərəkət ediblər.

Yürüşün marşrutu Heydər Əliyev Mərkəzi - Gülarə Qədirbəyova küçəsi - Yusif Səfərov küçəsi - Üzeyir Hacıbəyli küçəsi - Neftçilər prospekti - Yusif Səfərov küçəsi - Heydər Əliyev prospekti - Aeroport yolu - Bakı Ekspo Mərkəzi - "Sea Breeze Resort" olub.

Ənənə halını almış yürüşdə paytaxt küçələrini müxtəlif illərdə və ölkələrdə istehsal olunan klassik avtomobil karvanı bəzəyib. Bu avtomobillərin hər birinin olduqca maraqlı tarixi var. Həmin avtomobillər öz dövrünün müasiri olsa da, zaman keçdikcə onların tarixi dəyəri daha da artır.

Retro nəqliyyat vasitələri şəhər sakinlərində, paytaxtımızın qonaqlarında və klassik avtomobil həvəskarlarında nostalji hisslər yaradıb.

Karvanda qeyri-adi avtomobillər də yer alıb. Məlum olduğu kimi, dünya təcrübəsində nadir hallarda avtomobillərə fərqli dekorativ kompozisiyalar quraşdırılaraq müxtəlif incəsənət nümunələri yaradılır. Azərbaycanda ilk dəfə avtomobil üzərində nəbati elementlərdən ibarət dekorativ kompozisiya məhz "Qaz-M21" Volqa avtomobili üzərində edilib. Yürüşdə iştirak edən bu nəqliyyat vasitəsi görünüş etibarilə avtomobil üzərində quraşdırılan nadir dekorativ-tətbiqi sənət kompozisiyalarından biri hesab olunur.








— YÜRÜŞDƏKİ —
"Ən unikal avtomobil"
Jaguar E-Type



— YÜRÜŞDƏKİ —
"Ən qədim avtomobil"
1931-ci il



— Ən rəngarəng retro geyim —
Könül Quliyeva
2-ci yer



— Ən rəngarəng retro geyim və xüsusi qonaq —
Çinin Azərbaycandakı səfiri
Guo Min

Əlli kilometrdən çox məsafəni qət edərək "Sea Breeze" istirahət mərkəzinə çatan klassik avtomobillərin burada sərgisi təşkil olunub.

Məkanda müxtəlif təqdimatlar və əyləncələrin keçirildiyi sponsorlar zonası da təşkil edilib. Burada son illərdə paytaxt Bakının evsahibliyi etdiyi Formula 1-in bolidi də yer alıb. Foto həvəskarlarının, eləcə də həmin günün ziyarətçilərinin yaddaşında gözəl bir xatirə kimi həkk olunması üçün xüsusi fotozona da yaradılıb.

Tamaşaçılar üçün, həmçinin tanınmış ifaçıların iştirakı ilə retro tərzdə konsert də təqdim edilib.

Konsertdə sevilən müğənnilər Aisel, Cin, Dilarə Kazımova, Nigar Camalzadə, EMİN, Murad Arif, Nura Suri, Rilaya Hüseynzadə, Zamiq Hüseynov çıxış ediblər.

"Sea Breeze"də ziyarətçilər üçün əyləncə proqramı da təşkil olunub, müsabiqələr keçirilib, müxtəlif nominasiyalarda - "Ən nizamlı sürücü", "Ən qədim avtomobil", "Ən unikal avtomobil", "Məşhurların seçimi olan avtomobil" və "Ən rəngarəng geyim" nominasiyalarında hədiyyələr təqdim olunub.

Yürüşdə iştirak edən "Qaz-60" avtomobilinin sürücüsü Zaur Əliyev idarə etdiyi nəqliyyat vasitəsinin 1960-cı ildə buraxıldığını bildirib: "Mən bu avtomobili 2014-cü ildən etibarən yığıram. Bundan əlavə, digər nadir nəqliyyat vasitələrim də var. Şəhərdə bunu idarə etmək çətindir. Ona görə də çox az hallarda idarə edirəm".

"Harley-Davidson" markalı motosikletin sahibi Vladislav Vologin nəqliyyat vasitəsinin 1938-ci ilə məxsus olduğunu söyləyərək bildirib: "Bu mənə babamdan qalıb. Hazırda çox az adam bundan istifadə edir".

Sərgiyə 1926-cı il istehsallı "Moskvich"i ilə qatılan Araz Kərimov isə nəqliyyat vasitəsini beş il əvvəl Polşadan gətirdiyini vurğulayıb. O deyib: "Avtomobili təxminən 1500 dollara almışam. Bu cür köhnə avtomobillərə uşaqlıqdan həvəsim var".

# Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2023-cü ilin sentyabr ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 4 |
| **Adil Abış oğlu ƏLİYEV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Gənclər və idman komitəsinin sədri | 26 |
| **Fəzail Feyruz oğlu İBRAHİMLİ** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 6 |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 8 |
| **Zahid Məhərrəm oğlu ORUC** Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | 20 |
| **Sadiq Haqverdi oğlu QURBANOV** Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 22 |
| **Tahir Famil oğlu MİRKİŞİLİ** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 11 |
| **Tahir Musa oğlu RZAYEV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 5 |
| **Musa İsa oğlu QULİYEV** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 14 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | 21 |
| **Hicran Kamran qızı HÜSEYNOVA** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 25 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 13 |
| **Bəxtiyar Həmzə oğlu ƏLİYEV** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 18 |
| **Qənirə Ələsgər qızı PAŞAYEVA** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 12 |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 15 |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin İntizam komissiyasının sədri | 7 |
| **Fərid Famil oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 1 |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | 19 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 29 |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 28 |
| **Adil İsrayıl oğlu VƏLİYEV** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 22 |
| **Şakir Himalay oğlu ŞABANOV** Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | 19 |
| **Ayan Zəfər qızı MURTUZOVA** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 15 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının qəbul otağında qəbul olunurlar.**

**Ünvan: Bakı şəhəri, Parlament prospekti, 1.**

**“Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun tələblərini təmin etmək məqsədilə:**

**Qəbul vaxtı: saat 14:00-dan başlayır.**

**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**

**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edirlər.**

**Telefonlar: (012) 510-99-38; (012) 492-74-05; (012) 510-89-14.**

# Laçın sərhəd-keçid məntəqəsində saxlanılan erməni futbolçular həbs ediliblər

*Əvvəli 1-ci səh.*

Təqsirləndirilən şəxslərin yaşı, törətdikləri əməli səmimi etiraf etməklə peşman olmaları nəzərə alınıb və cinayət prosessual qanunvericiliyin tələblərinə əməl olunmaqla humanizm prinsipi tətbiq edilərək onların barəsində cinayət təqibinə xitam verilib.

Eyni zamanda "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən, milli, irqi və ya dini nifrət və düşmənçiliyin salınmasına yönələn açıq çağırışlar edən informasiyanın internet informasiya ehtiyatında yerləşdirilməsi qadağan edildiyi halda, hərəkətlərini video qeydiyyata alıb bu günədək yutub və müxtəlif sosial şəbəkə vasitələrində yaydıqlarına görə Baş Prokurorluğun müvafiq qərarı əsasında İnzibati Xətalar Məcəlləsinin 388-1-ci (İnternet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi) maddəsi ilə inzibati icraat başlanıb, qeyd olunan şəxslərin barəsində məhkəmənin qərarı ilə 10 gün müddətə inzibati həbs tətbiq olunub.

İnzibati həbs cəzasının icrasından sonra qeyd olunan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması təmin olunacaq.

# ÜST-nin nümayəndə heyətinin Naxçıvana işgüzar səfəri başlayıb

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı Ofisinin rəhbəri Hande Harmancının başçılıq etdiyi nümayəndə heyətinin Naxçıvana 3 günlük səfəri başlayıb.

ÜST-dən AZƏRTAC-a verilən məlumata görə, səfər Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin dəvəti ilə baş tutub.

Səfərin ilk günündə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub və Heydər Əliyev Muzeyinə baş çəkilib, daha sonra Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ilə görüş keçirilib və gələcək əməkdaşlıq imkanları müzakirə edilib.

Ardınca Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin



birinci müavini, nazir vəzifələrini icra edən Samiq Sadıxovun başçılıq etdiyi nümayəndə heyəti ilə işgüzar görüş keçirilib. Görüşdə ilkin səhiyyə, təcili tibbi yardım, laboratoriya, ictimai səhiyyə və tibb təhsili mövzuları ilə bağlı geniş müzakirələr aparılıb. Nümayəndə heyəti həmçinin İlkin Səhiyyə Xidmətinə baş çəkib və yaradılan şəraitlə tanış olub.

Səfər çərçivəsində ÜST-nin nümayəndə heyətinin muxtar respublikanın səhiyyə sistemində son aylarda həyata keçirilmiş islahatlar, tibbi xidmətin keyfiyyətinin artırılmasına yönəlmiş işlər, həmçinin yaxın günlərdə reallaşdırılacaq layihələrlə yaxından tanış olması nəzərdə tutulur. Onlar Naxçıvan şəhəri ilə yanaşı, Ordubad və Şərur rayonlarında da olacaq, rayonlarda yeni yaradılan Ailə Sağlamlıq mərkəzlərinə baxış keçirəcəklər.

# Fransa bitib-tükənməyən təxribatlarından əl çəkməlidir

Fransanın Cənubi Qafqazda apardığı siyasət iflasa uğradı və özünü ofsayt vəziyyətinə saldı. İfşa olunaraq oyundan kənar vəziyyətə düşən Fransa varlığını sübut etmək, yenidən Cənubi Qafqaz siyasətinə qayıdıb prosesin "aktiv" iştirakçısı olmaq həvəsi ilə durmadan anti-Azərbaycan "fəaliyyət"ini davam etdirir.



Beynəlxalq erməni lobbisinin təsiri altından çıxa bilməyən Fransa Prezidenti Emmanuel Makron düşünür ki, Fransanın siyasi mövqeyindən və beynəlxalq təşkilatlardakı hüququndan istifadə edərək Azərbaycana siyasi təzyiq göstərib yenidən öz mövqeyini bərpa edə biləcək. Əlbəttə ki, yanılır. "Sirkə nə qədər tünd olsa, öz qabına ziyan verər" deyib müdriklər. Azərbaycan əleyhinə az qala hər gün bir qətnamə istehsal etməklə tanınan, ölkəmizə qarşı aparılan erməni təbliğatına rejissorluq edən bu ölkənin vasitəçilik niyyətinə düşməsi olduqca gülünc, gülünc olduğu qədər də iyrənc görünür...

13 bölgəsindən biri olan Korsikada yerli əhaliyə ana dilində danışmağa imkan verməyən, heç bir insan haqlarına məhəl qoymayan, XXI əsrdə müstəmləkəçilik siyasətindən hələ də əl çəkə bilməyən, Əlcəzairdə soyqırımı törədib etdiyi əməllərə görə bu gün də üzr istəməyən Fransanın insan haqlarından, hüquqlarından danışmasının özü insan haqqına böyük həqarətdir. Bu özünü "mələk" hesab edən Fransanın Qafqaza girmək üçün qurduğu oyundan başqa bir şey deyil.

Ermənistan Fransanın Cənubi Qafqaz siyasətində həmişə bir alət olub. Bu gün də ermənilər Cənubi Qafqaz siyasətində uduzan Fransanın əlində bir oyuncaqdır. Bundan məharətlə istifadə edir. Əgər Fransa hökuməti, Fransa Senatı bu qədər ermənisevərdirsə, əhalisinin böyük əksəriyyətini ermənilər təşkil edən Marseldə onlara milli muxtariyyət verib özünün əsl "ermənisevərliyini" nümayiş etdirsin. Öz siyasi ambisiyasına görə erməniləri təxribata çəkib müharibəyə təhrik etməsin.

### Fransa ölkəmizə qarşı informasiya müharibəsi aparır

Ermənistanın 44 günlük Vətən müharibəsindəki məğlubiyyəti, əslində, onu müharibəyə təhrik edən Fransanın məğlubiyyətidir. Fransa Prezidenti Emmanuel Makronun istər Vətən müharibəsi zamanı etdiyi canfəşanlıq, istərsə də müharibədən sonra göstərdiyi fəaliyyət iflasa uğradı. Hərbi, siyasi və hüquqi cəhətdən uduzan Fransa indi də ölkəmizə qarşı informasiya cəbhəsi açıb. Bu ölkə Laçın yolu ətrafında hay-küy yaradır, BMT-də "humanitar böhran" şousu göstərir. Fransa BMT Təhlükəsizlik Şurasının "Laçın dəhlizinin blokadadan çıxarılması haqqında" qətnamə layihəsini hazırlayır... Bu ölkənin mətbuatı ölkəmiz əleyhinə aparılan çirkin kampaniyaya "bayraqdarlıq" edir. Bu ölkə Azərbaycan əleyhinə bütün fitnəkarlıqları sınaqdan çıxarır.

Azərbaycan irihəcmli yükdaşımalar üçün Ağdam-Xankəndi yolunu təklif edib. Bundan dünyanın bütün beynəlxalq təşkilatları da xəbərdardırlar. "Humanitar yük" dolu avtomobil konvoyunun sərhədimizdə dayandığını, Laçın yolu ilə ölkəmizin hüdudlarına buraxılmamasının səbəbini Fransa qədər yaxşı bilən ikinci bir ölkə yoxdur. Bütün bunları bilən və iyrənc ssenarinin müəllifi olan Fransa görün daha nə edir - Fransadan toplanan 10 yük avtomobilini yardım üçün Qarabağa göndərmək istəyir. Özü də haradan?

Fransanın "Le Figaro" jurnalının direktor müavini Jan-Kristof Buisson bu barədə öz tviter hesabında yazıb:

"Fransadan 10 ağır yük maşınından ibarət humanitar karvan avqustun 30-da Kornidzora - Ermənistan Artsaxının girişində yola düşəcək. Yük Fransadakı Erməni Təşkilatlarının Koordinasiya Şurasının (CCAF) köməyi ilə yığılıb. Yükü Fransanın bir sıra regionlarının nümayəndələri müşayiət edəcək. Nümayəndə heyətinə Parisin meri Anna Hidalqo rəhbərlik edəcək. Nümayəndə heyətinə Marsel və Strasburq merləri, həmçinin Fransanın bir sıra regionlarının rəhbərləri də daxildir".

Gəlsinlər! Hələ əllərinə bir "binokl" da alıb ermənilərin vaxtilə viran qoyduqları, Azərbaycanın cənnətə döndərdiyi Laçını, Zabux və Sus kəndlərni aralıdan seyr edib "keflərini kökəltsinlər".

Xatırladaq ki, cəmi bir neçə gün öncə ATƏT-in fəaliyyətdə olan həmsədri Andjey Kaspşik İrəvana gəlib Nikol Paşinyanla görüşdükdən sonra sərhədə gəlib dağların başında durub və torpaqlarımıza baxa-baxa qalmışdır...

Son günlər Qarabağda olan separatçıların ritorikanı dəyişdikləri açıq müşahidə olunmaqdadır. Müdafiə Nazirliyi hər gün müxtəlif istiqamətlərdə separatçıların ordumuzun mövqelərini atəşə tutmaları barədə məlumat yayır. Sözsüz ki, bu fitnəkarlığın arxasında Fransa siyasəti durur. Məqsəd atəşkəsi pozub müharibəyə başlamaq, vəziyyəti gərginləşdirməkdir.

### Azərbaycanın ərazi bütövlüyünün bərpası Fransanı narahat edir

İkinci Qarabağ savaşından sonra başlayan siyasi mübarizənin növbəti mərhələsi Azərbaycanın Ermənistanla sərhəddə yerləşən Laçın rayonu ərazisində 23 aprel 2023-cü il tarixdə Laçın sərhəd-buraxılış məntəqəsinin yaradılması ilə başa çatdı. Ölkəmizin atdığı bu qətiyyətli addım ərazi bütövlüyümüzün bərpası istiqamətində ən uğurlu həmlədir. Azərbaycan-Ermənistan sərhədində Laçın sərhəd-buraxılış məntəqəsinin yaradılmasını həzm edə bilməyən Ermənistan tərəfi və onu himayə edən qüvvələr ölkəmizi guya Ermənistanla sərhəddə vəziyyəti gərginləşdirməkdə, Qarabağ bölgəsində humanitar böhran yaratmaqda suçlayırlar. Rəsmi İrəvan və havadarları bu cür cəhdlərlə Azərbaycanın daxili işlərinə müdaxilə etməklə yanaşı, uzun illərdən bəri ölkəmizə qarşı həyata keçirilən təcavüzkar siyasətlərinə fərqli don geyindirməyə çalışırlar. Onlar anlamalıdırlar ki, sərhədimizin toxunulmazlığının təmin olunması məsələsi ölkəmizin milli təhlükəsizliyi ilə yanaşı, qanunun aliliyinin də tələbidir. Dövlət təhlükəsizliyinin pozulmasına yönəlik təhdidlərə qarşı suveren ərazimizdə sərhəd-buraxılış məntəqəsinin yaradılması beynəlxalq hüququn norma və prinsiplərinə də tam uyğundur.

Artıq bu yolla Ermənistan ölkəmizə qanunsuz silah-sursat daşıya bilmir. Ermənistan Qarabağda saxladığı hərbi qulluqçuların rotasiyasını həyata keçirməkdə çətinlik çəkir. Ermənistan və havadarları istədiklərini edə bilmirlər. Bu da onları daha da qəzəbləndirir. Mənasız yerə səs-küy salıb ölkəmizin əleyhinə təbliğat aparanlar anlamalıdırlar ki, Laçın sərhəd-buraxılış məntəqəsinin yaradılması ölkəmizin suveren hüquqları çərçivəsində atılmış legitim addımdır. Laçın ölkəmizin ərazisində olduğundan burada həyata keçiriləcək tədbirlər, o cümlədən sərhəd-buraxılış məntəqəsinin yaradılması da müstəsna olaraq ölkəmizin daxili işidir və buna beynəlxalq hüquqla heç kimin qarışmağa haqqı yoxdur.

Hətta Ermənistanın Laçın keçid-buraxılış məntəqəsinin qanunsuz olması, nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı müvəqqəti tədbir görmək tələbi ilə bağlı iddialarını Beynəlxalq Ədalət Məhkəməsi 2023-cü il 6 iyul tarixdə yekdil qərarı ilə rədd edib.

Ermənistan-Fransa cütlüyünün ölkəmizə qarşı təxribatları bitib-tükənmək bilmir. Bəlkə bu ölkələrin qonşu dövlətlərlə sərhədləri və sərhədlərində nəzarət-buraxılış məntəqəsi yoxdur? Bəlkə bu ölkələrdə sərhədlər o qədər "şəffaf"dır ki, kim istəyir və necə istəyir Fransaya, eləcə də Ermənistana girib çıxa bilir? Dünya bilir ki, çığır-bağır salıb şivən qoparan bu iki "bacı" dünyada insanlığa yaraşmayan qanlı qətliamlar törətmiş dövlətlərdir. İnsanlığa ləkə gətirən, insan qanı içən cəlladların bu gün "humanizm"dən don geyinmələri törətdikləri əməllər kimi çox eybəcər görünür. Təəssüf ki, dünya birliyi bunu görsə də, reaksiyası yoxdur...

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Laçın yeni dirçəliş dövrünü yaşayır

## Prezident İlham Əliyev keçmiş məcburi köçkünlərin öz yurdlarında firavan yaşamaları üçün hər cür şərait yaradır







Avqustun 26-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçında səfərdə olublar. Prezident və xanımı Laçında görülən işlərlə yerində tanış olub, tapşırıq və tövsiyələrini verib, həmçinin doğma yurdlarına qayıtmış laçınlılarla Laçın Şəhəri Günü bayram tədbirində görüşüblər.

Bütün bunlar, eləcə də otuzillik işğal dövründə müxtəlif vandallıqlara məruz qalan Laçında işğaldan sonra cəmi 8 ay ərzində gözəl bir şəhər salınması, min nəfərə yaxın sakininin doğma şəhərə dönüşünün təmin olunması bir daha sübut edir ki, "Böyük qayıdış" proqramı sürətlə icra olunur.

### "Bizim iradəmizə heç kim təsir edə bilməz"

Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev deyib ki, uzun illər işğal altında olmuş Laçın rayonu hazırda dirçəliş dövrünü yaşayır, burada sürətli abadlıq-quruculuq işləri aparılır. Görülən işlərin nəticəsidir ki, artıq minə yaxın sakin öz yurduna dönüb və bu proses uğurla davam edir.

Bütün bu işləri dövlətimiz qısa vaxt ərzində həyata keçirib. Otuz il işğal altında olan digər rayonlarımız kimi, ermənilər burada da vandallıqla məşğul olub, rayonun təbii resurslarını talan ediblər. Onlar Laçında yaşayış məntəqələrinin coğrafi adlarını dəyişdirməkdən tutmuş qanunsuz məskunlaşmaya qədər hər cür çirkinliklərə əl atıblar. Bu gün isə mənzərə başqadır, işğalın bütün fəsadları aradan qaldırılır, rayonun əvvəlki görkəmi özünə qaytarılır.

Deputat vurğulayıb ki, Şərqi Zəngəzurda və Qarabağda aparılan tikinti-quruculuq işlərinə dövlət başçısı bilavasitə nəzarət edir: "Dövlət başçısı birinci xanım Mehriban Əliyeva ilə birlikdə bu bölgəyə mütəmadi səfərlər edərək görülən işlərlə yerində tanış olur, tapşırıq və tövsiyələrini verir. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Kəlbəcər və Laçın rayonlarına sonuncu səfəri də bu baxımdan əlamətdar oldu, bir sıra obyektlərin təməlqoyma və açılış mərasimlərində iştirak etdilər, Laçında yerli sakinlərlə görüşüb söhbətləşdilər. Öz yurdlarına dönən laçınlılar ən böyük arzularına qovuşduqlarına görə Prezidentə təşəkkürlərini bildirdilər".

S.Möhbalıyevin sözlərinə görə, dövlət başçısı Laçın şəhərində Laçın Şəhəri Günü bayram tədbirində də iştirak etdi. Prezident tədbirdəki çıxışında bir daha bəyan etdi ki, bizim iradəmizə heç kim təsir edə bilməz. Məlumdur ki, təcavüzkar planları alt-üst olan, işğalçı ordusu məhv edilən Ermənistan tərəfi çirkin və yalan anti-Azərbaycan təbliğatı aparır, Laçın sərhəd-buraxılış məntəqəsinin qurulmasına etiraz edərək ölkəmizin daxili işlərinə qarışmağa cəhd göstərir. Elə güman edir ki, havadarlarının köməyi ilə guya nəyəsə nail ola bilər. "Amma unudur ki, Fransanın və digər işğalı dəstəkləyən "dostlarının" əli nə qədər uzun olsa da, bizim torpaqlara gəlib çatmaz, çünki Azərbaycan güclü dövlətdir, buna heç vaxt yol verməz. Sərhəd-buraxılış məntəqəsinin qurulması Azərbaycanın suveren hüququdur, bu məsələdə beynəlxalq hüquq da bizim tərəfimizdədir. Prezidentimiz bu barədə son sözünü dedi. Ermənistan sadəcə vaxt itirir və bununla düşdüyü vəziyyəti daha da ağırlaşdırır", - deyə Milli Məclisin deputatı söyləyib.

Deputat əlavə edib ki, Prezident İlham Əliyev xalqına verdiyi vədlərin hər birini yerinə yetirib, əməli ilə sözünü hər zaman təsdiqləyib: "Dövlət başçısı çıxışı zamanı 50 illik yubileyini qeyd etdiyi vaxt Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində laçınlılarla verdiyi vədi xatırlatdı. Artıq nəticə ortadadır. Öz yurduna qayıdan laçınlılar daha rahat, müasir mənzillərlə təmin edilirlər. Onların Laçında firavan yaşaması üçün hər cür şərait yaradılır. Bütün bu nailiyyətlərin önündə Prezidentin müdrik idarəçiliyi dayanır".

### Prezident dövlətimizin yüksəlişinin yenilməz təminatçısı olduğunu əməlləri ilə sübut edir

Milli Məclisin deputatı Rəşad Mahmudov bildirib ki, Prezident İlham Əliyev hələ 2011-ci il dekabrın 24-də 50 illik yubileyini Taxtakörpü qəsəbəsində məskunlaşmış Laçından olan keçmiş məcburi köçkün ailələri ilə qeyd edərkən ölkəmizin ərazi bütövlüyünün bərpa olunacağının anonsunu vermişdi. Həmin vaxtdan 9 il keçdi və Prezident xalqa verdiyi sözü reallaşdırdı. Otuz il həsrətində qaldığımız, yalnız xəyallarımızda yer alan vətən torpaqları işğaldan azad edildi, ruhumuzun və mədəniyyətimizin paytaxtı olan Şuşada üçrəngli bayrağımız ucaldıldı. Dünya Azərbaycan Ordusunun gücünə şahid oldu.

"Düşmənin təslimçilik şərtləri altında azad olunmuş Laçın şəhərində Həkəri çayının sahilində keçirilən Laçın Şəhəri Günü bayram şənliyi də bunu bir daha təsdiqlədi. Bir zamanlar Taxtakörpüdə doğum günündə məcburi köçkünlərlə görüşən Prezident İlham Əliyev avqustun 26-da Müzəffər Ali Baş Komandan kimi Laçın şəhərində öz evlərində məskunlaşmış laçınlılar qarşısında çıxış etdi. Hər birimiz qürurlu anlar yaşadıq, dövlətimizin başçısı yenidən azad olunmuş ərazilərimizdə, xalqın önündə idi", - deyə R.Mahmudov söyləyib.

Deputat dedi ki, Prezidentin bütün səfərlərində olduğu kimi, Laçına son səfəri zamanı da bir çox mühüm obyektin açılışı və təməlqoyma mərasimində iştirak etməsi bu torpaqların əzəli sakinlərində bayram ovqatı yaratdı: "İndi işğal dövründə düşmənin xarabalığa çevirdiyi Laçın və bütövlükdə Şərqi Zəngəzurda möhtəşəm quruculuq işləri aparılır. Bu bölgədə artıq minlərlə ailə məskunlaşıb və doğma yurdlarında yeni evlərə köçürülmüş vətəndaşlarımız bu böyük xoşbəxtliyi yaşayır. Prezidentin Laçına səfəri zamanı sakinlər qarşısında çıxışında verdiyi siyasi mesajlar da çox mühüm əhəmiyyət kəsb edir".

Deputat əlavə edib ki, Prezident İlham Əliyevin Laçına səfəri Azərbaycanın həm siyasi, iqtisadi, həm də hərbi qüdrətinin növbəti nümayişi kimi yadda qaldı. Səfər zamanı sakinlərlə səmimi ünsiyyət və xalq sevgisi Azərbaycan liderinin dövlətimizin yüksəlişinin yenilməz təminatçısı olduğunu bir daha sübut etdi.

### İlham Əliyev dünyaya göstərdi ki, geriyə yol yoxdur

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov söyləyib ki, Prezident İlham Əliyevin Laçın şəhərində Laçın Şəhəri Günü bayram tədbirində iştirakı, Həkəri çayının sahilindən verdiyi mesajlar bu ilin aprelindən start verilmiş anti-Azərbaycan kampaniyasına zərbə oldu. İlk növbədə 30 illik işğal dövründə urbisid, ekosid və kulturasidə məruz qalan Laçında cəmi 8 aya şəhər salınması, 1000-ə yaxın Laçın sakininin doğma şəhərinə qayıdışının təmin olunması, ilin sonunadək isə daha 900 ailənin məskunlaşacağının bəyan olunması ilə Prezident İlham Əliyev dünyaya göstərdi ki, burada möhkəmlənirik, geriyə yol yoxdur.

Deputat bildirib ki, Laçın şəhəri, Zabux və Sus kəndləri hərbi qələbəmizə əsaslanan siyasi məcburetmə formasında düşməndən azad edilib. Qanunsuz məskunlaşmış ermənilər aparılan işlər nəticəsində avqustun 25-də oradan çıxarılıb. Kapitulyasiya aktına müvafiq olaraq Azərbaycanın çevik tədbirləri nəticəsində vaxtından tez - ötən il avqustun 26-da Zabux, Sus kəndlərinə və Laçın şəhərinə qayıtmışıq. Elə o zaman Prezident İlham Əliyev Laçın şəhərinə səfər edərək şəhərin mərkəzində Azərbaycan bayrağını qaldıraraq artıq bu doğma diyarımızda əbədi yaşayacağımızı bəyan etmişdi.

Bəhruz Məhərrəmov qeyd edib ki, Rusiya sülhməramlılarının himayəsində çoxsaylı alternativ kommunikasiya imkanları olan, eləcə də Laçın-Xankəndi yolunda yaradılmış şəraitdən sürətlə silahlanmaq və növbəti təcavüz aktına hazırlaşmaq üçün istifadə edən Ermənistan havadarlarının hərbi-siyasi dəstəyi ilə bu status-kvonu dəyişməkdə ümidli idi. Lakin Prezident İlham Əliyev iradə nümayiş etdirib, suveren hüququmuz olan Laçın sərhəd-buraxılış məntəqəsini yaratmaqla həm bu bölgənin özünün, həm də regiondakı son sözün sahibinin kim olduğunu göstərdi. Artıq ermənilərin və havadarlarının 4 aydır davam edən çirkab kampaniyalarına gəlincə, Laçın Şəhəri Günündə Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanının ifadə etdiyi kimi, heç bir çirkin təbliğat bizim iradəmizə təsir edə bilməz, bizi yolumuzdan döndərə bilməz. Baş verənlər, əslində, Ermənistanı məhvə doğru aparır.

Deputat vurğulayıb ki, diqqət çəkən məqamlardan biri də dövlət başçısının daha bir vədini yerinə yetirməsi oldu: "Prezidentin özünün ifadə etdiyi kimi, o, 50 yaşı tamam olanda Ağcabədi rayonunda, Taxtakörpü qəsəbəsində laçınlılara azad Laçında daha gözəl şərait vəd etmişdi. Etiraf edək ki, işğal altındakı rayonlarımız arasında azad edilməsi ən müşkül bölgə Laçın idi. Güclü ordusu, kəskin diplomatik zəkası, mübahisəsiz üstün liderlik qabiliyyəti, ən əsası isə xalqın istisnasız inamı, sevgisi və dəstəyi ilə Prezident İlham Əliyev bütün vədləri kimi, bu vədinə də sadiq qaldı. Mehriban xanım Əliyevanın sosial media hesabında Şərqi Zəngəzurdan paylaşımında ifadə etdiyi kimi, "Kəlbəcər və Laçında! Allaha min şükür!"

Bəhruz Məhərrəmovun dediyinə görə, Prezident növbəti dəfə Laçının özündən vəd verdi: "Xalqımız bundan sonra sülh, əmin-amanlıq şəraitində yaşayacaq, öz doğma torpağında qurub-yaradacaqdır. Laçın şəhərində Laçın Şəhəri Günündə verilən bu vəd, əslində, yalnız Azərbaycana yox, bütövlükdə regiona ünvanlanmışdı. Biz Azərbaycan xalqı olaraq Prezidentimizi gözəl tanıyır, vədinə, sözünə özümüz qədər inanırıq, indi yaxşı olar ki, ermənilərin himayədarları və özləri, regionda digər marağı olanlar qalib liderin sözünə qulaq versinlər".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# *İrəvan yenə təşvişdədir:* "İlham Əliyev hər vədini yerinə yetirir, bizimkilər isə çarəsizdirlər"

Prezident İlham Əliyevin Laçına son səfəri İrəvanda da xüsusi diqqət mərkəzində olub. Dövlət başçısının yerli sakinlərlə görüşü, Laçın Şəhəri Günündə iştirakı, verdiyi mesajlar və düşmənin bağrına dağ basan möhtəşəm atəşfəşanlıq erməni sosial şəbəkə istifadəçilərinin də nəzərindən qaçmayıb. Sosial şəbəkələrlə yanaşı, xəbər portallarının rusdilli versiyasında yayılan videoçarxların təqdim olunaraq müzakirəyə çıxarılması məğlub ölkədə ictimai çaşqınlığın artıq xaosa çevrildiyini göstərir.



Siyasi ekspert Saak Nalbadyan feysbuk sosial şəbəkəsində maraqlı paylaşımı ilə diqqət çəkib: "İlham Əliyevin Laçına səfərini, verdiyi mesajları internetdən izlədim. Bir daha əmin oldum ki, biz biabırcasına uduzmuşuq. Əgər erməni olmasaydım, Əliyevin hər dediyinə inanardım. Əliyev növbəti dəfə Laçından bəyan etdi ki, Qarabağ Azərbaycandır! Bizim rəhbərlik isə bununla bağlı yarımçıq cavabları ilə özünü gülməli vəziyyətə salır. Amma reallıq birdir: qələbə artıq Əliyevin tərəfindədir".

Feysbuk sosial şəbəkəsində Qarik Sukyasyan adlı biri üç yüz minlik bəyənməsi olan səhifədə Azərbaycan Prezidentinin Laçında sakinlərlə görüşünün yer aldığı xəbərə rəy bildirib: "Fikir verin, Laçında İlham Əliyev yeni tikilən evlərin qarşısında sakinlərlə görüşdü. Çox riskli bir vəziyyətdir. İlham Əliyev vədini yerinə yetirir, bizimkilər isə çox çarəsizdilər. Paşinyan ancaq evdə lovğalanır, hakimiyyətini qorumaq üçün daxili etirazları yatırtmaqla məşğuldur. Bugünkü Ermənistan ağlar durumdadır". (Qəzəb işarəsi)

Levon Manuçaryan adlı instaqram istifadəçisi isə məkan olaraq Laçın şəhərini qeyd edərək vahimə dolu status paylaşıb: "Nə vaxta qədər belə davam edəcək? Azərbaycanlıların Qarabağa qayıdışı yuxularımızı qaçırdıb. Müharibədə Azərbaycana uduzduğumuzu görmüşdük, indi isə psixologiyamız pozulub, çarəsizik. 15 ildən artıq yaşadığım Laçına ancaq Azərbaycan kanallarından baxa bilirəm. Belə qorxu nəyə lazımdır?"

Matrus İşxanyan adlı istifadəçi "Telegram" kanallarından birində Azərbaycan Prezidentinin Laçından paylaşılan videolarına yazdığı rəylə diqqət çəkib: "Ermənistan dağılır, Azərbaycan qarşısında hər gün daha çox məğlub duruma düşür, bəs bizim media orqanları niyə susur? İlham Əliyevin Laçına səfəri bir erməni kimi məni çox üzdü. Heyf, hər il yay aylarında İrəvandan Laçına istirahətə gedirdik. Paşinyan isə öz kefindədir".

Diana Arutyunyan adlı feysbuk istifadəçisi isə məkan olaraq Xankəndi şəhərini qeyd edərək vahimədolu status paylaşıb: "Nə vaxta qədər belə davam edəcək? Azərbaycanlıların Qarabağa qayıdışı getdikcə artır. Zabuxdan bir il olar çıxmışıq. Laçına baxdım, tanıya bilmədim. Necə də müasir, gözəl şəhərə çevrilib. Psixologiyamız pozulub. Ortada qalmışıq. Çox keçməz Laçından sonra Stepanakerti (Xankəndi - red.) tərk edərik. Belə qorxu ilə yaşamaq istəmirəm".

Profilinə baxdıqda Xankəndidə yaşadığı qeyd edilən Avram Babayan adlı feysbuk istifadəçisi paylaşdığı statusda bildirib ki, xalqın yalançı Paşinyana artıq inamı tamamilə tükənib: "Xankəndidə yaşayıram. Axşam sosial şəbəkələrdəki canlı yayımlara baxanda ürəyim parçalandı. İlham Əliyev Laçında bayram atəşfəşanlığını da etdi. Paşinyan, buna nə deyəcəksən? İlham Əliyev verdiyi hər sözü tutur, sən isə xalqın inamını itirmisən".

Henrix Balasyan adlı istifadəçinin tviterdəki paylaşımı isə daha çox bəyənmə toplayıb: "Əliyev Qarabağı geri qaytarıb, Şuşada, Laçında tədbirlər keçirməklə Ermənistana gözdağı verdi. Laçında muğam dinləyərək məkanın əsl sahibinin kim olduğunu nümayiş etdirdi. Laçındakı atəşfəşanlığın parıltısı az qala Yerevanı (İrəvan.red) işıqlandırırdı. Hər kəs gördü ki, türklər Laçına qayıdışı necə təmtəraqla qeyd edirlər. Amma bizlər biabırçı məğlubiyyətdən sonra təlaş içərisində yaşayırıq".

Bu statuslara və şərhlərə daha çoxunu əlavə etmək olar. Bütün paylaşılanlara əsasən deyə bilərik ki, ermənilər təşfiş içərisindədirlər.

Göründüyü kimi, Prezident İlham Əliyevin Laçına sonuncu səfərindən, orada keçirilən bayram konsertindən şok yaşayan ermənilər sosial şəbəkələrdə Paşinyandan hesab sorurlar.

Bu arada Xankəndidə separatçılar arasında qarşıdurma gündən-günə gərginləşir. Dünən baş separatçı Araik Arutyunyanın "iqamətgahı" atəşə tutulub. Bildirilir ki, bir qrup şəxs Araikin yanına gələrək onunla sərt söhbət edib. Daha sonra onlar çölə çıxaraq binanı atəşə tutublar. Bu hadisə onu göstərir ki, separatçılar arasında qarşıdurma silahlı münaqişə həddinə çatıb. Böyük ehtimalla yaxın günlərdə separatçılar bir-birlərinə güllə atacaqlar. Sadə ermənilərin isə belə durumda bir çıxış yolu qalır: Azərbaycan vətəndaşlığını qəbul etmək...

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# REGİONLAR

## Füzulinin baş planı şəhərə müasirlik, abadlıq və yaşıllıq vəd edir

**Üçüncü ildir ki, işğaldan azad edilmiş ərazilərimizdə düşmənlərin ayaq izləri silinir. Bərpa, yenidənqurma və tikinti işləri gündən-günə geniş vüsət alır. Regionun hər guşəsinə yeni nəfəs gəldikcə Qarabağın, Şərqi Zəngəzurun intizarına son qoyulur. Ev-eşiyindən köçkün düşmüş soydaşlarımız yurduna dönür.**



Bu, Böyük qayıdışın başlanması deməkdir. Bu, qısa müddətdə azad olunmuş şəhərlərimizin baş planlarının icrası deməkdir. Plan üzərində çalışanlar şəhərlərdə müasir infrastruktur, o cümlədən hotel, hava limanı, vağzal olmasını önə çəkmişlər. Rayon mərkəzlərində banklar, iş yerləri, ticarət mərkəzləri, istirahət zonalarının yaradılmasını da unutmamışlar. Baş planda işlənən həssas nöqtələrdən biri də həmin ərazilərdə müharibənin, tariximizin izlərini özündə əks etdirən binaların, muzeylərin yaradılmasıdır. Azərbaycanın memarlıq ənənələrinin Qarabağ və Şərqi Zəngəzurun yaşayış məntəqələrinin baş planlarında qırmızı xətlə keçməsinin səbəbi də budur.

Ümumiyyətlə, baş planlar hər şəhərin tələblərinə uyğun hazırlanır. Xəbər verildiyi kimi, martın 18-də Nazirlər Kabineti Füzuli şəhərinin 2040-cı ilədək inkişafına dair baş planını təsdiq edib. Planda nəzərdə tutulan işlər başa çatandan sonra Füzuli azad edilmiş ərazilərimizdə ikinci ən böyük şəhər olacaq.

Baş planda 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin isə 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri və digər zonalar yaradılacaq. Baş planda yaşayış ərazilərinin sıxlığının müəyyənləşdirilməsində proqnozlaşdırılan əhali sayı ilə yanaşı, təklif edilən digər şəhər xidmətlərinin yerləşməsi də nəzərə alınıb. Məşğulluğun və sosial xidmətlərin təmini üçün şəhərdə 9 ümumi və orta təhsil müəssisəsi, 13 məktəbəqədər təhsil müəssisəsi, peşə təhsili müəssisəsi, internat tipli musiqi məktəbi, xəstəxana, idman və sağlamlıq, mədəniyyət və inzibati mərkəzlər, idman kompleksinin inşası, 6 məhəllə parkı və şəhər meydanının, ərazisi 150 hektardan çox olan ekoparkın salınması planlaşdırılıb.

Əslində, Füzulidə Böyük qayıdışa start baş planın təsdiqindən əvvəl verilmişdi. Məlum olduğu kimi, 2020-ci il noyabrın 16-da Prezident İlham Əliyev Füzuli və Cəbrayıl rayonlarında Zəfər yolu kimi tanınan Füzuli-Şuşa avtomobil yolunun təməlini qoymuşdur. Səfərdən dərhal sonra isə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi layihəsinə başlanmışdır. Uzunluğu 101,5 kilometr, eni isə 37,7 metr olan həmin yol Füzuli, Xocavənd və Xocalı rayonlarından keçəcək. Dövlət başçısı 2021-ci il yanvarın 15-də Şuşa və Füzuliyə səfər edərkən Füzuli-Şuşa avtomobil yolunun və Füzuli Beynəlxalq Hava Limanının layihələrinə də start vermişdir. Hava limanında ilk sınaq uçuşu 2021-ci il avqustun 22-də keçirilmişdir. Həmin il oktyabrın 27-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə hava limanının açılış mərasimi baş tutmuşdur. Amma bu da hələ hamısı deyil. Rayonun enerji ilə təmin edilməsi üçün "Azərişıq" ASC-nin Füzuli şəhərində Rəqəmsal Yarımstansiya İdarəetmə Mərkəzinin təməli qoyulmuşdur. Rayon ərazisində yol infrastrukturunun yenidən qurulması, həmçinin qonşu rayonlarla gediş-gəlişin təmin olunması da qarşıya qoyulan əsas hədəflərdən idi. Artıq həmin işlərin çox hissəsi başa çatdırılıb. Üstəlik, bu günlər 90 nəfərdən ibarət 23 ailə doğma yurda - Füzuliyə dönüb.

Bəli, 30 il işğal altında qalan Füzulidə artıq həyat qaynamağa başlayıb. Yurda dönən insanlar torpağa can veriblər. Məlumdur ki, bu ərazidə düşmən böyük müdafiə istehkamları qurmuşdu. Ermənilərin illərlə qurduqları həmin istehkamları Azərbaycan əsgəri qısa müddətdə darmadağın etdi. Əsgərlərimizin darmadağın etdikləri həm də düşmənin bu yerlərə yenidən sahib çıxmaq ümidi idi. O ümidi ki onlar indi yalnız yuxuda görə bilərlər.

Mənfur qonşunun gözünü çıxaracaq İşğal muzeyi, Memorial Kompleks və ona bitişik Zəfər parkı, şəhərin ən yüksək nöqtəsində salınacaq Bayraq meydanı Füzulinin simvoluna çevriləcək. Baş plana əsasən, ermənilərin xarabaya çevirdikləri Füzuli başdan-başa yaşıllığa qərq olacaq. Burada 21 hektarlıq böyük meşə parkı salınacaq və həmin ərazidə 5000-dən çox Eldar şamı, həmişəyaşıl sərv, zeytun, Şərq çinarı, ağcaqayın və digər növ ağaclar əkiləcək.

Bu sadalananlara "ağıllı kənd" olan Dövlətyarlını da əlavə etsək, erməninin nə vəziyyətə düşdüyünü göz önünə gətirmək çətin deyil. Beş kəndi birləşdirən "ağıllı kənd" layihəsində 750 evin tikintisi nəzərdə tutulub. Zəngilanın Ağalı kəndində olduğu kimi, Dövlətyarlıda da müasir və innovativ texnologiyalar hesabına kənd sakinlərinin rahatlığı maksimum təmin ediləcək. Və onu da vurğulayaq ki, Dövlətyarlı Qarabağ və Şərqi Zəngəzurun növbəti "ağıllı kənd"i olacaq. Çünki belə yaşayış məntəqələrinin istifadəyə verilməsinə bundan sonra hələ çox şahidlik edəcəyik.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Bu il azad edilmiş rayonlarda 1238 fərdi sahibkarlıq subyekti yaradılıb

**Cari ilin birinci yarısında işğaldan azad edilmiş rayonlarda 69 yeni müəssisə və təşkilat, 1238 yeni fərdi sahibkarlıq subyekti yaradılıb.**

"Trend"in Dövlət Statistika Komitəsinin hesabatı əsasında apardığı hesablamalara görə, cari ilin birinci yarısında işğaldan azad edilmiş rayonlarda 623 yeni iş yeri yaradılıb.

Qeyd edək ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə yeni yaradılan müəssisə və təşkilatların sayı 68, fərdi sahibkarlıq subyektlərinin sayı 11 faiz, yeni iş yerlərinin sayı isə 2,4 dəfə artıb.

Xatırladaq ki, hesabat dövründə ən çox müəssisə (18) və fərdi sahibkarlıq subyekti (472) Ağdamda, ən çox iş yeri isə Laçında (328) və Şuşada(177) yaradılıb.

Aşağıdakı cədvəldə 2023-cü ilin birinci yarısı üzrə azad edilmiş rayonlar üzrə yeni yaradılmış müəssisə və təşkilatların, fərdi sahibkarlıq subyektlərinin və iş yerlərinin siyahısı verilib.

| Azad edilmiş rayonlar | Yeni yaradılmış təşkilatlar, iş yerləri və fərdi sahibkarların sayı | | |
|---|---|---|---|
| | Təşkilatların sayı | İş yerlərinin sayı | Fərdi sahibkarın sayı |
| Ağdam | 18 | 18 | 472 |
| Füzuli | 7 | 13 | 333 |
| Xocavənd | 3 | 32 | 24 |
| Şuşa | 5 | 177 | 20 |
| Cəbrayıl | 8 | 28 | 73 |
| Kəlbəcər | 7 | 19 | 42 |
| Qubadlı | 4 | 2 | 97 |
| Laçın | 11 | 328 | 117 |
| Zəngilan | 6 | 1 | 48 |
| Xocalı | 0 | 5 | 12 |

## "Məşğulluğa dəstək layihəsi" üzrə daha bir qrup işsiz şəxs üçün kiçik bizneslər yaradıldı

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən "Məşğulluğa dəstək layihəsi" çərçivəsində Sabirabad rayonunda layihə iştirakçılarına seçdikləri istehsal və xidmət sahələri üzrə avadanlıqlar verilib.**



Həmin rayon və ətraf rayonlar üzrə daha 20-yə yaxın işsiz şəxsə aktivlər verilməklə onlar üçün kiçik bizneslər yaradılıb.

Layihəyə cəlb olunanlar üçün ilkin mərhələdə biznes təlimlər təşkil olunur. Təlim sonunda keçirilən qiymətləndirmə prosesində biznes-planlarını müdafiə edən şəxslərə avadanlıqlar verilərək kiçik bizneslərini qurmalarına dəstək göstərilir.

## Qax şəhərində orta məktəb üçün yeni bina tikilir

**Qax şəhərindəki Vaqif Əliyev adına 3 nömrəli tam orta məktəb üçün 320 şagird yerlik yeni binanın tikintisi sürətlə davam etdirilir. Heydər Əliyev Fondu tərəfindən inşa edilən məktəb binasının yeni dərs ilinin əvvəlində istifadəyə verilməsi nəzərdə tutulur.**

Məktəbin direktoru Leyla Rzayeva AZƏRTAC-a bildirib ki, uzun illər uyğunlaşdırılmış binada fəaliyyət göstərən məktəb binası son illər istifadə üçün tam yararsız vəziyyətə düşmüşdü. Üç mərtəbədən ibarət yeni məktəb binasının tikintisinə bu ilin martında başlanılıb. Müasir standartlara uyğun inşa edilən yeni məktəb binasında sinif otaqları ilə yanaşı, fənn kabinetləri, laboratoriyalar, kompüter otağı, həmçinin kitabxana, yeməkxana, akt və idman zalları fəaliyyət göstərəcək. Cari dərs ilində məktəbdə 250 şagird təhsil alacaq.

## Sığortaçılar fermerlərə zəmanət verirlər

**Goranboyda əkinlərin və əmlakların dayanıqlı sığortası ilə bağlı regional konfrans keçirilmişdir.**

Ümummilli Lider Heydər Əliyevin şəhərdəki abidəsini ziyarətlə başlayan konfransda Gəncə-Daşkəsən iqtisadi rayonunda fəaliyyət göstərən icra və bələdiyyə nümayəndələri, fermerlər, sığorta şirkətləri və fermerlərlə birbaşa əməkdaşlıq edən qurum təmsilçiləri, Dövlət Aqrar İnkişaf mərkəzlərinin əməkdaşları iştirak etmişlər.

Tədbiri Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev açaraq rayonda kənd təsərrüfatı işlərinin gedişi barədə ətraflı məlumat vermişdir. Qeyd olunmuşdur ki, rayonda aqrar sahənin inkişafı üçün potensial imkanlar mövcuddur. Lakin bəzən baş verən təbiət hadisələri bu imkanları məhdudlaşdırır. Bu baxımdan cari ilin aprel və iyun aylarında ölkə ərazisində, o cümlədən Goranboy rayonunda yağan yağışlar, dolu, sel-subasma kənd təsərrüfatına ciddi zərər vurmuşdur. Nəticədə məhsulunu sığortalamayan fermerlər itkilərlə üzləşmişlər.

Konfransda çıxış edən Aqrar Sığorta Fondu idarə heyətinin sədri Fuad Sadıqov demişdir ki, kənd təsərrüfatı sahəsində çalışan bütün fermerlər bu sistemin xidmətlərindən istifadə edə bilərlər. Onun sözlərinə görə, dövlət dəstəkli aqrar sığorta ölkəmizdə fermerlərə xüsusi qayğıkeşliyin nümunəsidir: "Dövlət fermerləri subsidiyalarla daim dəstəkləyir. Ancaq ciddi təbiət hadisəsi zamanı fermerlər nəinki gözlədikləri gəlirləri, hətta yatırımlarını da itirirlər. Belə hallarda onlara ancaq dövlət tərəfindən yaradılmış aqrar sığorta yardımçı ola bilər".

Sonra PAŞA Sığortanın rəisi Aqil Yaqubov daşınmaz əmlakın icbari sığortalanmasının əhəmiyyətindən danışaraq qeyd etmişdir ki, onun əsas məqsədi əmlaka dəymiş zərərə görə sığorta təzminatının vaxtında ödənilməsi ilə yanaşı, əhalinin sosial müdafiəsini təmin etməkdir. "Nümayəndəlik şəbəkəsinin genişlənməsi PAŞA Sığorta şirkətinin əsas inkişaf prioritetləri sırasındadır və əsas məqsəd tək Bakı şəhərində deyil, həmçinin regionlarda yaşayan əhalinin bütün sığorta xidmətlərindən rahat şəkildə faydalanmasını, baş verən sığorta hadisələri zamanı peşəkar heyətin dəstəyi ilə müştərilərə operativ xidmətin göstərilməsini təmin etməkdir", - deyə bildirmişdir.

Konfransda əkin sahələrinin və əmlakların sığortalanması mövzusunda müzakirələr də aparılmışdır. Yerlərdə fermerlərin aqrar sığorta haqqında maarifləndirilməsi, sığorta ilə bağlı müraciətlərin vaxtında edilməsi istiqamətində birgə fəaliyyətin təşkili əsas müzakirə mövzusu olmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Ağdam-Füzuli avtomobil yolunun çəkilişində işlər səngimir

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın 2021-ci il oktyabrın 17-də Füzuli rayonuna səfəri zamanı təməli qoyulan Ağdam-Füzuli avtomobil yolunun inşası sürətlə davam edir.**



Sözügedən yol Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrindən biri sayılır.

Azərbaycan Avtomobil Yollar Dövlət Agentliyindən verilən məlumata görə, uzunluğu 64,8 km, hərəkət hissəsinin eni 15 metr təşkil edəcək yol 4 hərəkət zolaqlı olmaqla tikilir. Hazırda I texniki dərəcəli olacaq avtomobil yolunda torpaq işlərinin icrası çərçivəsində yararsız qruntun çıxarılması, yatağın genişləndirməsi, 26,5 metr enində yeni yol yatağının, yol əsasının tikintisi, 380 metr uzunluğunda istinad divarının, suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü suötürücü borular, su keçidləri, həmçinin zəruri olan yerlərdə yeraltı və kommunikasiya xətləri üçün nəzərdə tutulan ehtiyat keçidlərinin inşası davam edir.

Yolun km 0-32,4 km-lik hissəsində layihə çərçivəsində 9 ehtiyat keçidi, 17 suötürücü boruların tikinti işləri başa çatdırılıb. Bundan başqa bitki qatının çıxarılması 68,55, qazma işləri 61,52, torpaq yatağının tikintisi 32,60 faiz yerinə yetirilib. Həmçinin 8 düzbucaqlı, 17 ədəd dairəvi suötürücü borunun, bir nəqliyyat və bir piyada keçidinin inşası tamamlanmışdır. Hazırda 3 körpüdə və digər sahələr üzrə tikinti işləri davam edir.

Yolun 32,4-64,8 km hissəsində isə torpaq işləri bitib, hazırda hamarlayıcı qatın və əsasın alt qatının tikintisi aparılır. Layihənin sözügedən hissəsində 4 keçid və 11 kommunikasiya borusu, 25 müxtəlif diametrli suötürücü boru inşa edilib. Bu hissədə inşa olunan körpü dayaqlarının tikintisi sona çatmaq üzrədir.

Tikinti işləri "İnşaat Norma və Qaydaları"nın tələblərinə uyğun həyata keçirilir. Tikintinin tərtib olunmuş qrafikə uyğun olaraq yekunlaşdırılması üçün əraziyə lazımi sayda qüvvə cəlb edilib.

Bərdə-Ağdam avtomobil yolunun davamı olan Ağdam-Füzuli avtomobil yolu Ağdam, Ağcabədi, Füzuli rayonları ərazisindən keçir. Yolun inşası Bərdədən Ağdam və Füzuliyədək, həmçinin əks istiqamətdə rahat gediş-gəlişi təmin edəcək, yol boyu sosial-iqtisadi inkişafa müsbət təsir göstərəcək.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Azərbaycanda multikulturalizm və tolerant mühiti əks etdirən film çəkilir

**Azərbaycandakı multikulturalizm və tolerantlıq mühitini əks etdirən qısametrajlı filmin çəkilişlərinə başlanılıb. AZƏRTAC xəbər verir ki, film Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə hazırlanır.**

Filmin çəkilişləri ilə əlaqədar ölkəmizdə fəaliyyət göstərən qeyri-müsəlman dini icmalarının üzvləri Qubaya səfər ediblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov məlumat verib ki, "Müasir çağırışlar: Dinlərarası birgəyaşayış" mövzusunda çəkilən film Azərbaycanı müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlərboyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanıtmaq məqsədi daşıyır. Film ingilis dilində dublyaj olunaraq, Avropa ölkələrində təqdim ediləcək.



Çəkilişlər Qubadakı Cümə məscidində və dağ yəhudilərinin yığcam yaşadığı Qırmızı qəsəbədəki Giləki sinaqoqunda, Xaçmaz şəhərindəki "Müqəddəs möcüzəvi Nikolay" kilsəsində və başqa məkanlarda aparılacaq. 15-18 dəqiqəlik film sentyabr ayı ərzində təqdim ediləcək.

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün DÖVLƏT PROQRAMI

### 1. Qısa xülasə

XXI əsrin ilk illərindən etibarən Azərbaycan Respublikasında dayanıqlı sosial-iqtisadi inkişafı stimullaşdıran genişmiqyaslı islahatlar reallaşdırılmış, çətin həyat şəraitində olan şəxslərin cəmiyyətə inteqrasiyasını təmin edən sosial xidmət sisteminin yaradılması və müvafiq sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində əhatəli işlər görülmüşdür.

Azərbaycan Respublikasının ratifikasiya etdiyi bir sıra beynəlxalq sənədlərin və milli qanunvericiliyin müvafiq müddəalarında mütərəqqi sosial xidmət sisteminin yaradılması, sosial xidmətlərin daim yenilənən müasir tələblərə uyğunlaşdırılması kimi əhəmiyyətli məsələlərin həlli nəzərdə tutulmuşdur. Bu məqsədlə növbəti mərhələdə sosial xidmət sisteminin təkmilləşdirilməsi və daha da gücləndirilməsi istiqamətində dövlət siyasətini müəyyən edən "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı" (bundan sonra - Dövlət Proqramı) hazırlanmışdır.

Dövlət Proqramı Azərbaycan Respublikasının sosial xidmət sisteminin, o cümlədən qanunvericiliyin və institusional mexanizmlərin təkmilləşdirilməsi və sosial xidmətlərin təminatı üçün zəruri şəraitin yaradılması üzrə dövlət siyasətinin əsaslarını müəyyən edir. Dövlət Proqramında əhalinin bütün həssas qruplarına göstəriləcək sosial xidmətlərin kəmiyyət və keyfiyyətinin artırılması, xidmətlərə əlçatanlığın təmin edilməsi və sosial səmərəlilik prinsiplərinin gerçəkləşdirilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi hədəf kimi nəzərdə tutulmuşdur.

### 2. Qlobal trendlər

Birləşmiş Millətlər Təşkilatının (bundan sonra - BMT) Əhali Fondunun hesablamalarına əsasən, 2050-ci ildə dünya əhalisinin sayının daha 2 milyard nəfər artaraq 9,7 milyard nəfərə çatacağı proqnozlaşdırılır. Son onilliklər ərzində tibbin inkişafı, səhiyyə xidmətlərinin keyfiyyətinin artması nəticəsində dünyada insanların sağlamlıq və uzunömürlülük səviyyəsi yüksəlmiş, ümumilikdə dünya əhalisinin yaş strukturunda ahıl şəxslərin sayı əvvəlki dövrlərə nisbətən xeyli artmışdır. Lakin son dövrlərdə dünyada baş verən bir sıra mənfi proseslər insanların bir qisminin həyat səviyyəsinə, sosial-psixoloji vəziyyətinə mənfi təsir göstərmiş, onların sosial təhlükəli vəziyyətə düşmələrinə səbəb olmuşdur.

Son illərdə Azərbaycan Respublikasında əhalinin etibarlı sosial müdafiəsi istiqamətində mühüm işlər görülmüşdür. Eyni zamanda Azərbaycan Respublikası müxtəlif səbəblərdən çətin həyat şəraitinə düşmüş insanların sosial müdafiəsinin təmin edilməsi məqsədilə aidiyyəti beynəlxalq və regional təşkilatlar, müxtəlif qurumlar tərəfindən qəbul edilmiş bir sıra dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilə və sazişlərə qoşulmuşdur. Bu da insan hüquq və azadlıqlarının, o cümlədən vətəndaşların sosial hüquqlarının qəbul olunmuş beynəlxalq prinsip və normalar əsasında reallaşdırılmasına təminat vermişdir.

Bundan əlavə, XXI əsrin destruktiv texnoloji, sosioloji və digər çağırışları, qlobal rəqabətin bütün müstəvilər üzrə kəskinləşməsi trendləri innovativ üsullara və insan kapitalına söykənən müasir sosial təminat sisteminin tətbiq edilməsi məsələlərini önə çıxarmışdır ki, burada əsas məqsəd başqa sahələrdə olduğu kimi, əhalinin sosial müdafiəsi sahəsində də rəqabət aparmaq imkanlarına malik, müasir çağırışlardan sığortalanmış dayanıqlı sosial sistemin qurulmasıdır.

2015-ci ilin sentyabr ayında keçirilmiş BMT-nin Dayanıqlı İnkişaf Sammitində Azərbaycanın da iştirak etdiyi BMT-nin üzvü olan dövlətlər tərəfindən "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" qəbul edilmiş, Gündəlikdə irəli sürülən Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün bütün imkanları səfərbər etməklə,"heç kəsi kənarda qoymamaq" prinsipinə əsaslanaraq insan həyatının və fəaliyyətinin bütün istiqamətlərində, o cümlədən yoxsulluğun azaldılması və sosial təminat sahəsində mövcud olan problemlərin aradan qaldırılması üçün birgə səylərin göstərilməsi barədə razılıq əldə edilmişdir.

Beləliklə, həm Azərbaycan Respublikasında həyata keçirilən sosial siyasət, həm müvafiq sahədə ratifikasiya edilmiş beynəlxalq sənədlərin müvafiq müddəaları, həm də qlobal çağırışlar əhalinin daha keyfiyyətli sosial xidmətlərlə təmin olunmasını, bu sahədə yüksəkixtisaslı kadr potensialının yaradılmasını, sosial xidmət müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsini və innovativ texnologiyaları tətbiq etməklə, sosial xidmət sisteminin də müasir dövrün tələblərinə uyğun şəkildə təkmilləşdirilməsini mühüm vəzifə kimi qarşıya qoymuşdur.

### 3. Azərbaycan Respublikasında sosial xidmət sisteminin mövcud vəziyyəti

Son illərdə həyata keçirilmiş uğurlu sosial siyasət nəticəsində həssas əhali qruplarından olan (valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar, bu səbəbdən sosial xidmət müəssisələrində yaşamış, həmin müəssisələri tərk etdikdən sonra yaşayış yeri olmayan şəxslər, əlilliyi olan uşaqlar, baxımsızlığa və sosial təhlükəli vəziyyətə məruz qalmış, xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti olmayan şəxslər, insan alveri qurbanları və belə risklə üzləşən şəxslər, məişət zorakılığından zərər çəkmiş şəxslər, müəyyən yaşayış yeri olmayan, sosial yadırğama və sosial məhrumiyyət vəziyyətində olan və s.) şəxslərin sosial xidmətlərlə təminatında mühüm nailiyyətlər əldə edilmiş, "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun qəbul olunmasından ötən dövr ərzində həyata keçirilmiş tədbirlər nəticəsində çətin həyat şəraitində olan vətəndaşlarındaha münasib həyat şəraitinə qayıtması imkanları artmışdır.

Sosial-iqtisadi həyatın bütün sahələrində aparılan islahatlar nəticəsində sosial cəhətdən həssas əhali qruplarının hüquqlarının etibarlı müdafiəsi istiqamətində reallaşdırılan tədbirlərin əhatə dairəsi davamlı olaraq genişləndirilmişdir. Bu kateqoriyadan olan şəxslərlə bağlı həyata keçirilən siyasətin əsas məqsədi onların cəmiyyətin digər üzvləri kimi bərabərhüquqlu, dolğun həyat şəraitinə malik olmalarının və cəmiyyətə inteqrasiya olunmalarının təmin edilməsidir.

Çətin həyat şəraitində yaşayan şəxslərə sosial xidmət göstərilməsi sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarının müəyyən olunması və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi məqsədilə qəbul edilmiş "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun icra mexanizmlərinin müəyyən edilməsi ilə bağlı müvafiq normativ hüquqi aktlar ("Evdə (səyyar) sosial xidmətin göstərilməsi Qaydası", "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası", "Dövlət sosial xidmət müəssisələrində və evlərdə qismən ödənişli və tam ödənişli şərtlərlə sosial xidmətin göstərilməsi Qaydası" və s.) qəbul edilmişdir. Bununla da Azərbaycan Respublikasında çoxspektrli sosial xidmətlər sistemi formalaşmış və bu sistem həmin şəxslərin məruz qaldıqları çətin həyat şəraitindən müdafiəsinə, sosial reabilitasiyalarına və cəmiyyətə inteqrasiya imkanlarına malik olmalarının təmin edilməsinə yönəldilmişdir. Ötən dövrdə sosial xidmət müəssisələrində vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, müəssisələrin strukturlarının müasir tələblərə uyğunlaşdırılması ilə bağlı mühüm tədbirlər həyata keçirilmiş, yeni sosial xidmət müəssisələri (uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideyn himayəsindən məhrum olmuş məzunları üçün "Məzun evi" Sosial Müəssisəsi, həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzi və s.) yaradılmışdır.

Ahıl şəxslərə dövlət qayğısının artırılması istiqamətində tədbirlər davam etdirilmiş, onların sosial müdafiəsinin gücləndirilməsini nəzərdə tutan müvafiq qanunvericilik aktlarının təkmilləşdirilməsi ilə bağlı zəruri işlər görülmüşdür.

Hər bir cəmiyyətdə uşaqların sosial müdafiəsi, sağlam və firavan böyüməsi, fiziki və mənəvi inkişafı üçün həyata keçirilən siyasət həmin cəmiyyətin ümumi inkişafının əsas keyfiyyət göstəricilərindən biri hesab edilir. Sivil və ümumbəşəri dəyərləri daim yüksək tutan Azərbaycan Respublikası da uşaqların münasib şəraitdə böyüyərək tərbiyə olunmaları və onların layiqli vətəndaş kimi formalaşmalarının təmin edilməsi sahəsində fəal siyasəti ilə fərqlənir. Hazırda Azərbaycan Respublikasının ixtisaslaşdırılmış sosial xidmət müəssisələri tərəfindən uşaqların münasib yaşayış şəraiti, sığınacaq və reinteqrasiya xidmətləri ilə təmin edilməsi, təhsilin və peşə hazırlığının, sosial reabilitasiyasının təşkili, onlara hüquqi, psixoloji yardımın göstərilməsi və digər tədbirlər həyata keçirilir. Uşaqlarla bağlı dövlət siyasətinin əsas hədəflərindən biri uşaq müəssisələrində yaşayan uşaqların ailə mühitində böyüməsinin təmin edilməsi, eyni zamanda onların stasionar uşaq müəssisələrinə düşməsinin qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsidir. Uşaq müəssisələrinə düşmək riski olan 3234 uşaq müxtəlif şəhər və rayonlarda təşkil edilən günərzi qayğı mərkəzlərində xidmətlərə cəlb olunmuş, "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (de-institusionalizasiya) və alternativ qayğı ilə bağlı 2006-2015-ci illər üzrə Dövlət Proqramı"nın icrası çərçivəsində, eləcə də sonrakı dövr üzrə fəaliyyət nəticəsində 879 uşaq ailələrinə qaytarılmışdır.

Əlilliyi olan uşaqların digər ölkələrdə ixtisaslaşmış bərpa müalicəsinin təşkili diqqətdə saxlanılmış, ötən dövrdə bu kateqoriyadan olan 386 uşağın xarici ölkələrdə ixtisaslaşmış reabilitasiya kursu keçməsi təşkil edilmişdir.

Hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin məzunu olan gənclərin yaşayış problemlərinin həlli ilə bağlı ciddi tədbirlər görülmüş, bu məqsədlə çoxmənzilli binalar inşa edilərək həmin kateqoriyadan olan 590 gəncin istifadəsinə verilmişdir.

Azərbaycan Respublikasında məişət zorakılığına qarşı mübarizənin kompleks şəkildə həyata keçirilməsi, məişət zorakılığının profilaktikası məqsədilə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunun icrası ilə əlaqədar məişət zorakılığından zərərçəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyasını həyata keçirən komissiya yaradılmış və həmin komissiya tərəfindən 10 qeyri-dövlət yardım mərkəzi akkreditə edilmişdir. Bu mərkəzlərdə zorakılıqdan zərər çəkmiş 1814 şəxsə sosial, psixoloji, hüquqi, ilkin tibbi yardım, səhiyyə müəssisələrinə yönləndirmə xidmətləri göstərilmiş, ehtiyacı olanlar müvəqqəti sığınacaqlarla təmin edilmişlər.

Qloballaşan dünyanın əsas problemlərindən olan insan alveri ilə mübarizədə müasir informasiya texnologiyalarının imkanlarından geniş istifadə və qurbanlara göstərilən dövlət dəstəyinin artırılması nəticəsində son illərdə Azərbaycan Respublikasında insan alverinin potensial qurbanlarının sayı əvvəlki dövrlərə nisbətən əhəmiyyətli dərəcədə azalmış, 1223 insan alveri qurbanı və risk qrupuna daxil olan şəxsin sosial reabilitasiyası istiqamətində müvafiq tədbirlər görülmüşdür. İnsan alveri ilə bağlı ictimai məlumatlılığın artırılması məqsədilə təhsil müəssisələrində mütəmadi olaraq maarifləndirici tədbirlər keçirilmiş, Azərbaycan Respublikasına gələn və ya Azərbaycan Respublikasından gedən şəxslərin bu və ya digər şəkildə insan alverinin qurbanı olmaq, məcburi əməyə cəlb edilmək təhlükəsindən qorunmaq yolları barədə məlumatlandırılması təmin edilmişdir.

Sosial xidmət sisteminin daha bir istiqaməti penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial müdafiəsi və sosial adaptasiyası ilə əlaqədar tədbirlərin təşkilidir. Hazırda cəza çəkməkdən azad edilmiş tibbi və sosial yardıma ehtiyacı olan şəxslərə minimum aylıq əməkhaqqının 4 misli məbləğində birdəfəlik müavinət ödənilir, həmçinin sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər kimi məşğulluqlarının təmin olunması və cəzaçəkmə müddəti başa çatmaq ərəfəsində olan şəxslərin peşə hazırlığının təşkili tədbirləri həyata keçirilir. 2018-ci ildən fəaliyyətə başlayan penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzi tərəfindən bu kateqoriyadan olan şəxslərin sosial adaptasiyası, qanuni mənafelərinin qorunması, onlara hüquqi, sosial-psixoloji, sosial-məsləhət yardımının göstərilməsi, həmçinin həmin kateqoriyadan olan və müəyyən yaşayış yeri olmayan şəxslərin müvəqqəti yaşayış yeri ilə təmin edilməsi üçün kompleks xidmətlər göstərilir.

Sosial xidmət sahəsində dövlət sifarişlərinin qeyri-hökumət və qeyri-kommersiya təşkilatlarına verilməsi nəticəsində 482 layihə icra edilmiş, layihələr çərçivəsində ümumilikdə 35 mindən artıq çətin həyat şəraitində olan şəxsə və onların ailələrinə sosial-psixoloji, sosial-hüquqi, tibbi-sosial, sosial-məişət xidmətləri, sosial-məsləhət yardımı göstərilmiş, sosial reabilitasiya və müalicələrinin təşkili, reinteqrasiya xidmətlərinin göstərilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasında demoqrafik vəziyyət əhalinin sayının ilbəil artması ilə səciyyələnir. 2000-ci ildə əhalinin sayı 8032,8 min nəfər olduğu halda, 2022-ci il 1 yanvar tarixinə olan məlumata əsasən 10156,4 min nəfərə çatmışdır. Əhalinin ümumi artımı müvafiq olaraq təbii səbəblərdən çətin həyat şəraitinə düşən şəxslərin sayına təsir etmişdir. Həmçinin orta ömür uzunluğunun artması əhalinin yaş strukturunda ahıl şəxslərin payının artmasını şərtləndirmişdir. Azərbaycan Respublikasında ahıl şəxslərin sayı 2000-ci ildə 226,7 min nəfərdən 2022-ci il 1 yanvar tarixinə olan məlumata əsasən 452,1 min nəfərə çatmışdır. Beləliklə, son 22 ildə əhalinin ümumi sayı 26,44 faiz artdığı halda, ahıl şəxslərin sayında 99,4 faiz artım qeydə alınmışdır. Eyni zamanda əlilliyi müəyyən edilmiş şəxslərin (o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin) sayı artaraq, bu müddətdə 251min nəfərdən 615 min nəfərə qədər yüksəlmişdir. Azərbaycan Respublikası üzrə nikahdan kənar evlilikdən dünyaya gələn uşaqların və boşanmaların sayının artması uşaqların valideyn himayəsindən məhrum olmasına öz təsirini göstərmişdir.

Qeyd edilənlərə əsasən son illərdə əhaliyə göstərilən sosial xidmətlərin həcminin və sosial xidmətlərdən yararlananların sayının ilbəil artmasına baxmayaraq, bu xidmətlərə olan tələbat daha yüksək templə artmaqdadır.

Təqdim olunan sosial xidmətlərin keyfiyyəti, effektivliyi, əlçatanlığı və digər məsələlər üzrə, ümumilikdə isə sosial xidmət sisteminin inkişafına nail olunması məqsədilə Dövlət Proqramının bir sıra prioritet istiqamətləri müəyyən edilmişdir.

### 4. Dövlət Proqramının həyata keçirilməsinin hədəf göstəriciləri

4.1. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində 2026-cı ilin sonunadək sosial xidmət sisteminin inkişafında aşağıdakılara nail olunacaqdır:

4.1.1. hamı üçün bərabər iştirak imkanını təmin edən sosial xidmətlər sisteminin formalaşması;

4.1.2. çətin həyat şəraitində olan şəxslərə göstərilən sosial xidmətin əhatəsinin genişlənməsi və əhalinin göstərilən xidmətlərdən məmnunluq səviyyəsinin artması;

4.1.3. sosial xidmətlərin ünvanlılığının və keyfiyyətli xidmətlərə əlçatanlığın təmin edilməsi;

4.1.4. sosial xidmət sahəsində ixtisaslı kadr potensialının formalaşması.

### 5. Dövlət Proqramının məqsədləri

5.1. Dövlət Proqramının məqsədləri aşağıdakılardır:

5.1.1. sosial xidmət sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi və sosial xidmətin göstərilməsinə nəzarət mexanizminin müəyyən edilməsi;

5.1.2. sosial xidmət sahəsində həyata keçirilən tədbirlərin effektivliyinin artırılması məqsədilə aidiyyəti dövlət orqanları (qurumları) arasında əlaqələrin genişləndirilməsi;

5.1.3. sosial xidmət müəssisələrinin fəaliyyətinin təşkili və maddi-texniki bazasının təkmilləşdirilməsi;

5.1.4. mütərəqqi beynəlxalq təcrübənin tətbiqi ilə sosial xidmət sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi;

5.1.5. uşaqların alternativ qayğı xidmətləri ilə əhatə olunması imkanlarının genişləndirilməsi;

5.1.6. sosial xidmətlərin təşkilində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın davam etdirilməsi, sosial xidmət sahəsində dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi;

5.1.7. sosial xidmət sistemində insan resurslarının inkişafı və təminatı.

### 6. Dövlət Proqramının prioritet istiqamətləri

6.1. Dövlət Proqramı çərçivəsində Azərbaycan Respublikasında sosial xidmət sisteminin inkişafının təmin edilməsi üçün müvafiq işlər aşağıdakı prioritet istiqamətlər üzrə həyata keçiriləcəkdir:

6.1.1. sosial xidmət sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi və sosial xidmət göstərilməsinə nəzarət mexanizminin müəyyən edilməsi:

**6.1.1.1. Əsaslandırma:** Çətin həyat şəraitində olan şəxslərə göstərilən sosial xidmətlərin səmərəliliyinin artırılması, keyfiyyətinin yaxşılaşdırılması, ünvanlılığının, eləcə də ehtiyacı olan şəxslərin bu xidmətlərə əlçatanlığının təmin edilməsi məqsədlərinə nail olmaq üçün qabaqcıl təcrübədən yararlanmaqla normativ hüquqi aktlarda müvafiq dəyişikliklərin edilməsinə ehtiyac vardır.Sosial xidmət sisteminin səviyyəsini şərtləndirən başlıca amil göstərilən sosial xidmətlərin keyfiyyəti və səmərəliliyi olduğu üçün bütün bunların mütəmadi nəzarətdə saxlanılması zəruridir;

**6.1.1.2. Görüləcək tədbirlər:**

6.1.1.2.1. sosial xidmət sahəsini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi;

6.1.1.2.2. sosial xidmət müəssisələrinin fəaliyyətinə nəzarətin vahid mexanizminin müəyyən edilməsi;

**6.1.1.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.1.3.1. sosial xidmət sahəsini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə müvafiq normativ hüquqi aktların layihələri hazırlanacaq və aidiyyəti dövlət orqanına (qurumuna) təqdim olunacaqdır;

6.1.1.3.2. sosial xidmət müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə və səmərəliliyinə nəzarət mexanizmini müəyyən edən normativ hüquqi aktın layihəsi hazırlanacaq və aidiyyəti dövlət orqanına (qurumuna) təqdim olunacaqdır;

**6.1.1.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.1.4.1. aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsində çətinliklər yarana bilər. Çətin həyat şəraitində olan şəxslərə sosial xidmətin göstərilməsi sahəsində bir sıra qanunvericilik akt layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmasında gecikmələr baş verə bilər. Bununla əlaqədar müvafiq işçi qrupların yaradılması nəzərdə tutulur;

6.1.2. sosial xidmət sahəsində həyata keçirilən tədbirlərin effektivliyinin artırılması məqsədilə aidiyyəti dövlət orqanları (qurumları) arasında əlaqələrin genişləndirilməsi:

**6.1.2.1. Əsaslandırma:** Sosial xidmətlərin koordinasiyalı və kompleks şəkildə təqdim olunması, inzibatçılığın və əlaqələndirmə işlərinin daha da güclənməsi məqsədilə aidiyyəti dövlət orqanlarının (qurumlarının) qarşılıqlı fəaliyyətinin genişləndirilməsinə ehtiyac vardır;

**6.1.2.2. Görüləcək tədbirlər:**

6.1.2.2.1. sosial xidmət sahəsində fəaliyyətinin əlaqələndirilməsi məqsədilə aidiyyəti dövlət orqanlarının (qurumlarının) səlahiyyətli nümayəndələrindən ibarət Koordinasiya Şurasının yaradılması və fəaliyyətinin təşkili;

6.1.2.2.2. penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası məqsədilə birgə tədbirlərin həyata keçirilməsi və bu sahədə əməkdaşlığın genişləndirilməsi;

**6.1.2.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.2.3.1. çətin həyat şəraitində olan şəxslərə sosial xidmətin təşkili ilə bağlı həyata keçirilən fəaliyyətin sistemliliyi, operativliyi və səmərəliliyi artacaqdır;

6.1.2.3.2. penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası prosesinin həyata keçirilməsində sistemlilik, operativlik və səmərəlilik artacaqdır;

**6.1.2.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.2.4.1. Koordinasiya Şurası yaradılarkən və penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin adaptasiyası məqsədilə birgə tədbirlər həyata keçirilərkən aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsində çətinliklər yarana bilər. Bununla əlaqədar müvafiq işçi qrupların yaradılması nəzərdə tutulur;

6.1.3. sosial xidmət müəssisələrinin fəaliyyətinin təşkili və maddi-texniki bazasının təkmilləşdirilməsi:

**6.1.3.1. Əsaslandırma:** Yeni yaradılacaq dövlət sosial xidmət müəssisələrində fəaliyyətin təşkilinə, həmçinin mövcud müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə sosial xidmət müəssisələrinin mövcud infrastruktur təminatının yaxşılaşdırılmasına, habelə müəssisələrin maddi-texniki təminatının və reabilitasiya prosesinin müasir beynəlxalq təcrübəyə uyğun qurulması istiqamətində tədbirlərin görülməsinə ehtiyac vardır. Həmçinin uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideyn himayəsindən məhrum olmuş, həmin müəssisələri tərk etmiş və yaşayış yeri olmayan məzunlarının sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı müvafiq tədbirlərin görülməsi zəruridir;

**6.1.3.2. Görüləcək tədbirlər:**

6.1.3.2.1. dövlət sosial xidmət müəssisələrinin maddi-texniki təminatının möhkəmləndirilməsi və həmin müəssisələrdə reabilitasiya şəraitinin müasir beynəlxalq təcrübəyə uyğun təşkili məqsədilə tədbirlər görülməsi;

6.1.3.2.2. uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş yaşayış yeri olmayan məzunlarının yaşayış sahəsi ilə təmin edilməsi məqsədilə tədbirlərin həyata keçirilməsi;

**6.1.3.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.3.3.1. dövlət sosial xidmət müəssisələrinin (o cümlədən yeni yaradılan müəssisələrin) infrastrukturunun müasir beynəlxalq təcrübəyə uyğunlaşdırılması təmin ediləcəkdir;

6.1.3.3.2. uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 400 məzunu mənzillə təmin ediləcəkdir;

**6.1.3.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.3.4.1. sosial xidmət müəssisələrinin maddi-texniki təminatının möhkəmləndirilməsi və reabilitasiya şəraitinin müasir beynəlxalq təcrübəyə uyğun təşkili, habelə uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideyn himayəsindən məhrum olmuş və müəyyən yaşayış yeri olmayan məzunlarının yaşayış sahəsi ilə təmin edilməsi ilə əlaqədar tədbirlər görülməsi üçün kifayət qədər maliyyə vəsaitinə və maddi-texniki təchizata ehtiyac vardır ki, həmin ehtiyacların qarşılanması zamanı müəyyən çətinliklər yarana bilər. Bu məqsədlə Dövlət Proqramının 7-ci hissəsində əks olunmuş mənbələr hesabına maliyyələşdirilmənin aparılması üçün aidiyyəti tədbirlər görülə bilər;

6.1.4. mütərəqqi beynəlxalq təcrübənin tətbiqi ilə sosial xidmət sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi:

**6.1.4.1. Əsaslandırma:** Hazırda Azərbaycan Respublikasında mövcud olan sosial xidmət sistemi şəxslərin (ailələrin) çətin həyat şəraitinə düşməsinin səbəblərinin əvvəldən müəyyən edilərək aradan qaldırılmasına deyil, artıq baş vermiş halların korreksiyasına yönəldilmişdir. Beynəlxalq təcrübədən yararlanaraq insanların çətin həyat şəraitinin yaranma riskinin erkən mərhələlərdə müəyyən edilərək sosial müdaxilə və müvafiq sosial dəstək tədbirlərinin həyata keçirilməsi ilə qarşısının alınması mexanizmlərinin müəyyən edilməsinə və tətbiqinə ehtiyac vardır;

**6.1.4.2. Görüləcək tədbirlər:**

6.1.4.2.1. çətin həyat şəraitinə düşmə riski olan şəxslərin (ailələrin) problemlərinin erkən aşkar edilərək aradan qaldırılması məqsədilə beynəlxalq təcrübənin, innovativ texnoloji həllərin öyrənilməsi və tətbiqi ilə əlaqədar tədbirlər görülməsi;

6.1.4.2.2. əlilliyi olan və ahıl şəxslər üçün mobil xidmətlərin göstərilməsi üzrə beynəlxalq təcrübənin öyrənilməsi və Azərbaycan Respublikasında tətbiqi ilə bağlı müvafiq tədbirlərin görülməsi;

6.1.4.2.3. əhalinin sosial xidmətlərlə təmin edilməsində ünvanlılığın artırılması məqsədilə mövcud sosial xidmətlər haqqında əhali arasında maarifləndirmə tədbirlərinin həyata keçirilməsi;

6.1.4.2.4. çətin həyat şəraitində olan və ya çətin həyat şəraitinə düşmə riski olan şəxslərlə (ailələrlə) sosial işin aparılması zamanı tətbiq olunan "Sosial işin idarə edilməsi" ("Keys menecment") sistemi ilə bağlı sosial işçilərin hazırlığının təşkili;

6.1.4.2.5. "Sosial işin idarə edilməsi" sisteminin elektron versiyasının yaradılması və çətin həyat şəraitində olan və ya çətin həyat şəraitinə düşmə riski olan şəxslərlə (ailələrlə) sosial işin bu sistem vasitəsilə aparılmasının təmin edilməsi;

*Ardı 9-cu səh.*

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün DÖVLƏT PROQRAMI

*Əvvəli 8-ci səh.*

6.1.4.2.6. ailədaxili mübahisələrin həlli ilə bağlı mediasiya xidmətlərinin tətbiqinin genişləndirilməsi üçün müvafiq tədbirlərin görülməsi;

6.1.4.2.7. ahıl şəxslərin cəmiyyətə inteqrasiyası məqsədilə müvafiq tədbirlərin görülməsi;

6.1.4.2.8. Beynəlxalq Əmək Təşkilatının "Sosial təminatın minimum normaları haqqında" 102 saylı Konvensiyasının ratifikasiya edilməsi imkanlarının araşdırılması;

**6.1.4.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.4.3.1. risk qrupunda olan şəxslərin (ailələrin) müəyyən edilərək çətin həyat şəraitinə düşməsinin qarşısının alınması ilə bağlı beynəlxalq təcrübənin və innovativ texnoloji həllərin tətbiqi təmin ediləcəkdir;

6.1.4.3.2. Azərbaycan Respublikasının 4 şəhər və rayonunda mobil xidmət mərkəzləri vasitəsilə azı 200 nəfər əlilliyi müəyyən edilmiş və 150 nəfər ahıl şəxsə mobil xidmətlərin göstərilməsi təmin ediləcəkdir;

6.1.4.3.3. əhalinin mövcud sosial xidmətlər haqqında məlumatlılığı artacaqdır;

6.1.4.3.4. 200 sosial işçi üçün "Sosial işin idarə edilməsi" sisteminin aparılması ilə bağlı təlim keçiriləcəkdir;

6.1.4.3.5. bütün kateqoriyalardan olan çətin həyat şəraitində olan və ya çətin həyat şəraitinə düşmə riski olan şəxslərlə (ailələrlə) sosial işin "Sosial işin idarə edilməsi" altsistemi vasitəsilə aparılması təmin ediləcəkdir;

6.1.4.3.6. mediasiya hesabına həll edilən ailədaxili mübahisələrin xüsusi çəkisinin illər üzrə müsbət dinamikasına nail olunacaqdır;

6.1.4.3.7. Azərbaycan Respublikasının 6 şəhər və rayonunda ahıl şəxslərin ictimai faydalı fəaliyyətə cəlb edilməsi, onların bilik və bacarıqlarından məqsədyönlü istifadə edilməsi və asudə vaxtlarının səmərəli təşkili ilə bağlı layihələr həyata keçiriləcəkdir;

6.1.4.3.8. Beynəlxalq Əmək Təşkilatının "Sosial təminatın minimum normaları haqqında" 102 saylı Konvensiyasının və ya onun ayrı-ayrı fəsillərinin ratifikasiya edilməsinin mümkünlüyünə dair yekun hesabat hazırlanaraq aidiyyəti üzrə təqdim ediləcəkdir;

**6.1.4.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.4.4.1. əlilliyi olan və ahıl şəxslər üçün mobil xidmət mərkəzlərinin yaradılması, mövcud sosial xidmətlər haqqında əhali arasında ictimai məlumatlandırma tədbirlərinin həyata keçirilməsi, sosial işçilər üçün mütəmadi təlimlərin təşkili məqsədilə maliyyə vəsaitinə və digər texniki təchizata ehtiyac vardır ki, həmin ehtiyacların qarşılanması zamanı müəyyən çətinliklər yarana bilər. Bu məqsədlə Dövlət Proqramının 7-ci hissəsində əks olunmuş mənbələr hesabına maliyyələşdirilmənin aparılması üçün aidiyyəti tədbirlər görülə bilər;

6.1.4.4.2. çətin həyat şəraitinə düşmə riski olan şəxslərin (ailələrin) problemlərinin erkən aşkar edilərək aradan qaldırılması və "Sosial işin idarə edilməsi" sisteminin tətbiqinin Azərbaycan Respublikasının normativ hüquqi aktları və digər aidiyyəti tələblər nəzərə alınmaqla tətbiqində çətinliklər yarana bilər. Bu zaman aidiyyəti üzrə təhlillər aparılması və həmin təhlillər əsasında razılaşdırılmış normaların müəyyən edilməsi məqsədəuyğun hesab olunur;

6.1.4.4.3. bir sıra layihələrin razılaşdırılmasında gecikmələr baş verə bilər. Bununla əlaqədar müvafiq işçi qrupların yaradılması nəzərdə tutulur;

6.1.5. uşaqların alternativ qayğı xidmətləri ilə əhatə olunması imkanlarının genişləndirilməsi:

**6.1.5.1. Əsaslandırma:** uşaqların stasionar sosial xidmət müəssisələrinə düşərək ailə qayğısından məhrum olmaları gələcəkdə onların cəmiyyətə adaptasiya və ya reinteqrasiya olunmalarında ciddi çətinliklər yaratdığından bunun qarşısının alınması məqsədilə bir sıra tədbirlər görülməsi, o cümlədən Azərbaycan Respublikasında himayədar ailə institutunun inkişaf etdirilməsi zəruridir;

**6.1.5.2. Görüləcək tədbirlər:**

6.1.5.2.1. uşaqların stasionar sosial xidmət müəssisələrinə düşməsinin qarşısının alınması məqsədilə stasionar tipli qayğının tədricən alternativ xidmətlərə transformasiya olunması;

6.1.5.2.2. himayədar ailə institutunun inkişafına hədəflənən tədbirlərin həyata keçirilməsi.

**6.1.5.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.5.3.1. 220 uşaq stasionar müəssisələrdən ailələrinə qaytarılacaq və 250 uşağın stasionar müəssisələrə düşməsinin qarşısı alınacaqdır;

6.1.5.3.2. azı 120 uşağın himayədar ailəyə verilməsi təmin ediləcəkdir;

**6.1.5.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.5.4.1. valideyn himayəsindən məhrum olmuş uşaqların himayədar ailəyə qəbulunun təşviqi məqsədilə təbliğat xarakterli və stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi üçün maliyyə vəsaitinə və maddi-texniki təchizata ehtiyac vardır ki, həmin ehtiyacların qarşılanması zamanı müəyyən çətinliklər yarana bilər. Bu məqsədlə Dövlət Proqramının 7-ci hissəsində əks olunmuş mənbələr hesabına maliyyələşdirilmənin aparılması üçün aidiyyəti tədbirlər görülə bilər;

6.1.6. sosial xidmətlərin təşkilində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın davam etdirilməsi, sosial xidmət sahəsində dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi:

**6.1.6.1. Əsaslandırma:** Sosial xidmətlərin təminatında sosial sifariş mexanizminin tətbiqinin vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın genişləndirilməsində, eyni zamanda əhalinin sosial xidmətlərə əlçatanlığı və xidmətlərin səmərəliliyinin artırılmasında əhəmiyyəti nəzərə alınaraq, dövlət sifarişləri əsasında həyata keçirilən layihələr çərçivəsində göstərilən xidmətlərin genişləndirilməsi və keyfiyyətinin artırılması ilə bağlı müvafiq tədbirlərin görülməsi zəruridir. Bundan əlavə, özəl sektorun sosial xidmət təminatı ilə əlaqədar layihələrin təşkilinə cəlb edilməsi müvafiq sahədə bazar mexanizmlərini gücləndirəcək, bu da öz növbəsində Azərbaycan Respublikasında sosial xidmət sisteminin inkişafına və xidmətlərin keyfiyyətinin artmasına mühüm töhfə verəcəkdir;

**6.1.6.2. Görüləcək tədbirlər:**

6.1.6.2.1. Azərbaycan Respublikasının regionları üzrə sosial xidmətlərə olan ehtiyacın müəyyən edilməsi və dövlət sifarişi ilə sosial xidmət sahəsində həyata keçirilən layihələrin şəbəkəsinin genişləndirilməsi məqsədilə müvafiq tədbirlər görülməsi;

6.1.6.2.2. sosial xidmət sahəsində dövlət sifarişlərinin verilməsi ilə həyata keçirilən layihələrin davamlılığının təmin edilməsi, həmçinin layihələr çərçivəsində göstərilən xidmətlərin keyfiyyətinin artırılması ilə bağlı tədbirlər görülməsi;

6.1.6.2.3. sosial xidmət sahəsində korporativ sosial məsuliyyətin inkişafının təmin edilməsi və sosial xidmət göstərilməsi ilə bağlı layihələrin təşkilinə özəl sektorun cəlb edilməsi;

**6.1.6.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.6.3.1. dövlət sifarişi ilə sosial xidmət sahəsində həyata keçirilən layihələrin sayının hər il 10 faiz artmasına nail olunacaqdır;

6.1.6.3.2. sosial xidmət sahəsində həyata keçirilən layihələrin davamlılığının təmin edilməsi, habelə layihələr çərçivəsində göstərilən xidmətlərin minimum səviyyəsinə dair tələbləri və bu tələblərə riayət olunmasına nəzarət mexanizmini müəyyən edən normativ hüquqi aktların layihələri təsdiq edilməsi üçün aidiyyəti dövlət orqanına (qurumuna) təqdim olunacaqdır;

6.1.6.3.3. çətin həyat şəraitində olan şəxslərin sosial xidmətlərlə təmin edilməsi ilə əlaqədar fəaliyyətin həyata keçirilməsində iştirak edən özəl sektor subyektlərinin sayının artması üzrə müsbət dinamikaya nail olunacaqdır;

**6.1.6.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.6.4.1. çətin həyat şəraitində olan şəxslərin (ailələrin) xidmətlərə əlçatanlıq səviyyəsinin, eləcə də sosial xidmətlərə ehtiyacı olan şəxslərin regionlar üzrə paylanmasının müəyyən edilməsi, sosial xidmət müəssisələrinin və sosial xidmət sahəsində dövlət sifarişlərinin verilməsi ilə həyata keçirilən layihələrin şəbəkəsinin Azərbaycan Respublikasında genişləndirilməsi tədbirlərinin reallaşdırılması üçün maliyyə vəsaitinə və maddi-texniki təchizata ehtiyac vardır ki, həmin ehtiyacların qarşılanması zamanı müəyyən çətinliklər yarana bilər. Bu məqsədlə Dövlət Proqramının 7-ci hissəsində əks olunmuş mənbələr hesabına maliyyələşdirilmənin aparılması üçün aidiyyəti tədbirlər görülə bilər;

6.1.6.4.2. vətəndaş cəmiyyəti institutlarının və özəl sektorun sosial xidmət təminatı ilə əlaqədar layihələrin təşkilinə cəlb edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi zamanı koordinasiyalı fəaliyyətin qurulması zərurətindən müəyyən ləngimələr baş verə bilər. Bu məqsədlə işçi qruplar yaratmaqla müvafiq istiqamətdə fəaliyyətin daha çevik həyata keçirilməsi təmin edilə bilər;

6.1.7. sosial xidmət sistemində insan resurslarının inkişafı və təminatı:

**6.1.7.1. Əsaslandırma:** Dövlət Proqramının reallaşdırılması ilə sosial xidmət sahəsində intellektual potensiala və mütəxəssislərin təhsil səviyyəsinə olan tələb dəyişdiyi üçün profil üzrə ali təhsilli sosial işçilərə ehtiyac yaranacaqdır. Bu məqsədlə müvafiq sahədə fəaliyyət göstərən ixtisaslı kadrların hazırlığı üzrə təhsil proqramlarının təkmilləşdirilməsinə, kadr hazırlığı üzrə müasir innovativ texnologiyalardan geniş istifadənin təmin edilməsinə zərurət vardır;

**6.1.7.2. Görüləcək tədbirlər:**

6.1.7.2.1. sosial xidmət sahəsində rəqabətqabiliyyətli kadr potensialının inkişafı üçün yeni peşə və kvalifikasiya standartlarının hazırlanması;

6.1.7.2.2. sosial xidmət sahəsində yüksəkixtisaslı və peşəkar kadr hazırlığının həyata keçirilməsi məqsədilə ali təhsil müəssisələrində mövcud təhsil proqramlarının təkmilləşdirilməsi;

**6.1.7.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.7.3.1. "Sosial işçi", "Sosial xidmətçi", "Sosial pedaqoq" və "Sosial iş üzrə mütəxəssis-psixoloq" peşələri üçün peşə və kvalifikasiya standartları təsdiq ediləcəkdir;

6.1.7.3.2. çətin həyat şəraitində olan şəxslərə sosial xidmətin göstərilməsi və sosial işin təşkili məqsədilə yeni təhsil proqramları qəbul olunacaqdır;

**6.1.7.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.7.4.1. aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsində çətinliklər yarana bilər. Çətin həyat şəraitində olan şəxslərə sosial xidmətin göstərilməsi sahəsində bir sıra normativ hüquqi akt layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmasında gecikmələr baş verə bilər. Bununla əlaqədar müvafiq işçi qrupların yaradılması nəzərdə tutulur;

6.1.7.4.2. sosial xidmət sahəsində fəaliyyət göstərən əməkdaşların müvafiq sahədə tətbiq olunan yeni metodika və texnologiyalar barədə məlumatlandırılması məqsədilə müvafiq təlimlərin və kursların təşkili üçün maliyyə vəsaitinə və maddi-texniki təchizata ehtiyac vardır ki, həmin ehtiyacların qarşılanması zamanı müəyyən çətinliklər yarana bilər. Bu məqsədlə Dövlət Proqramının 7-ci hissəsində əks olunmuş mənbələr hesabına maliyyələşdirilmənin aparılması üçün aidiyyəti tədbirlər görülə bilər.

## 7. Dövlət Proqramının maliyyələşdirilməsi

Dövlət Proqramında qeyd olunan tədbirlərin icrasının təmin edilməsi üçün tələb olunan xərclər müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı dövlət orqanları (qurumları) üçün nəzərdə tutulmuş vəsait, büdcədənkənar vəsait, kredit və qrantlar, hüquqi və fiziki şəxslərin ianələri, eləcə də qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

## 8. "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı Tədbirlər Planı

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti (illər üzrə) | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **8.1. Sosial xidmət sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi və sosial xidmət göstərilməsinə nəzarət mexanizminin müəyyən edilməsi** | | | | | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 8.1.1. | Sosial xidmət sahəsini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi | Nazirlər Kabineti | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Elm vəTəhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə Nazirliyi, *İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi*, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi,*Həmkarlar İttifaqları Konfederasiyası,* Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, yerli icra hakimiyyəti orqanları | 2023–2025 | Müvafiq normativ hüquqi aktların layihələrinin hazırlanması | Müvafiq normativ hüquqi aktların layihələrinin müvafiq dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Müvafiq normativ hüquqi aktların təsdiq edilməsi üçün aidiyyəti üzrə təqdim olunması |
| 8.1.2. | Sosial xidmət müəssisələrinin fəaliyyətinə nəzarətin vahid mexanizminin müəyyən edilməsi | Nazirlər Kabineti | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi | 2024–2025 | Sosial xidmət müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə və səmərəliliyinə nəzarət mexanizmini müəyyən edən normativ hüquqi aktın layihəsinin hazırlanması | Sosial xidmət müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə və səmərəliliyinə nəzarət mexanizmini müəyyən edən normativ hüquqi aktın layihəsinin müvafiq dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Sosial xidmət müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə və səmərəliliyinə nəzarət mexanizmini müəyyən edən normativ hüquqi aktın təsdiq edilməsi üçün aidiyyəti üzrə təqdim olunması |
| **8.2. Sosial xidmət sahəsində həyata keçirilən tədbirlərin effektivliyinin artırılması məqsədilə aidiyyəti dövlət orqanları (qurumları) arasında əlaqələrin genişləndirilməsi** | | | | | | | |
| 8.2.1. | Sosial xidmət sahəsində fəaliyyətinin əlaqələndirilməsi məqsədilə aidiyyəti dövlət orqanlarının (qurumlarının) səlahiyyətli nümayəndələrindən ibarət Koordinasiya Şurasının yaradılması və fəaliyyətinin təşkili | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, *İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi,* Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi,yerli icra hakimiyyəti orqanları | 2024–2025 | Sosial xidmət sahəsində fəaliyyətin əlaqələndirilməsi məqsədilə Koordinasiya Şurasının yaradılması | Koordinasiya Şurasının əsasnaməsinin təsdiq olunması | Çətin həyat şəraitində olan şəxslərə sosial xidmətin təşkili ilə bağlı fəaliyyətin həyata keçirilməsində sistemliliyin, operativliyin və səmərəliliyin artırılması |
| 8.2.2. | Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası məqsədilə birgə tədbirlərin həyata keçirilməsi və bu sahədə əməkdaşlığın genişləndirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Elm və Təhsil Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | 2025–2026 | Aidiyyəti dövlət orqanlarından (qurumlarından) ibarət komissiyanın yaradılması | Komissiyanın əsasnaməsinin təsdiq olunması | Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası prosesinin həyata keçirilməsində sistemliliyin, operativliyin və səmərəliliyin artırılması |
| **8.3. Sosial xidmət müəssisələrinin fəaliyyətinin təşkili və maddi-texniki bazasının təkmilləşdirilməsi** | | | | | | | |
| 8.3.1. | Dövlət sosial xidmət müəssisələrinin maddi-texniki təminatının möhkəmləndirilməsi və həmin müəssisələrdə reabilitasiya şəraitinin müasir beynəlxalq təcrübəyə uyğun təşkili məqsədilə tədbirlər görülməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Səhiyyə Nazirliyi, Elm və Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2024–2026 | Müvafiq sahədə beynəlxalq təcrübənin öyrənilməsi ilə dövlət sosial xidmət müəssisələrində maddi-texniki təchizatın və reabilitasiya şəraitinin yaxşılaşdırılması məqsədilə təkliflərin hazırlanması | Hər il 2 dövlət sosial xidmət müəssisəsinin təmiri və müasir avadanlıqla təchiz edilməsi | Dövlət sosial xidmət müəssisələrinin (o cümlədən yeni yaradılan müəssisələrin) infrastrukturunun müasir beynəlxalq təcrübəyə uyğunlaşdırılmasının təmin edilməsi |
| 8.3.2. | Uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş yaşayış yeri olmayan məzunlarının yaşayış sahəsi ilə təmin edilməsi məqsədilə tədbirlərin həyata keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Elm və Təhsil Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2023–2026 | Uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunlarının siyahısının müəyyən edilməsi | Müəyyən edilmiş siyahılar əsasında həmin kateqoriyadan olan şəxslərin növbəlilik qaydasında mənzillə təmin edilməsi üçün zəruri tədbirlər görülməsi | Uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 400 məzununun mənzillə təmin edilməsi |
| **8.4. Mütərəqqi beynəlxalq təcrübənin tətbiqi ilə sosial xidmət sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi** | | | | | | | |
| 8.4.1. | Çətin həyat şəraitinə düşmə riski olan şəxslərin (ailələrin) problemlərinin erkən aşkar edilərək aradan qaldırılması məqsədilə beynəlxalq təcrübənin, innovativ texnoloji həllərin öyrənilməsi və tətbiqi ilə əlaqədar tədbirlərin görülməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Elm və Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları | 2024–2026 | Müvafiq sahədə beynəlxalq təcrübənin və innovativ texnoloji həllərin öyrənilməsi | 200 sosial işçi üçün yeni təcrübənin və innovativ texnoloji həllərin tətbiqi ilə bağlı təlim keçirilməsi | Risk qrupunda olan şəxslərin (ailələrin) müəyyən edilərək çətin həyat şəraitinə düşməsinin qarşısının alınması ilə bağlı beynəlxalq təcrübənin və innovativ texnoloji həllərin tətbiqi |
| 8.4.2. | Əlilliyi olan və ahıl şəxslər üçün mobil xidmətlərin göstərilməsi üzrə beynəlxalq təcrübənin öyrənilməsi və Azərbaycan Respublikasında tətbiqi ilə bağlı müvafiq tədbirlərin görülməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Səhiyyə Nazirliyi, *İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi,* Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, yerli icra hakimiyyəti orqanları | 2024–2026 | Hərəkət qabiliyyəti aşağı olan əlilliyi müəyyən edilmiş və ahıl şəxslərə sosial xidmətlərin operativ şəkildə göstərilməsini təmin edən mobil xidmət mərkəzlərinin fəaliyyəti ilə bağlı qabaqcıl təcrübənin öyrənilməsi | Müvafiq təcrübənin Azərbaycan Respublikasının ərazisində tətbiqi imkanlarının araşdırılması və regionlarda mobil xidmət mərkəzlərinin yaradılması ilə bağlı tədbirlərin həyata keçirilməsi | Azərbaycan Respublikasının 4 şəhər və rayonunda mobil xidmət mərkəzləri vasitəsilə azı 200 nəfər əlilliyi müəyyən edilmiş və 150 ahıl şəxsə mobil xidmətlərin göstərilməsi imkanının yaradılması |
| 8.4.3. | Əhalinin sosial xidmətlərlə təmin edilməsində ünvanlılığın artırılması məqsədilə mövcud sosial xidmətlər haqqında əhali arasında maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, *İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi,* Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, *Həmkarlar İttifaqları Konfederasiyası*, yerli icra hakimiyyəti orqanları,Medianın İnkişafı Agentliyi, Audiovizual Şura | 2024–2025 | Mövcud sosial xidmətlərə, bu xidmətlərlə təmin olunmaq üçün müraciət qaydalarına və s. dair müxtəlif verilişlərin və sosial çarxların hazırlanaraq mediadageniş işıqlandırılması | Azərbaycan Respublikasının bütün regionlarında əhaliyə buklet və yaddaş kitabçalarının paylanılması | Əhalinin mövcud sosial xidmətlər haqqında məlumatlılığının artırılması |

*Ardı 10-cu səh.*

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün DÖVLƏT PROQRAMI

*Əvvəli 9-cu səh.*

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.4.4. | Çətin həyat şəraitində olan və ya çətin həyat şəraitinə düşmə riski olan şəxslərlə (ailələrlə) sosial işin aparılması zamanı tətbiq olunan “Sosial işin idarə edilməsi” (“Keys menecment”) sistemi ilə bağlı sosial işçilərin hazırlığının təşkili | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2023–2025 | “Sosial işin idarə edilməsi” sistemi ilə bağlı sosial işçilər üçün təlimatın hazırlanması | Bakı şəhərində 100 sosial işçinin bununla bağlı təlimlərə cəlb edilməsi | Azərbaycan Respublikasında 200 sosial işçi üçün “Sosial işin idarə edilməsi” sisteminin aparılması ilə bağlı təlim keçirilməsi |
| 8.4.5. | “Sosial işin idarə edilməsi” sisteminin elektron versiyasının yaradılması və çətin həyat şəraitində olan və ya çətin həyat şəraitinə düşmə riski olan şəxslərlə (ailələrlə) sosial işin bu sistem vasitəsilə aparılmasının təmin edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları | 2024–2025 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş elektron informasiya sistemində “Sosial işin idarə edilməsi” altsisteminin yaradılması | İlkin olaraq, əlilliyi olan və ahıl şəxslərlə sosial işin “Sosial işin idarə edilməsi” altsistemi vasitəsilə aparılmaqla həmin altsistemin test edilməsi | Bütün kateqoriyalardan olan çətin həyat şəraitində olan və ya çətin həyat şəraitinə düşmə riski olan şəxslərlə (ailələrlə) sosial işin “Sosial işin idarə edilməsi” altsistemi vasitəsilə aparılması |
| 8.4.6. | Ailədaxili mübahisələrin həlli ilə bağlı mediasiya xidmətlərinin tətbiqinin genişləndirilməsi üçün müvafiq tədbirlər görülməsi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Mediasiya Şurası, yerli icra hakimiyyəti orqanları | 2024–2026 | Ailədaxili mübahisələrdə mediasiya xidmətinin tətbiqi ilə bağlı qabaqcıl beynəlxalq təcrübə əsasında təkliflərin hazırlanması | Ailə münasibətlərindən irəli gələn mübahisələr üzrə mediasiya fəaliyyətinin genişləndirilməsinə dair təkliflərin həyata keçirilməsi | Mediasiya hesabına həll edilən ailədaxili mübahisələrin xüsusi çəkisinin illər üzrə müsbət dinamikasına nail olunması |
| 8.4.7. | Ahıl şəxslərin cəmiyyətə inteqrasiyası məqsədilə müvafiq tədbirlərin görülməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Yerli icra hakimiyyəti orqanları | 2024–2026 | Ahıl şəxslərin cəmiyyətin sosial-iqtisadi həyatında fəal iştirakının təmin edilməsi, potensiallarından səmərəli istifadə ilə bağlı təkliflərin hazırlanması, habelə Azərbaycan Respublikasının şəhər və rayonlarında tətbiq edilməsinin zəruriliyi imkanlarının araşdırılması | Bakı, Gəncə və Sumqayıt şəhərlərində ahıl şəxslərin ictimai faydalı fəaliyyətə cəlb edilməsi, onların bilik və bacarıqlarından məqsədyönlü istifadə olunması, asudə vaxtlarının səmərəli təşkili ilə bağlı layihələrin həyata keçirilməsi | Azərbaycan Respublikasının 6 şəhər və rayonunda ahıl şəxslərin cəmiyyətə inteqrasiyasını hədəfləyən layihələrin həyata keçirilməsi |
| 8.4.8. | Beynəlxalq Əmək Təşkilatının “Sosial təminatın minimum normaları haqqında” 102 saylı Konvensiyasının ratifikasiya edilməsi imkanlarının araşdırılması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Xarici İşlər Nazirliyi, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Həmkarlar İttifaqları Konfederasiyası | 2024–2026 | Konvensiyanın ratifikasiya edilməsi imkanlarının araşdırılması məqsədilə işçi qrupun yaradılması | İşçi qrup tərəfindən Konvensiyanın və ya onun ayrı-ayrı fəsillərinin qəbulunun mümkünlüyünə dair təkliflər verilməsi | Yekun hesabatın hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi |
| **8.5. Uşaqların alternativ qayğı xidmətləri ilə əhatə olunması imkanlarının genişləndirilməsi** | | | | | | | |
| 8.5.1. | Uşaqların stasionar sosial xidmət müəssisələrinə düşməsinin qarşısının alınması məqsədilə stasionar tipli qayğının tədricən alternativ xidmətlərə transformasiya olunması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, *İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi* | 2023–2026 | Stasionar sosial xidmətlərdən alternativ sosial xidmətlərə keçidlə bağlı qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi | Stasionar sosial xidmətlərin tədricən alternativ sosial xidmətlər sisteminə (icma və ailə əsaslı xidmətlər, günərzi qayğı xidmətləri, qəyyumluq, himayədarlıq və s.) transformasiyasını müəyyən edən mexanizmin tətbiqi | 220 uşağın ailəyə qaytarılması və 250 uşağın stasionar müəssisəyə düşməsinin qarşısının alınması |
| 8.5.2. | Himayədar ailə institutunun inkişafına hədəflənən tədbirlərin həyata keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2023–2026 | Himayədar ailəyə qəbulun təşviqi məqsədilə təkliflərin hazırlanması | Cəmiyyətdə uşaqların himayəyə götürülməsinə müsbət münasibətin formalaşdırılması məqsədilə müxtəlif təbliğat xarakterli və stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi | Azı 120 uşağın himayədar ailəyə verilməsi |
| **8.6. Sosial xidmətlərin təşkilində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın davam etdirilməsi, sosial xidmət sahəsində dövlət–özəl tərəfdaşlığının genişləndirilməsi** | | | | | | | |
| 8.6.1. | Azərbaycan Respublikasının regionları üzrə sosial xidmətlərə olan ehtiyacın müəyyən edilməsi və dövlət sifarişi ilə sosial xidmət sahəsində həyata keçirilən layihələrin şəbəkəsinin genişləndirilməsi məqsədilə müvafiq tədbirlər görülməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, yerli icra hakimiyyəti orqanları | 2023–2026 | Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) xidmətlərə əlçatanlıq səviyyəsinin, eləcə də sosial xidmətlərə ehtiyacı olan şəxslərin regionlar üzrə paylanılmasının müəyyən edilməsi məqsədilə layihənin həyata keçirilməsi | Azərbaycan Respublikasının regionları üzrə sosial xidmətlərin prioritet istiqamətlərinin müəyyən edilməsi | Dövlət sifarişi ilə sosial xidmət sahəsində həyata keçirilən layihələrin sayının hər il 10 faiz artmasına nail olunması |
| 8.6.2. | Sosial xidmət sahəsində dövlət sifarişlərinin verilməsi ilə həyata keçirilən layihələrin davamlılığının təmin edilməsi, həmçinin layihələr çərçivəsində göstərilən xidmətlərin keyfiyyətinin artırılması ilə bağlı tədbirlər görülməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | *İcbari Tibbi Sığorta* üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2024–2025 | Layihələrin davamlılığının təmin edilməsi, habelə layihələr çərçivəsində göstərilən xidmətlərin minimum səviyyəsinə dairtələbləri və bu tələblərə riayət olunmasına nəzarət mexanizmini müəyyən edən normativ hüquqi aktların layihələrinin hazırlanması | Layihələrin davamlılığının təmin edilməsi, habelə layihələr çərçivəsində göstərilən xidmətlərin minimum səviyyəsinə dair tələbləri və bu tələblərə riayət olunmasına nəzarət mexanizmini müəyyən edən normativ hüquqi aktların layihələrinin müvafiq dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Layihələrin davamlılığının təmin edilməsi, habelə layihələr çərçivəsində göstərilən xidmətlərin minimum səviyyəsinə dair tələbləri və bu tələblərə riayət olunmasına nəzarət mexanizmini müəyyən edən normativ hüquqi aktların təsdiqi üçün aidiyyəti üzrə təqdim edilməsi |
| 8.6.3. | Sosial xidmət sahəsində korporativ sosial məsuliyyətin inkişafının təmin edilməsi və sosial xidmət təminatı ilə əlaqədar layihələrin təşkilinə özəl sektorun cəlb edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, İqtisadiyyat Nazirliyi | 2024–2026 | Özəl sektorun sosial xidmət təminatı ilə əlaqədar layihələrin təşkilinə cəlb olunmasının təşviqinə dair təkliflərin hazırlanması | Kommersiya təşkilatları ilə müvafiq sahədə tərəfdaşlıq münasibətlərinin qurulması | Çətin həyat şəraitində olan şəxslərin sosial xidmətlərlə təmin edilməsi ilə əlaqədar fəaliyyətin həyata keçirilməsində iştirak edən özəl sektor subyektlərinin sayının artması üzrə müsbət dinamikaya nail olunması |
| **8.7. Sosial xidmət sistemində insan resurslarının inkişafı və təminatı** | | | | | | | |
| 8.7.1. | Sosial xidmət sahəsində rəqabətqabiliyyətli kadr potensialının inkişafı üçün yeni peşə və kvalifikasiya standartlarının hazırlanması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2024–2025 | “Sosial işçi”, “Sosial xidmətçi”, “Sosial pedaqoq” və “Sosial iş üzrə mütəxəssis–psixoloq” peşələri üçün peşə və kvalifikasiya standartları layihələri–nin hazırlanması | Peşə və kvalifikasiya standartları layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Peşə və kvalifikasiya standartlarının təsdiq edilməsi |
| 8.7.2. | Sosial xidmət sahəsində yüksəkixtisaslı və peşəkar kadr hazırlığının həyata keçirilməsi məqsədilə ali təhsil müəssisələrində mövcud təhsil proqramlarının təkmilləşdirilməsi | Elm və Təhsil Nazirliyi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2025–2026 | Çətin həyat şəraitində olan şəxslərə sosial xidmət göstərilməsi və sosial işin təşkili məqsədilə təhsil proqramlarının təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması | Təhsil proqramlarının təkmilləşdirilməsi ilə bağlı təkliflərin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Çətin həyat şəraitində olan şəxslərə sosial xidmət göstərilməsi və sosial işin təşkili üçün yeni təhsil proqramlarının qəbul edilməsi |

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası

### 1. Qısa xülasə

Azərbaycan Respublikasının informasiya məkanının müasir təhdidlərdən qorunması milli təhlükəsizliyin əsas istiqamətlərindəndir. Ölkənin sosial-iqtisadi tərəqqisinin aparıcı qüvvəsi olan informasiya-kommunikasiya texnologiyalarının (bundan sonra - İKT) dinamik inkişafı bu sahədə mövcud olan və yeni yaranan risklərin təhlilinin aparılmasını, mühafizə obyektlərinin dəqiqləşdirilməsini, onların aid olduğu informasiya infrastrukturlarının funksional dayanıqlığını, bu infrastrukturlardan istifadə edən subyektlərin hüquq və qanuni maraqlarını, fəaliyyətin davamlılığını təmin etmək üçün qabaqlayıcı və bərpaedici tədbirlərin müəyyənləşdirilmiş səviyyədə görülməsini, informasiya təhlükəsizliyini idarəetmə alətlərinin davamlı təkmilləşdirilməsini şərtləndirir.

Qloballaşan dünyada informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin olunması istər milli, istərsə də beynəlxalq səviyyədə əsas məsələyə çevrilmişdir. Bu fəaliyyətdə insan, cəmiyyət və dövlət maraqlarının qorunması başlıca məqsəddir. Son zamanlar Azərbaycanın informasiya məkanına, o cümlədən onun tərkib hissələrinə (dövlət, özəl və qeyri-hökumət qurumlarının, fiziki şəxslərin sahib olduğu informasiya ehtiyatlarına və infrastrukturlarına, bu ehtiyatlarda olan məlumatların həyat boyu proseslərinə, həmin proseslər üçün istifadə olunan maddi və qeyri-maddi obyektlərə və onlar arasında əlaqələrə) qarşı texnoloji cəhətdən çoxşaxəli hücumlar genişlənməkdədir.

İnformasiya təhlükəsizliyi informasiya sahəsində milli təhlükəsizliyə təhdidləri müəyyən etmək, bu təhdidlərin istifadə edə biləcəyi zəifliklərin, boşluqların və təhdid nəticəsində yarana bilən fəsadların aradan qaldırılması və ya əvvəldən təyin edilmiş hədlərə qədər azaldılması üçün hüquqi, təşkilati, əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat, elmi-texniki və təhsil, informasiya-təhlil, kommunikasiya, kadr təminatı, iqtisadi və digər sahələr üzrə tədbirləri əlaqələndirilmiş qaydada təşkil, icra, nəzarət və davamlı təkmilləşdirmək üçün qanunvericiliklə müəyyən edilən mühafizə üsulları və vasitələri ilə təmin edilir.

Kibertəhlükəsizlik sahəsində milli ekosistemin formalaşdırılması və inkişafı istiqamətində aparılmış əməli fəaliyyət ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin ciddi şəkildə yaxşılaşdırılması ilə nəticələnmişdir. Azərbaycan Beynəlxalq Telekommunikasiya İttifaqının tərtib etdiyi "Qlobal kibertəhlükəsizlik indeksi 2020" (Global Cybersecurity Index, GCI) reytinqində mövqeyini 15 pillə yaxşılaşdıraraq, 194 ölkə arasında 89.31 xal ilə 40-cı yerdə qərarlaşmışdır.

"Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası" (bundan sonra - Strategiya) dövlətin, cəmiyyətin və insanların müasir İKT-dən təhlükəsiz istifadəsinin təmin edilməsi üçün milli informasiya təhlükəsizliyi səviyyəsinin yüksəldilməsinə, dövlət və özəl şəbəkələrin, kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmin olunmasına aid tədbirlərin müəyyənləşdirilməsinin və həyata keçirilməsinin təşkilinə, həmçinin fərdi məlumatların mühafizəsinə, Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit edilmiş insan hüquq və azadlıqlarına riayət edilməsinə daha əlverişli şəraitin yaradılmasına xidmət edir.

Strategiya Azərbaycan Respublikasının Konstitusiyasına və digər normativ hüquqi aktlarına, o cümlədən "Milli təhlükəsizlik haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli 2198 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası"na, habelə informasiya təhlükəsizliyi üzrə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsaslanır.

Strategiya informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində Azərbaycan Respublikasında ilk strategiya olmaqla, ölkədə informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə dövlət siyasətinin tərkib hissəsidir və bu sahədə fəaliyyətin əsas məqsədlərini, prinsiplərini, istiqamətlərini və prioritet vəzifələrini müəyyən edir.

Strategiyada qeyd olunan məsələlər həm milli, həm də ümumbəşəri xarakter daşıyır, insanların, cəmiyyətin və dövlətin maraqlarını nəzərə alaraq, dövlət, özəl və qeyri-hökumət təşkilatlarına, fiziki şəxslərə şamil edilir. İnsanların, cəmiyyətin və dövlətin həyati əhəmiyyətli bütün maraqlarının daha yüksək və təkmil səviyyədə qorunması hazırda həm də ölkənin informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik siyasətinin əsas məqsədi kimi müəyyənləşdirilir və onun dinamik inkişaf tələblərinə cavab verməsi nəzərdə tutulur.

Strategiyada informasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi sahəsində münasibətləri tənzimləyən Azərbaycan Respublikasının qanunlarında, digər müvafiq normativ hüquqi aktlarda, həmçinin texniki normativ hüquqi aktlarda müəyyən olunmuş anlayışlardan istifadə edilir.

### 2. Qlobal trendlər

2.1. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində fəaliyyət üçün aşağıda göstərilən müasir və yeni çağırışlar nəzərə alınır, qabaqcıl təcrübələrdən istifadə edilir:

2.1.1. informasiya təhlükəsizliyini real vaxt rejimində ("online") qiymətləndirmə və mühafizənin səmərəliliyini mütəmadi qiymətləndirmə texnologiyaları;

2.1.2. kibercinayətkarlığın xidmət kimi ("cybercrime as a service") beynəlxalq səviyyədə yayılmasına əks-cavab olaraq kibertəhlükəsizlik xidmətlərini milli və beynəlxalq səviyyələrdə şəbəkələşdirmə və bununla daha da gücləndirmə, kibertəhlükəsizlik toru ("cybersecurity mesh") arxitekturası;

2.1.3. informasiya təhlükəsizliyi ilə əlaqəli olan sahələrlə idarəetmə sistemləri arasında harmonizasiya, qurumdaxili və qurumlararası koordinasiya, beynəlxalq əməkdaşlıq, informasiya təhlükəsizliyini istiqamətləndirmə şuraları ("cyber-savvy boards"), informasiya təhlükəsizliyi ekosistemi;

2.1.4. informasiya təhlükəsizliyi ilə əlaqəli olan təchizat zəncirlərini standartlaşdırma tədbirləri;

2.1.5. identifikasiya - çoxfaktorlu autentifikasiya və texniki vasitələrin identifikasiyası - konfidensiallığı gücləndirmək üçün kritik texnologiyalar;

2.1.6. "məsafədən iş"in geniş yayılması və bundan yaranan kibertəhlükəsizlik riskləri, mobil kibertəhlükəsizlik texnologiyaları;

2.1.7. qurumların texniki xidmətlərində və informasiya təhlükəsizliyində hiperavtomatlaşdırma və burada informasiya təhlükəsizliyi tələblərinin pozulma hallarından yaranan zəiflikləri, riskləri idarəetmə texnologiyaları;

2.1.8. süni intellekt mühəndisliyi, idarəetmə üzrə qərarvermədə, riskləri, insidentləri müəyyənetmədə, o cümlədən funksionallıqda anomaliyaları və konfiqurasiyada sanksiyasız dəyişiklikləri dərhal aşkaretmədə, qabaqlayıcı (preventiv) və bərpaedici (korrektiv) əks-tədbirləri hazırlamaqda süni intellekt, rəqəmsal etimad ("digital trust") texnologiyaları;

2.1.9. "bulud" xidmətlərinin inkişafı, genişlənməsi və həm də onlara təhdidlərin artması, "paylanmış bulud" ("distributed cloud") texnologiyaları;

2.1.10. informasiya təhlükəsizliyi sahəsində risk-yönümlü modelləşdirmə, simulyasiya və kiberpoliqonlar texnologiyaları;

2.1.11. internetdə davranış mədəniyyəti, sosial mühəndislik "hücumlar"ının və onlara əks-tədbirlərin daha da "ağıllı" olması, maarifləndirmə işinin genişləndirilməsi;

2.1.12. kiberhücum vektorlarının çoxalması, o cümlədən pandemiya kontekstində sürətlə artan kibertəhdidlər;

2.1.13. kibertəhdidlərə qarşı mübarizədə daha mükəmməl texnoloji həllərin tətbiqi zərurəti;

2.1.14. kibercinayətkarlığın törədilmə üsul və vasitələrinin sürətli diversifikasiyası, o cümlədən kriptovalyutaların geniş vüsət alması və müxtəlif cinayətkar məqsədlərlə istifadə olunması;

2.1.15. "ransomware" hücumlarının artması və bu hücumlara qarşı intensiv maarifləndirmə təşəbbüslərinin icra olunması;

2.1.16. "insayder" təhdidlərinin artması və bu təhdidlərə qarşı mübarizənin gücləndirilməsi;

2.1.17. kibertəhdidlərlə mübarizə aparılması üçün "çoxfaktorlu autentifikasiya" metodlarından geniş istifadə zərurətinin yaranması;

2.1.18. insanların, proqram təminatı vasitələrinin internetdə (və digər qlobal şəbəkədə) ona qoşulmuş texniki təminat vasitələri ilə qarşılıqlı fəaliyyəti üçün yaranmış virtual mühitdə - kibermәkanda mühafizəsi tələb olunan rəqəmsallaşdırılmış məlumatların sürətlə çoxalması ilə əlaqədar təkmilləşdirilmiş mühafizə mexanizmlərindən istifadəyə dair ehtiyacın artması.

### 3. Mövcud vəziyyətin təhlili

Son illər ölkəmizdə kibermәkanda dövlət müstəqilliyinin, milli maraqların qorunması, informasiya təhlükəsizliyi sahəsində vahid dövlət siyasətinin təkmilləşdirilməsi və informasiya təhlükəsizliyinin texnoloji infrastruktur komponentlərinin yaradılması istiqamətində məqsədyönlü işlər aparılır.

Vətən müharibəsinin ilk günlərindən kibermәkanda mümkün təxribatların və döyüş əməliyyatları ilə bağlı məlumatların sızmasının qarşısını almaq məqsədilə Azərbaycanın internet seqmentinin, həmçinin sosial şəbəkələr, mesencerlər və digər elektron kommunikasiya platformaları vasitəsilə aparılan məlumat mübadiləsinin təhlükəsizliyinin təmin olunması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. İşğaldan azad olunmuş ərazilərdə müasir informasiya texnologiyalarına əsaslanan infrastrukturun yaradılması, "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarının reallaşması regional sabitliyi və inkişafı şərtləndirən amillərdən biridir. Bu ərazilərdə dövlət və ictimai təhlükəsizliyin təmin olunması üçün mümkün terror-təxribat və digər nöqtələrin müəyyən edilməsi, çevik əks-tədbirlərin hazırlanması məqsədilə "big data", "cloud", "machine learning" texnologiyaları əsasında yaradılmış müvafiq həllərin tətbiqi nəzərdə tutulur.

Qlobal pandemiya şəraitində insanların, biznes dairələrinin, dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əsas hissəsi kibermәkana keçmiş, müəssisə və təşkilatların bir qismi işçilərini məsafədən işə cəlb etmişdir. Əksər hallarda bu keçid sürətlə baş vermiş və istifadə olunan texnologiyaların və proqram təminatının təhlükəsizlik baxımından qiymətləndirilməsi lazımi qaydada aparılmamışdır. Məsafədən iş üçün tətbiq olunmuş proqram təminatının müxtəlifliyini və çoxsaylı istehsalçılara məxsus olduğunu nəzərə alaraq, fərdi məlumatların, kommersiya sirrinin və digər qorunan informasiyanın sızması təhlükəsi ötən illərlə müqayisədə dəfələrlə artmışdır.

*Ardı 11-ci səh.*

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası

*Əvvəli 10-cu səh.*

Bununla bağlı, qorunan informasiyanın mühafizəsi istiqamətində əlavə tədbirlərin həyata keçirilməsi zərurəti yaranmışdır.

Ümumiyyətlə, ölkədə kibercinayətlərlə mübarizə imkanlarının genişləndirilməsi üçün bir sıra mühüm hüquqi və təşkilati tədbirlər görülmüşdür. İnformasiya təhlükəsizliyi, habelə kibertəhlükəsizlik üzrə hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası aidiyyəti beynəlxalq konvensiya və proqramlara qoşulmuş, milli qanunvericilik bazası inkişaf etdirilmişdir.

2001-ci il noyabrın 23-də Budapeşt şəhərində imzalanmış "Kibercinayətkarlıq haqqında" Konvensiyanın müvafiq bəyanatlarla və qeyd-şərtlərlə Azərbaycan Respublikasının 2009-cu il 30 sentyabr tarixli Qanunu ilə təsdiq edilməsi kibercinayətkarlıqla mübarizə sahəsində atılan mühüm addımlardan biridir. Həmin Konvensiyanın müddəalarından irəli gələrək, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə müvafiq dəyişikliklər edilmişdir.

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyində fəaliyyət göstərən standartlaşdırma üzrə "İnformasiya-kommunikasiya texnologiyaları" Texniki Komitəsi (TK05) tərəfindən informasiya təhlükəsizliyi üzrə beynəlxalq standartların əsasında 18 identik milli standart hazırlanmış və müvafiq qaydada dövlət qeydiyyatına alınmışdır.

Azərbaycan Respublikasında informasiya təhlükəsizliyi sahəsindəki əsas vəzifələrin yerinə yetirilməsi, milli informasiya resurslarının qorunması və təhdidlərin qarşısının alınması və bu sahədə effektiv tədbirlərin gücləndirilməsi məqsədilə informasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 26 sentyabr tarixli 708 nömrəli Fərmanı ilə müəyyən edilmişdir. Bu Fərmanla informasiya təhlükəsizliyi məsələlərinə məsul olan qurumlar - Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzi yaradılmışdır. "Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 mart tarixli 833 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 sentyabr tarixli 276 nömrəli Fərmanı ilə qeyd olunan mərkəzə Xidmət statusu verilmişdir. Bununla yanaşı, "Xüsusi dövlət mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 mart tarixli 957 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə XidmətininXüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyinin bazasında müstəqil olaraq Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli 359 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"da müxtəlif sahələrin inkişafı kimi, informasiya təhlükəsizliyinin təmin edilməsi də öz əksini tapmışdır. Həmin Milli Strategiyanın əsas istiqamətlərindən biri olan "İnformasiya təhlükəsizliyinin təmin edilməsi"nin məqsədlərinə çatmaq üçün ölkənin milli informasiya məkanının və kritik infrastrukturlarının, o cümlədən informasiya infrastrukturunun informasiya təhlükəsizliyini təmin edən sistemin inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Bundan irəli gələrək, qlobal informasiya məkanında Azərbaycan Respublikasının milli maraqlarının qorunması, informasiya təhlükəsizliyi sisteminin inkişaf etdirilməsi və İKT-dən təhlükəsiz istifadə mədəniyyətinin yüksəldilməsi həlli vacib olan əsas məsələlərdən biri kimi müəyyənləşdirilmişdir.

Ölkədə informasiya məkanının təhlükəsizliyinin təmin edilməsi, dövlət və cəmiyyət üçün xüsusi əhəmiyyət kəsb edən infrastruktur obyektlərinin informasiya sistemləri və ehtiyatlarının kiberhücumlardan qorunması, belə təhdidlərin qabaqlanması, qarşısının alınması və araşdırılması sahəsində fəaliyyət göstərən dövlət qurumlarının işinin əlaqələndirilməsini təmin etmək üçün Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli 3851 nömrəli Sərəncamı ilə İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası yaradılmışdır.

Bundan başqa, Azərbaycanda TIER III səviyyəli, ISO/IEC 20000 və ISO/IEC 27001 standartlarına uyğun Data Mərkəzi yaradılmış və fəaliyyəti təmin edilmiş, "Elektron hökumət"in inkişafı, "Rəqəmsal hökumət"ə keçidin təmin edilməsi, dövlət qurumlarının informasiya texnologiyalarına, elektron xidmətlərin yaradılmasına və göstərilməsinə tələb olunan dövlət xərclərinin optimallaşdırılması, informasiya sistemlərinin fəaliyyətinin daha müasir standartlar əsasında keyfiyyətli, dayanıqlı və təhlükəsiz infrastrukturda təşkilinin təmin edilməsi, vətəndaşların bu imkanlardan sərbəst istifadəsi məqsədilə "bulud texnologiyası"nın tətbiqi məqsədilə "Hökumət buludu"nun ("G-cloud") yaradılmasına başlanılmışdır.

"Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 aprel tarixli 1315 nömrəli Fərmanına əsasən, Azərbaycan Respublikasında kritik informasiya infrastrukturunun və onun tərkibinə daxil olan informasiya sistemlərinin, informasiya-kommunikasiya şəbəkələrinin və avtomatlaşdırılmış idarəetmə sistemlərinin təhlükəsizliyinin gücləndirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

Azərbaycanda informasiya təhlükəsizliyinin təmin olunması məsələləri yuxarıda qeyd edilən hüquqi aktlarla yanaşı, "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli 2198 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası"nda öz əksini tapmışdır.

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, ölkədə informasiya təhlükəsizliyinin, həmçinin kibertəhlükəsizliyin təmin edilməsi sahəsində səlahiyyət və məsuliyyət bölgüsü müəyyənləşdirilmişdir. Dövlət orqanları səlahiyyətlərinə uyğun olaraq informasiya təhlükəsizliyinin müxtəlif məsələləri ilə məşğuldurlar, informasiya sistemlərinin mülkiyyətçiləri və ya sahibləri olan dövlət qurumları və özəl müəssisələr, həmçinin fiziki şəxslər onların fəaliyyətinin kibertəhlükəsizliyinə məsuliyyət daşıyırlar.

Beynəlxalq təcrübəyə uyğun olaraq ölkədə kibertəhlükəsizlik insidentlərinə cavabvermə qrupları (CERT) fəaliyyət göstərir. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti - Milli CERT (www.cert.az) ölkə üzrə kibertəhlükəsizliyin pozulmasına yönəlmiş hərəkətlərin aşkarlanmasını, qarşısının alınması üçün preventiv tədbirlərin həyata keçirilməsini təmin edən əlaqələndirici qurum kimi çıxış edir. Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzi (www.cert.gov.az) dövlət qurumlarının kibertəhlükəsizliyinin pozulmasına yönəlmiş hərəkətlərin aşkarlanmasını, qarşısının alınması üçün preventiv tədbirlərin görülməsini, eləcə də onların təhlükəsiz internet şəbəkəsi ilə təmin edilməsini və 24/7 Təhlükəsizlik Əməliyyatları Mərkəzi (SOC) vasitəsilə təhlükəsizliyinin nəzarətdə saxlanılmasını həyata keçirir. Milli Elmlər Akademiyasının Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzi "AzScience-CERT" (www.sciencecert.az) elm-kompüter şəbəkəsinin təhlükəsizliyinə məsuldur.

Sürətlə qloballaşan dünyada milli informasiya məkanına təhdidlər də qlobal xarakter daşıyır. Buna görə də kibertəhlükəsizliyin təminatının mühüm şərtlərindən biri beynəlxalq əməkdaşlığın mövcudluğudur.

Azərbaycan Respublikası informasiya təhlükəsizliyi və kibercinayətkarlıqla mübarizə məsələlərində beynəlxalq təşkilatlarla fəal qarşılıqlı əlaqə qurur və əməkdaşlıq edir. Həmçinin Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən "Kibercinayətkarlıq haqqında" Konvensiyaya uyğun olaraq, kibermәkanda törədilən cinayətlərin araşdırılması məqsədilə xarici həmkarlara təcili köməyin (verilənlərin mühafizəsi) təmin olunması ilə bağlı fəaliyyət həyata keçirilir.

Azərbaycan Respublikasının hərtərəfli inkişafı, dövlət idarəçiliyində, iqtisadi və sosial sahələrdə, insanların gündəlik tələbatlarının ödənilməsində informasiya texnologiyalarının və vasitələrinin geniş tətbiqi və əhəmiyyətinin artması təhlükəsizliyin təmin edilməsi baxımından bu sahədə mühafizə tədbirlərinin gücləndirilməsini zəruri edir. Bu məqsədlə beynəlxalq təcrübəyə əsaslanaraq, informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə dövlət siyasətinin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi, təhdidlərin və real şəraitin, o cümlədən problemlərin dəqiq, obyektiv, elmi baxımdan düzgün təhlil olunması, qiymətləndirilməsi və informasiya təhlükəsizliyi sahəsində səmərəli fəaliyyətin təşkili Strategiyada öz əksini tapmışdır.

Milli informasiya təhlükəsizliyinə və kibertəhlükəsizliyə təsir edən amillər GZİT (Güclü tərəflər, Zəif tərəflər, İmkanlar, Təhdidlər) analiz metoduna uyğun olaraq mütəmadi qiymətləndirilir. Bu amillər Strategiyada nəzərə alınmışdır və prioritet istiqamətlər, vəzifələr, müvafiq həll yolları, eləcə də kompleks tədbirlər planı müəyyənləşdirilmişdir.

Strategiyanın hazırlanması zamanı qabaqcıl beynəlxalq təcrübə, region və Avropa dövlətlərinin müvafiq strategiyaları araşdırılmış və ölkəmizdə tətbiqi baxımından təhlil edilmişdir.

Hazırda Avropa İttifaqına daxil olan 27 ölkənin, Beynəlxalq Telekommunikasiya İttifaqına üzv olan 193 ölkənin isə 108-nin müəyyən dövrləri əhatə edən informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik strategiyaları mövcuddur.

Beynəlxalq təşkilatların hesabatlarında ölkələrin kibertəhlükəsizlik üzrə reytinqinə təsir edən əsas meyarlardan biri bu sahədə informasiya təhlükəsizliyi və ya kibertəhlükəsizlik strategiyasının olmasıdır.

## 4. Hədəf göstəricilər

4.1. Strategiyanın əhatə etdiyi dövr ərzində aşağıda qeyd olunan hədəflərə nail olunması nəzərdə tutulur:

4.1.1. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik riskləri reyestrinin formalaşdırılmasının və aparılmasının təşkili;

4.1.2. informasiya təcavüzünə və həqiqətlərin təhrif edilməsinə, milli dəyərlərin pozulmasına aid təhdidlərin qarşısını ala bilən müasir texnologiyaların (o cümlədən süni intellektə əsaslanan texnologiyaların) işlənib hazırlanması üçün fəaliyyətin gücləndirilməsi;

4.1.3. informasiya təhlükəsizliyi hadisələrinin monitorinqinin, insidentləri və kritik halları aşkarlama meyarlarının müəyyən edilməsinin və tətbiqinin təmin olunması;

4.1.4. informasiya mühafizəsinin texniki, kriptoqrafik, proqram və digər vasitələr üzrə təminatının təkmilləşdirilməsi, bu sahədə yerli istehsalçıların inkişafına dəstək verilməsi;

4.1.5. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində startapların fəaliyyətinin genişləndirilməsi;

4.1.6. informasiyalaşdırma obyektlərində, texniki xidmət və informasiya xidməti subyektlərində informasiya təhlükəsizliyini idarəetmə sistemlərinin (İTİS-lərin) formalaşdırılmasının, onların səmərəlilik səviyyələrinin ölçülməsinin təmin edilməsi;

4.1.7. fərdi məlumatların mühafizəsinin gücləndirilməsi;

4.1.8. İKT-xidmət subyektlərində fəaliyyətin təkmilləşdirilməsi;

4.1.9. "ağıllı" sistemlərin təhlükəsizliyinin təkmilləşdirilməsi;

4.1.10. mediada, o cümlədən milli rəqəmsal efir məkanında informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin davamlı təkmilləşdirilməsi;

4.1.11. kritik informasiya infrastrukturu obyektlərinin təhlükəsizliyinin təmini;

4.1.12. fövqəladə hallarda, müharibə şəraitində kritik informasiya infrastrukturlarının təhlükəsizliyinə və onun idarə edilməsini təmin etmək üçün təşkilati əsasların yaradılması;

4.1.13. kibercinayətkarlığa qarşı mübarizə, o cümlədən kiberkriminalistika sahəsində fəaliyyətin gücləndirilməsi;

4.1.14. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində elmi tədqiqat və layihə-təcrübə işlərinin real tətbiqləri nəticəsində rəqabətədavamlı məhsulların işlənməsi və hazırlanması;

4.1.15. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində fəaliyyət üçün kompetensiya (bilik, bacarıq və səriştə) tələbatları, tədris və təlim proqramları, maarifləndirmə materialları bazasının formalaşdırılması və aktuallığının davamlı təmin olunması;

4.1.16. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində kadr hazırlığının və informasiya təhlükəsizliyi üzrə ixtisaslaşmış struktur bölmələrin müvafiq kadrlarla təminatının gücləndirilməsinin təmin olunması;

4.1.17. informasiya təhlükəsizliyi sahəsində ali təhsil almış məzunların ixtisası üzrə məşğulluq səviyyəsinin yüksəldilməsi;

4.1.18. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə ixtisaslaşan yeniyetmə və gənclərin təhdidlərdən mühafizəsinin təşkili;

4.1.19. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində qabaqcıl beynəlxalq hüquqi və texniki normativ alətlərin öyrənilməsi, informasiya təhlükəsizliyi və əlaqəli sahələrə aid beynəlxalq mənbələrin praktiki tövsiyələrinin təşviqi;

4.1.20. cəmiyyətdə geniş maarifləndirmə və məlumatlandırma nəticəsində informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinin yüksəldilməsinin təmin edilməsi;

4.1.21. internetdən gələn qlobal təhdidlərdən, zərərli informasiyalardan və yaranan fəsadlardan uşaqların mühafizəsi;

4.1.22. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik ekosisteminin formalaşdırılması;

4.1.23. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə idarəetmə sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi;

4.1.24. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin yaxşılaşdırılması;

4.1.25. informasiya təhlükəsizliyi üzrə beynəlxalq standartların ölkədə tətbiqinin genişləndirilməsi, o cümlədən müxtəlif standartlaşdırma təşkilatlarının məhsullarından ölkəmizdə vahid yanaşma ilə uyğunlaşdırılmış formada istifadənin təmin olunması və İnformasiya Təhlükəsizliyi üzrə Milli Standartların davamlı təkmilləşdirilməsi;

4.1.26. informasiya təhlükəsizliyi sahəsində kadr hazırlığını təmin edən təhsil müəssisələrinin səmərəliliyinin artırılması, yeni təhsil mərkəzlərinin formalaşdırılması;

4.1.27. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə beynəlxalq şirkətlərlə birgə laboratoriyaların formalaşdırılması.

## 5. Məqsədlər

5.1. İnformasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmini üzrə aşağıdakı məqsədlər hədəflərə nail olunmasına xidmət edir:

5.1.1. informasiya məkanında, xüsusən də kritik informasiya infrastrukturlarında təhlükəsizlik risklərinin müəyyənləşdirilməsi;

5.1.2. informasiya təcavüzünə və həqiqətlərin təhrif edilməsinə, milli dəyərlərin pozulmasına aid təhdidlərə qarşı hazırlığın gücləndirilməsi;

5.1.3. informasiya məkanında və kritik informasiya infrastrukturlarında informasiya təhlükəsizliyi struktur vahidlərinin, "CERT" şəbəkələrinin və onlar arasında qarşılıqlı fəaliyyətin davamlı təkmilləşdirilməsi;

5.1.4. informasiya təhlükəsizliyi, həmçinin kibertəhlükəsizlik sənayesinin formalaşdırılması, informasiya mühafizəsi texnologiyaları sahəsində xaricdən birbaşa asılılığın minimallaşdırılması, nəzarətdə saxlanılması, proqram mühəndisliyinin və rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsi;

5.1.5. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində innovativ həllərin və startapların təşviqi, onların dəstəklənməsi, yeni məhsul və xidmətlərin yaradılması;

5.1.6. ölkənin informasiya infrastrukturlarında risklərin, xidmətlərin, insidentlərin idarə edilməsi üçün tələb olunan əsas tədbirlərin müəyyən edilməsində sistemliliyin təmin olunması, standartların və qabaqcıl təcrübənin tətbiqi, təhlükəsizlik səviyyəsinin yüksəldilməsi və bu səviyyənin ölçmə modelinin müəyyənləşdirilməsi;

5.1.7. informasiya sızması, o cümlədən fərdi məlumatların mühafizəsi üzrə təhlükəsizlik səviyyəsinin yüksəldilməsi;

5.1.8. İKT-məhsulların həyat tsiklinin optimal idarə edilməsinin, izafiliyinin minimallaşdırılmasının və adekvatlığının obyektiv qiymətləndirilməsinin təmin olunması;

5.1.9. "ağıllı" sistemlərin yaradılmasına, tətbiqinə və utilizasiyasına metodiki və təhlükəsizlik dəstəyi göstərilməsi;

5.1.10. milli rəqəmsal efir məkanının kibertəhlükəsizliyinin təmin edilməsi;

5.1.11. kritik informasiya infrastrukturları obyektlərinin təhlükəsizliyinə dövlət nəzarətinin həyata keçirilməsi;

5.1.12. kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin, onların idarəetmə səviyyələrinin risklərə adekvat yüksəldilməsi;

5.1.13. kibercinayətkarlığa qarşı mübarizənin və mübarizə səviyyəsinin mütəmadi qiymətləndirilməsinin adekvatlığının təmin edilməsi;

5.1.14. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində elmi tədqiqat və layihə-təcrübə işlərinin aparılmasına davamlı təşkilati dəstək verilməsinin təmin olunması;

5.1.15. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə fəaliyyət sahəsi barədə məlumatların təhlükəsizlik xassələrinin təmin olunması, müvafiq kadrların hazırlanması üçün obyektiv informasiya ilə təmin edilməsi;

5.1.16. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində kadrların hazırlanmasına və idarə olunmasına aid planlaşdırma, icra və nəzarət işlərinin optimallığının təmin olunması;

5.1.17. təhsil müəssisələri ilə dövlət və özəl sektor arasında informasiya təhlükəsizliyi üzrə kadr hazırlığına dair əməkdaşlığın genişləndirilməsinin təşkili;

5.1.18. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində milli kadr ehtiyatının tükənməzliyi və mühafizəsi, ölkə xaricinə "beyin axını"nın qarşısının alınması;

5.1.19. informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin normativ əsasının aktuallığının təmin edilməsi;

5.1.20. İKT-məhsulları və xidmətləri bazarında informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin olunması, həmçinin sifariş, istehsal, təchizat tərəflərinin qanuni maraqlarını qorumaq üçün tədbirlər görülməsi;

5.1.21. cəmiyyətdə informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinə dair zəruri biliklərin, bacarıqların artırılmasına və təbliğinə dəstək verilməsi;

5.1.22. uşaqların internetdən təhlükəsiz istifadə imkanlarının möhkəmləndirilməsinə, tövsiyələrin işlənilməsinə təşkilati dəstək verilməsi;

5.1.23. dövlət, özəl və vətəndaş cəmiyyəti institutları və bu institutların subyektləri arasında əməkdaşlığın inkişaf etdirilməsi;

5.1.24. milli informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik ilə beynəlxalq informasiya təhlükəsizliyi arasında inteqrasiya əlaqələrinin təmin olunması;

5.1.25. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi, sahə üzrə hüquqi bazanın təkmilləşdirilməsi;

5.1.26. informasiya təhlükəsizliyi üzrə beynəlxalq standartların ölkədə geniş tətbiq olunmasına təşkilati və metodiki dəstək verilməsi, o cümlədən müxtəlif standartlaşdırma təşkilatlarının ölkəmizdə istifadə olunan məhsullarının uyğunluq baxımından vahid yanaşma ilə icmallaşdırılması və İnformasiya Təhlükəsizliyi üzrə Milli Standartların formalaşdırılması;

5.1.27. informasiya təhlükəsizliyi üzrə kadr hazırlığı üçün müasir təhsil müəssisələrinin və laboratoriyalarının formalaşdırılması.

## 6. Prioritet istiqamətlər

Azərbaycan Respublikasında informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin edilməsi sahəsində fəaliyyətin strateji planlaşdırılması və mərhələli olaraq həyata keçirilməsi nəzərdə tutulur.

### 6.1. Təhdidlərin müəyyənləşdirilməsi və risklərin idarəedilməsi

Təşkilatların, insanların fəaliyyətində İKT-nin rolunun daim artdığı müasir dövrdə informasiya mühafizəsinin obyektlərinə mümkün təhdidlərin baş verə bilməsinin, bu zaman zəifliklərdən (boşluqlardan və digər uyğunsuzluqlardan) istifadənin mümkünlüyünün və fəsadların yarana bilməsinin qiymətləndirilməsi zəruridir. Milli informasiya məkanında risklərin qiymətləndirilməsi Strategiyanın əsas elementlərindən biridir.

İnformasiya təhlükəsizliyinin təmin olunması üçün riskləri, xidmətləri və insidentləri idarəetmə sistemləri, o cümlədən bu sistemlərə tələb olunan əsas tədbirlər toplusu, təhlükəsizlik səviyyəsini ölçmə modeli və həmin sistemləri davamlı təkmilləşdirmə mexanizmi formalaşdırılır.

Bu baxımdan müvafiq sahəyə aid təhdidlərin müəyyənləşdirilməsi və risklərin idarə edilməsi ilə bağlı bu Strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində həmin təhdidlərin qarşısını ala bilən müasir texnologiyalar hazırlanacaq, mühafizə qabiliyyəti yüksəldiləcəkdir.

### 6.2. İnformasiya təhlükəsizliyi hadisələrinin aşkarlanması tədbirlərinin və mühafizə texnologiyalarının gücləndirilməsi

İnformasiya təhlükəsizliyinin təmin edilməsi risklərə adekvat olan üsul və vasitələrin (informasiya təhlükəsizliyini idarəetmə alətlərinin) seçilməsindən, onlara qoyulan mükəmməllik və etimad tələblərinə uyğun olmasından, onların imkanlarının və istifadəsinin səmərəlilik göstəricilərindən asılıdır.

Bu baxımdan informasiya təhlükəsizliyi hadisələrinin aşkarlanması tədbirlərinin və mühafizə texnologiyalarının gücləndirilməsinə dair bu Strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində informasiya mühafizəsinin təminatı təkmilləşdiriləcək, bu sahədə yerli istehsal və yerli istehsalçılar, innovativ fəaliyyət inkişaf edəcəkdir.

### 6.3. İnformasiya məkanının informasiya təhlükəsizliyinin təmin olunması səviyyəsinin yüksəldilməsi

İnformasiya təhlükəsizliyinin təmin edilməsi, informasiya təhlükəsizliyi risklərinin idarə olunması informasiya təhlükəsizliyinə təhdidlərin təsir ünvanı olan obyektlərin (informasiya prosesləri üçün lazım olan, mühafizəsinə tələblər qoyulan və ya zərurət olan aktivlərin), bu obyektlərin təyinatı üzrə yetərli və yararlı olmasının, bu obyektlərdə olan zəifliklərin, boşluqların və digər uyğunsuzluqların müəyyən edilməsindən və həmin obyektlərin davamlı təkmilləşdirilməsindən, həmçinin bu Strategiyada qeyd olunan vəzifələrin icrasından asılıdır.

Bu baxımdan informasiya məkanının informasiya təhlükəsizliyinin təmin olunması səviyyəsinin yüksəldilməsi ilə bağlı bu Strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində İKT xidmət subyektlərində fəaliyyət, həmçinin milli rəqəmsal efir məkanında kibertəhlükəsizlik davamlı təkmilləşdiriləcəkdir.

### 6.4. Kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmin edilməsi

Cəmiyyətin mühüm həyati funksiyalarını təmin etmək üçün böyük rola malik olan, fəaliyyətindəki nasazlıqların və ya sıradan çıxmasının əhalinin sağlamlığına, təhlükəsizliyinə, iqtisadi və sosial rifahına, həmçinin dövlət qurumlarının fəaliyyətinin davamlılığına ciddi təsir göstərən infrastrukturların və ya onların əhəmiyyətli hissələrinin informasiya təhlükəsizliyinin təmin olunması xüsusilə vacibdir. Bununla yanaşı, hər hansı bir sahədə baş vermiş hadisə digər sahələrdə də zəncirvari hadisələrə səbəb ola bilər. Qeyd edilən səbəblərdən kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmini mülkiyyət növündən asılı olmayaraq daim diqqət mərkəzində olmalı və bu məqsədlə müvafiq tədbirlər görülməlidir.

Bu baxımdan kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı bu Strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində kritik informasiya infrastrukturları obyektlərinin təhlükəsizliyinin təmin edilməsi vəziyyətinə nəzarət təkmilləşəcək, bu sahədə risklərin qiymətləndirilməsi və idarə olunmasının keyfiyyəti yaxşılaşacaqdır.

### 6.5. Kibercinayətkarlığa qarşı mübarizə, o cümlədən kiberkriminalistika sahəsində fəaliyyətin gücləndirilməsi

Kibercinayətkarlıq bütün dünyada artır və bəzən mütəşəkkil beynəlxalq qruplaşmalar vasitəsilə həyata keçirilərək, inkişaf etmiş İKT infrastrukturuna malik ölkələrin, demək olar ki, hamısını əhatə edir. Azərbaycan Respublikasında da müasir texnoloji vasitələrdən istifadənin genişlənməsi kibercinayətlərin başvermə təhdidi ilə müşayiət olunur. Kibercinayətlər böyükhəcmli və miqyaslı ola, həmçinin kritik infrastrukturların, informasiya sistemlərinin işinin pozulması, fərdi məlumatların oğurlanması, insanların şəxsi həyatına təhlükə törətməsi və onlara mənəvi zərər vurulması ilə nəticələnə bilir. Kibermәkanın fiziki sərhədlərinin olmaması kibercinayətkarlara beynəlxalq problem olan terror, təxribat, casusluq, transmilli mütəşəkkil cinayətkarlıq kimi təhlükəli fəaliyyətləri bu məkanın imkanlarından istifadə etməklə həyata keçirmək üçün geniş şərait yaradır.

Bu baxımdan kibercinayətkarlığa qarşı mübarizə, o cümlədən kiberkriminalistika üzrə fəaliyyətin gücləndirilməsi ilə bağlı bu Strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində cinayətlərin aşkarlanması, sübutların toplanılması, cinayət işlərinin istintaqının aparılmasına dair fəaliyyətin səmərəli təşkili sahəsində imkanlar genişləndiriləcəkdir.

### 6.6. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində potensialın gücləndirilməsi, institusional bazanın inkişaf etdirilməsi

İnformasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin olunmasının kompleks təşkili və həyata keçirilməsi bu sahədə aparılan elmi tədqiqatlardan və onların nəticələrinin praktikaya tətbiqindən, təhsilin mövcud və perspektiv tələbata uyğun olmasından asılıdır.

Bu baxımdan informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində potensialı gücləndirmə, institusional bazanı inkişafetdirmə ilə bağlı bu Strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində aparılan elmi tədqiqat və layihə-təcrübə işlərinin keyfiyyəti yüksəldiləcək, müvafiq sahələrdə kadr hazırlığı, kadrların təkmilləşdirilməsi və ixtisaslaşmış struktur bölmələrin keyfiyyətli kadrlarla təminatı təmin ediləcəkdir.

### 6.7. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair normativ bazanın təkmilləşdirilməsi

İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair normativ hüquqi bazanın müasir çağırışlara uyğun olaraq təkmilləşdirilməsi davamlı təmin edilməlidir.

Bu baxımdan informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair normativ bazanın təkmilləşdirilməsi ilə bağlı bu Strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində qabaqcıl beynəlxalq təcrübəyə uyğun olan və müvafiq sahənin bu Strategiya ilə müəyyən edilən məqsədlərə, prioritet istiqamətlərə uyğun tənzimlənməsinə imkan verən hüquqi baza formalaşacaqdır.

### 6.8. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinin yüksəldilməsi

İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinin formalaşdırılması təşkilati məsələlərin həlli, insidentlərin qarşısının alınması və onlar baş verdiyi halda müvafiq fəaliyyətin həyata keçirilməsi, həmçinin fərdi təhlükəsizliyin təmin olunması üçün lazımi bilik və bacarıqların aşılanması ilə bağlı kompleks fəaliyyətdir. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinin formalaşmasında maarifləndirmə mühüm rol oynayır. İnformasiya texnologiyalarının yüksək sürətlə inkişafı və dəyişməsi ona bağlı informasiya təhlükəsizliyi tələblərinin daim təkmilləşdirilməsinə ehtiyac yaradır. Qeyd edilən səbəblərdən də intensiv inkişaf və yeniliklər nəzərə alınmaqla, maarifləndirmə tədbirləri mütəmadi olaraq, günün tələblərinə uyğun aparılmalıdır.

Bu baxımdan informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinin yüksəldilməsinə dair bu Strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində cəmiyyətdə informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyəti üzrə zəruri biliklər, bacarıqlar artırılacaq, informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyəti təmin ediləcəkdir.

### 6.9. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizliklə bağlı ölkədaxili və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi

İnformasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin olunması üçün milli və beynəlxalq səviyyədə əməkdaşlıq mühüm rol oynayır. Ölkədə informasiya təhlükəsizliyinə və kibertəhlükəsizliyə məsul olan dövlət orqanlarının (qurumların) və maraqlı tərəflərin bütün məsələlər, o cümlədən hüquqi-təşkilati, texniki-texnoloji, maarifləndirmə və məlumatlandırılma, baş verən hadisələrə qarşı əlaqəli fəaliyyət kimi məsələlər üzrə əməkdaşlığının təşkili informasiya təhlükəsizliyinin təmin edilməsində vacib amillərdəndir. Həmçinin kibertəhlükəsizlik məsələlərinin qlobal xarakterini nəzərə alaraq, bu məsələlər üzrə beynəlxalq səviyyədə də əməkdaşlıq günün tələbidir. Ölkədaxili və beynəlxalq əməkdaşlıq informasiya təhlükəsizliyinin, həmçinin kibertəhlükəsizliyin təmin edilməsinə ciddi zəmin yaradır.

İnformasiya təhlükəsizliyi üzrə əməkdaşlıq informasiya təhlükəsizliyinin subyektləri olan səlahiyyətli orqanlar (qurumlar), CERT-lər, özəl sektor və digər maraqlı tərəflər, o cümlədən fərdi istifadəçilər arasında təşkil edilir. Özəl sektor bir sıra kritik infrastrukturun sahibləri olmaqla yanaşı, həm milli informasiya təhlükəsizliyinin təmin olunmasına məsuliyyət daşıyır, həm də bu sahədə mühüm hüquq və vəzifələrə malikdir. Qeyd edilən səbəblərdən özəl sektor öz fəaliyyətinin təşkilində, dövlət qurumlarına və insanlara müxtəlif İKT xidmətlərinin göstərilməsində, İKT məhsulların təchizatında, İKT ilə əlaqəli digər işlərin görülməsində informasiya təhlükəsizliyi tələblərinə riayət etməlidir.

Bu baxımdan informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə ölkədaxili və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinə dair bu Strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində dövlət orqanları (qurumları), özəl sektor və vətəndaş cəmiyyəti institutları arasında, habelə informasiya təhlükəsizliyini idarəetmə sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq inkişaf edəcəkdir.

## 7. Maliyyələşdirmə mexanizmləri

Strategiyada nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi büdcə təşkilatları üçün onların saxlanılması məqsədilə Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulan vəsaitdən və qanunla qadağan edilməyən digər mənbələrdən həyata keçirilir.

Təsərrüfathesablı qurumların, özəl qurumların Strategiyada nəzərdə tutulan tədbirlərdə iştirakı həmin qurumların vəsaiti hesabına və qanunla qadağan edilməyən digər mənbələrdən maliyyələşir.

*Ardı 12-ci səh.*

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası

*Əvvəli 11-ci səh.*

**8. "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün strategiyası"nın həyata keçirilməsi ilə bağlı tədbirlər planı**

| Tədbirlər | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|
| | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **8.1. Prioritet 1. Təhdidlərin müəyyənləşdirilməsi və risklərin idarəedilməsi** | | | | | | |
| **8.1.1. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik riskləri reyestrinin formalaşdırılmasının və aparılmasının təşkili** | | | | | | |
| 8.1.1.1. İnformasiya məkanında informasiya təhlükəsizliyinə və kibertəhlükəsizliyə təhdidlərin kateqoriyalarını müəyyən etmək və təsnifatlaşdırmaq | XRİTDX | DTX, RİNN, DİN, MN | 2023 – 2024 | Təhdidlərin analiz olunması | Kateqoriyaların təyin olunması | Təhdidlərin təsnifatlaşdırılması |
| 8.1.1.2. İnformasiya məkanında informasiya təhlükəsizliyinə və kibertəhlükəsizliyə təhdidlərin qarşısının alınması fəaliyyətinin səmərəli təşkili məqsədilə informasiya təhlükəsizliyi riskləri reyestrinin aparılma qaydasını müəyyən etmək | NK | XRİTDX, RİNN, DTX | 2023 – 2024 | İnformasiya təhlükəsizliyi riskləri reyestrinin aparılma qaydasının hazırlanması | İnformasiya təhlükəsizliyi riskləri reyestrinin aparılma qaydasının razılaşdırılması | İnformasiya təhlükəsizliyi riskləri reyestrinin aparılma qaydasının təsdiq edilməsi |
| 8.1.1.3. İnformasiya təhlükəsizliyi üzrə yarana biləcək təhdidlərin və risklərin əvvəlcədən müəyyən edilməsi və görülməli tədbirləri proqnozlaşdırmaq məqsədilə süni intellekt əsaslı həllərin işlənib hazırlanmasını və tətbiqini təşkil etmək | XRİTDX | DTX, RİNN, ETN | 2023 – 2027 | Sahə üzrə müasir texnologiya və həllərin tədqiq edilməsi | Tətbiq sahələrinin öyrənilməsi | Süni intellekt əsaslı həllərin işlənib hazırlanması və tətbiq edilməsi |
| **8.1.2. İnformasiya təcavüzünə və həqiqətlərin təhrif edilməsinə, milli dəyərlərin pozulmasına aid təhdidlərin (bu bənd üzrə bundan sonra – müvafiq sahələrə aid təhdidlər) qarşısını ala bilən müasir texnologiyaların (o cümlədən süni intellektə əsaslanan texnologiyaların) hazırlanması ilə bağlı fəaliyyətin gücləndirilməsi** | | | | | | |
| 8.1.2.1. Müvafiq sahələrə aid təhdidlərdə istifadəsi ehtimal olunan, belə təhdidlərin qarşısını ala bilən müasir texnologiyaların (xüsusən süni intellekt, qeyri-səlis məntiqvə s.) hazırlanmasını, tədqiq və tədris olunmasını, təlimlərin keçirilməsini təşkil etmək | XRİTDX | RİNN, DTX, DİN, MdN | müntəzəm | Müvafiq sahə üzrə müasir texnologiya və həllərin tədqiqi | Tətbiq sahələrinin öyrənilməsi | Müasir texnologiyaların hazırlanması, tədqiq və tədris olunması, təlimlərin keçirilməsi |
| 8.1.2.2. Kiberməkanda informasiya-psixoloji ekspansiyaların, radikal dini təşkilatların fərdi və ictimai təfəkkürə destruktiv informasiya təsirlərinin qarşısının alınması və qabaqlayıcı tədbirlər üzrə hüquqi, təşkilati və texnoloji mexanizmlərin müasir texnologiyalar vasitəsilə təkmilləşdirilməsi üçün təkliflər vermək və tətbiqini təşkil etmək | DTX | DİN, RİNN | mütəmadi | Müvafiq sahə üzrə müasir texnologiya və həllərin tədqiqi | Praktik adaptasiya imkanlarının araşdırılması | Müasir texnologiyalar vasitəsilə təkmilləşdirilmiş mexanizmlərin tətbiqi ilə bağlı tədbirlər görülməsi |
| **8.2. Prioritet 2. İnformasiya təhlükəsizliyi hadisələrinin aşkarlanması tədbirlərinin və mühafizə texnologiyalarının gücləndirilməsi** | | | | | | |
| **8.2.1. İnformasiya təhlükəsizliyi hadisələrinin monitorinqinin, insidentləri və kritik halları aşkarlama meyarlarının müəyyən edilməsi və tətbiqinin təmin olunması** | | | | | | |
| 8.2.1.1. İnformasiya təhlükəsizliyi hadisələrinin monitorinqi üçün insidentləri və kritik halları aşkarlama, ölçmə meyarlarını və indikatorlarını müəyyən etmək | RİNN | DTX, XRİTDX, DİN, MN, ETN, VXSİDA | 2023 – 2024 | Sahə üzrə beynəlxalq təcrübənin öyrənilməsi | Yerli ekosistemə uyğun təcrübənin tətbiqi imkanlarının araşdırılması | Aşkarlama, ölçmə meyarları və indikatorlarının müəyyən edilməsi |
| 8.2.1.2. Kritik informasiya infrastrukturlarında informasiya təhlükəsizliyi üzrə əməliyyat mərkəzləri üçün fəaliyyətin təşkili üzrə metodiki sənədləri hazırlamaq, informasiya təhlükəsizliyi hadisələrinin monitorinqinə dair xidmətlərin tətbiqinə, informasiya təhlükəsizliyi üzrə əməliyyat mərkəzinin (informasiya təhlükəsizliyi struktur vahidinin) formalaşdırılmasına təşkilati dəstək vermək | DTX | XRİTDX | müntəzəm | Aşkar edilən insidentlərin kateqoriyalar üzrə analiz edilməsi | Fəaliyyətin təşkili üzrə metodiki sənədlərə dair meyarların müəyyənləşdirilməsi | Fəaliyyətin təşkili üzrə metodiki sənədlərin hazırlanması və informasiya təhlükəsizliyi hadisələrinin monitorinqinə dair xidmətlərin tətbiqinə və müvafiq informasiya təhlükəsizliyi struktur vahidinin formalaşdırılmasına təşkilati dəstək verilməsi |
| 8.2.1.3. Milli CERT-in potensialının gücləndirilməsi üçün tədbirlər görmək, bununla əlaqədar təhlükəsizlik üzrə əməliyyat mərkəzinin yaradılmasını təmin etmək | RİNN | XRİTDX, DTX, DİN, MN | 2023 – 2025 | Milli CERT-**in fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik üzrə əməliyyat mərkəzi üçün texniki imkanların və tələblərin müəyyənləşdirilməsi** | Təhlükəsizlik üzrə əməliyyat mərkəzinin fəaliyyəti üçün təşkilati tədbirlər görülməsi | Təhlükəsizlik üzrə əməliyyat mərkəzinin yaradılması və fəaliyyətə başlaması |
| 8.2.1.4. Milli CERT və digər CERT-lər arasında vahid məlumatlandırma mexanizmlərini müəyyən etmək və tətbiqinə dəstək vermək | RİNN | XRİTDX, DTX | 2023 – 2024 | Qabaqcıl təcrübənin öyrənilməsi | Vahid məlumatlandırma mexanizminin müəyyənləşdirilməsi | Vahid məlumatlandırma mexanizminin tətbiqi |
| **8.2.2. İnformasiya mühafizəsinin texniki, kriptoqrafik, proqram və digər vasitələri üzrə təminatının təkmilləşdirilməsi və bu sahədə yerli istehsalçıların inkişafına dəstək verilməsi** | | | | | | |
| 8.2.2.1. İnformasiya mühafizəsi təminatının təkmilləşdirilməsi və bu sahədə yerli istehsalçıların inkişafına dəstək verilməsi məqsədilə informasiya mühafizəsi vasitələrinin təchizatı və istehsalı ilə bağlı prioritet fəaliyyət sahələrini müəyyən etmək | İN | XRİTDX, RİNN, DTX | mütəmadi | Ehtiyac meyarlarının müəyyənləşdirilməsi | Prioritet sahələrin müəyyənləşdirilməsi | İnformasiya mühafizəsi təminatının təkmilləşdirilməsi və bu sahədə yerli istehsalçıların inkişafına dəstək verilməsi |
| 8.2.2.2. İnformasiya mühafizəsi vasitələrinin yerli istehsalçılarının stimullaşdırılması məqsədilə təkliflər hazırlamaq | NK | İN, XRİTDX, RİNN, DTX | mütəmadi | Ehtiyac sahələrinin müəyyənləşdirilməsi | Prioritet sahələrin seçilməsi | Seçilmiş prioritet sahələr üzrə layihələrin həyata keçirilməsi ilə bağlı təkliflər hazırlanması |
| 8.2.2.3. İnformasiya mühafizəsi vasitələri istehsalının, milli rəqəmsal iqtisadiyyatın, xüsusilə proqram mühəndisliyinin inkişafına təşkilati və elmi dəstək vermək | DTX | ETN, XRİTDX, RİNN, ASK | mütəmadi | Ehtiyac sahələrinin müəyyənləşdirilməsi | Prioritet sahələrin seçilməsi | Layihələrin həyata keçirilməsinə təşkilati və elmi dəstək verilməsi |
| 8.2.2.4. İnformasiya mühafizəsi sahəsində yerli istehsalın inkişafı məqsədilə kriptoqrafik mühafizə sahəsində milli resursların hazırlanması üçün tədbirlər görmək | DTX | XRİTDX, AMEA | 2023 – 2024 | Ehtiyac sahələrinin müəyyənləşdirilməsi | Sahə üzrə qabaqcıl təcrübələrin öyrənilməsi | Müvafiq sahədə milli resursların hazırlanması |
| **8.2.3. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində startapların fəaliyyətinin genişləndirilməsi** | | | | | | |
| 8.2.3.1. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində innovativ həllərin tətbiqinin və startapların fəaliyyətinin təşviqi, yeni məhsulların və xidmətlərin yaradılmasına, işlənilməsinə və bazara çıxarılmasına dəstək vermək | RİNN | İN, ETN, XKX, DTX, VXSİDA | mütəmadi | Startapların fəaliyyətinin təşviqi üçün təkliflər hazırlanması, dəstək imkanları və vasitələrinin müəyyən olunması | Akselarasiya proqramlarının işlənilməsi, dəstək imkanları və vasitələrinin açıqlanması | Təklif və proqramların həyata keçirilməsi, seçilmiş həll və startap fəaliyyətinin dəstəklənməsi |
| 8.2.3.2. İnformasiya təhlükəsizliyi üzrə texnologiyaların hazırlanması, həmçinin istehsalı üçün vergi və digər icbari ödənişlərə dair güzəştlərin müəyyən edilməsi ilə bağlı təkliflər vermək | NK | İN, RİNN, DGK, ƏƏSMN, ƏN | 2024 | Beynəlxalq təcrübənin öyrənilməsi | Müvafiq fəaliyyət üzrə vergi və digər icbari ödənişlərlə əlaqədar güzəştlərin müəyyən edilməsi ilə bağlı təkliflərin hazırlanması | Müvafiq fəaliyyət üzrə vergi və digər icbari ödənişlərlə əlaqədar güzəştlərin müəyyən edilməsi ilə bağlı təkliflərin təqdim olunması |
| **8.3. Prioritet 3. İnformasiya məkanının informasiya təhlükəsizliyinin təmin olunması səviyyəsinin yüksəldilməsi** | | | | | | |
| **8.3.1. İKT xidmət subyektlərində fəaliyyətin təkmilləşdirilməsi** | | | | | | |
| 8.3.1.1. İnformasiya xidməti, elektron xidmət və texniki xidmət subyektlərində və onların fəaliyyəti üzrə müvafiq obyektlərdə informasiya təhlükəsizliyinin təmin edilməsi fəaliyyətinin standartlara və qabaqcıl təcrübəyə uyğun formalaşdırılmasını təşviq etmək | RİNN | XRİTDX, İN, ASİ, VXSİDA | müntəzəm | Müvafiq sahə üzrə standartların və qabaqcıl təcrübənin öyrənilməsi | Təşviqat materiallarının hazırlanması və təşviqat işlərinin həyata keçirilməsi | Müvafiq təlimlər keçirilməsi |
| 8.3.1.2. İnformasiya məkanının və onun ayrı-ayrı seqmentlərinin, xüsusən də fərdi məlumatlar üzrə seqmentinin informasiya təhlükəsizliyinin təmin olunma səviyyəsinin ölçülməsinə, qiymətləndirilməsinə və təhlilinə aid mexanizmlər hazırlamaq və tətbiq etmək | RİNN | XRİTDX, VXSİDA, DTX | müntəzəm | Müvafiq sahədə informasiya təhlükəsizliyinin təmin olunma səviyyəsinin mövcud vəziyyətinin öyrənilməsi | İnformasiya təhlükəsizliyinin ölçülməsinə, qiymətləndirilməsinə və təhlilinə aid mexanizmlərin hazırlanması | Müvafiq qiymətləndirmələrin və təhlillərin səmərəli mexanizmlər əsasında həyata keçirilməsi |
| **8.3.2. "Ağıllı" sistemlərin təhlükəsizliyinin təkmilləşdirilməsi** | | | | | | |
| 8.3.2.1. "Ağıllı" sistemlərin (dronlar, pilotsuz aparatlar, humanoidlər, robotlar və s.) yaradılmasına, tətbiqinə və utilizasiyasına aid təhlükəsizlik tələblərini müəyyən etmək | RİNN | XRİTDX, DTX, ETN | 2023 – 2025 | Sahə üzrə qabaqcıl təcrübənin öyrənilməsi | Məsələ ilə əlaqədar təkliflərin hazırlanması | Təhlükəsizlik tələblərinin müəyyən edilməsi |
| 8.3.2.2. "Ağıllı" sistemlərin yaradılmasına, tətbiqinə və utilizasiyasına aid elmi, texnoloji, hüquqi və s. məsələlərin kompleks həlli üçün təkliflər vermək | RİNN | XRİTDX, DTX, ETN | 2024 – 2027 | Sahə üzrə qabaqcıl təcrübənin öyrənilməsi | Müxtəlif həllərin tətbiqi imkanlarının tədqiqi | "Ağıllı" sistemlərin yaradılması, tətbiqi və utilizasiyası üzrə fəaliyyətin səmərəli təşkilinin təmin edilməsi |
| **8.3.3. Mediada, o cümlədən milli rəqəmsal efir məkanında informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyin davamlı təkmilləşdirilməsi** | | | | | | |
| 8.3.3.1. Milli rəqəmsal efir məkanının (simsiz şəbəkə və yeni nəsil rabitə texnologiyaları və s.) kibertəhlükəsizliyinə təşkilati və texnoloji dəstək vermək | RİNN | AŞ, ETN, DTX, XRİTDX | mütəmadi | Sahə üzrə qabaqcıl təcrübənin öyrənilməsi | Rəqəmsal efir məkanına təhdidlərin qiymətləndirilməsi | Milli rəqəmsal efir məkanının kibertəhlükəsizliyinin gücləndirilməsi |
| 8.3.3.2. Audiovizual və onlayn media vasitələrinin informasiya təhlükəsizliyinə təşkilati və texnoloji dəstək vermək | RİNN | AŞ, ETN, DTX, XRİTDX | mütəmadi | Sahə üzrə qabaqcıl təcrübənin öyrənilməsi | Təhdidlərin qiymətləndirilməsi | Audiovizual və onlayn media vasitələrinin informasiya təhlükəsizliyinin gücləndirilməsi |
| 8.3.3.3. Milli rəqəmsal efir məkanı üçün minimal kibertəhlükəsizlik tələblərini müəyyən etmək və onların icrasına nəzarət mexanizmlərini yaratmaq | RİNN | AŞ, ETN, DTX, XRİTDX | 2023 | Sahə üzrə qabaqcıl təcrübənin öyrənilməsi | Tələblərin müəyyənləşdirilməsi | Tələblərin icrasına nəzarət mexanizminin yaradılması |
| **8.4. Prioritet 4. Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi** | | | | | | |
| 8.4.1. Fövqəladə hallarda, müharibə şəraitində kritik informasiya infrastrukturlarının təhlükəsizliyini, kritik informasiya infrastrukturlarının idarə olunmasını təmin etmək üçün təşkilati əsasların yaradılması, risklərin qiymətləndirilməsi və idarə olunması planının hazırlanması | DTX | XRİTDX | 2024 – 2025 | Risklərin reyestrdə toplanmasının təmin edilməsi | Qiymətləndirmənin aparılması | Risklərin idarə olunması üzrə planın hazırlanması |
| 8.4.2. Kritik informasiya infrastrukturlarının insidentlər zamanı bərpa planlarının hazırlanması | DTX | XRİTDX, İnfrastruktur subyektləri | mütəmadi | Təhdidlər və risklərin qiymətləndirilməsi | Müvafiq bərpa planlarının hazırlanmasının təşkil olunması | Bərpa planlarının hazırlanması və təsdiq edilməsi |
| **8.5. Prioritet 5. Kibercinayətkarlığa qarşı mübarizə, o cümlədən kiberkriminalistika sahəsində fəaliyyətin gücləndirilməsi** | | | | | | |
| 8.5.1. "Kibercinayətlər" elektron informasiya sistemini formalaşdırmaq və bu sistemə səlahiyyətli qurumların çıxışının təmin edilməsi ilə bağlı təkliflər hazırlamaq | NK | DİN, DTX, BP (tövsiyə olunur), XRİTDX, RİNN, VXSİDA | 2023 – 2024 | İnformasiya sisteminin operatorunun müəyyən olunması, texniki şərtin hazırlanması | İnformasiya sisteminin texniki şərti və səlahiyyətlərin müvafiq qurumlarla razılaşdırılması | Sistemin operatoru tərəfindən sistemin yaradılması və fəaliyyətinin təşkili |
| 8.5.2. Kibercinayətkarlıq və ona qarşı mübarizə sahəsində müvafiq ölçmə mexanizmlərini formalaşdırmaq və bu sahədə mütəmadi qiymətləndirməni həyata keçirmək | DTX | DİN, XRİTDX, BP (tövsiyə olunur), ƏN | mütəmadi | Sahə üzrə qabaqcıl təcrübənin öyrənilməsi | Ölçmə mexanizmlərinin formalaşdırılması | Qiymətləndirmənin aparılması |
| 8.5.3. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində cinayətlərin aşkarlanması, sübutların toplanılması, cinayət işlərinin istintaqının aparılması üçün texniki imkanların genişləndirilməsini təşkil etmək | DTX | DİN, XRİTDX, BP (tövsiyə olunur), ƏN | mütəmadi | Sahə üzrə qabaqcıl təcrübənin öyrənilməsi | Texniki imkanların tədqiqi və araşdırılması | Texniki imkanların genişləndirilməsi |
| 8.5.4. Hüquq-mühafizə orqanlarının aidiyyəti əməkdaşları, mütəxəssisləri üçün kibercinayətlərin aşkar olunması və istintaqı üzrə təlimlərin keçirilməsini təşkil etmək | DTX | DİN, BP (tövsiyə olunur), ƏN, XRİTDX | mütəmadi | Sahə üzrə qabaqcıl təcrübənin öyrənilməsi | Təlimçilər üçün təlimlərin təşkil edilməsi | Təlimçilər vasitəsilə davamlı təlimlər keçirilməsi |
| 8.5.5. Hüquq-mühafizə orqanları ilə informasiya sistemlərinin operatorları, telekommunikasiya operatorları və provayderlər arasında kibertəhlükəsizlik sahəsində əməkdaşlığı gücləndirmək | RİNN | DİN, DTX, BP (tövsiyə olunur), XRİTDX | mütəmadi | Hüquq-mühafizə orqanları ilə əməkdaşlığa ehtiyacı olan informasiya sistemləri operatorlarının, telekommunikasiya operatorlarının və provayderlərin müəyyənləşdirilməsi | Sahə üzrə əlaqədar cavabdeh şəxslərin müəyyənləşdirilməsi | Əməkdaşlıq və koordinasiyanın təmin edilməsi |

*Ardı 13-cü səh.*

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası

*Əvvəli 12-ci səh.*

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **8.6. Prioritet 6. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində potensialın gücləndirilməsi, institusional bazanın inkişaf etdirilməsi** | | | | | | |
| **8.6.1. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində elmi tədqiqat və layihə-təcrübə işlərinin aparılmasına təşkilati dəstək verilməsi** | | | | | | |
| 8.6.1.1. İnformasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin edilməsi üçün tələbat olan sahələrdə yeni laboratoriyaların yaradılmasına, mövcud olanların təkmilləşdirilməsinə təşkilati dəstək vermək | XRİTDX | ETN, RİNN, DTX | mütəmadi | Prioritet olan sahələrin müəyyənləşdirilməsi | Müvafiq sahələrdə yeni laboratoriyaların yaradılması, mövcud olanların təkmilləşdirilməsi üzrə ehtiyacların qiymətləndirilməsi | Yeni laboratoriyaların yaradılması və mövcud olanların təkmilləşdirilməsi |
| 8.6.1.2. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində elmi-tədqiqat və layihə-təcrübə işləri sırasından prioritet mövzuların tətbiqi üçün seçilməsini təşkil etmək | ETN | RİNN, XRİTDX, DTX | mütəmadi | Prioritet mövzuların müəyyənləşdirilməsi | Həmin mövzular üzrə elmi tədqiqat və layihə-təcrübə işlərinin keyfiyyətinin artırılması | İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində potensialın gücləndirilməsi |
| 8.6.1.3. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində xarici ölkələrin elmi mərkəzləri ilə əməkdaşlığın genişləndirilməsinə, birgə elmi-tədqiqat layihələrinin həyata keçirilməsinə, beynəlxalq seminar və konfranslarda iştirakın təmin edilməsinə təşkilati dəstək vermək | ETN | DTX, XİN, XRİTDX, RİNN | mütəmadi | İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində xarici ölkələrin qabaqcıl elmi mərkəzlərinin müəyyənləşdirilməsi | Birgə elmi tədqiqat layihələrinə başlanılması | Müvafiq sahədə xarici ölkələrin elmi mərkəzləri ilə əməkdaşlığın genişləndirilməsi |
| 8.6.1.4. Kriptoqrafiyanın əsaslarının dərindən öyrənilməsini, bu sahədə elmi tədqiqatların aparılmasını, milli kriptoqrafik alqoritmin tətbiq olunduğu informasiyanın kriptoqrafik mühafizə vasitələrinin layihələndirilməsini və təkmilləşdirilməsini təmin edəcək yüksəkixtisaslı kadrların və səriştəli mütəxəssislərin hazırlanmasını təşkil etmək | DTX | XRİTDX, ETN | 2023 – 2024 | Sahə üzrə siyasət və prioritetlərin müəyyənləşdirilməsi | Fəaliyyət planının hazırlanması | Yüksəkixtisaslı və səriştəli mütəxəssislərin hazırlanması |
| **8.6.2. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə fəaliyyət üçün kompetensiya (bilik, bacarıq və səriştə) tələbatları, tədris və təlim proqramları, maarifləndirmə materialları bazasının formalaşdırılması və aktuallığının davamlı təmin olunması** | | | | | | |
| 8.6.2.1. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə fəaliyyət üçün zəruri olan kompetensiyalara (bilik, bacarıq və səriştə) aid tələbatların mütəmadi öyrənilməsini, adekvat perspektivli ixtisasların müəyyən olunmasını təşkil etmək | ETN | RİNN, XRİTDX, DTX, ƏƏSMN | mütəmadi | Sahə üzrə daim artan tələbatların müəyyənləşdirilməsi | Yeni kompetensiyaların (bilik, bacarıq və səriştə) siyahısının və mövcud çatışmazlıqlar üzrə priortitetlərin müəyyənləşdirilməsi | Yeni kompetensiyalara (bilik, bacarıq və səriştə) uyğun ixtisasların müəyyən edilməsi və təkliflər verilməsi |
| 8.6.2.2. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə kompetensiyalar (bilik, bacarıq və səriştə) və ixtisaslar üçün zəruri olan kvalifikasiyaya aid tələbatların, ixtisas növləri, təhsil pillələri üzrə müvafiq tədris və təlim, habelə ixtisasartırma proqramlarının müəyyən edilməsi, bu proqramların texnologiyaların inkişaf istiqamətlərinə uyğun perspektivli olması və səmərəsinin davamlı yüksəldilməsi üçün tövsiyə, təklif və təşkilati dəstək vermək | NK | ETN, RİNN, XRİTDX, DTX, ƏƏSMN | mütəmadi | Sahə üzrə tədrisin texnoloji yeniliklərə və tələblərə uyğunluğunun ölçülməsi | Ölçü nəticəsində müəyyən edilən çatışmazlıqlar üzrə prioritetlərin müəyyənləşdirilməsi | Tədrisin texnoloji yeniliklərə və tələblərə uyğunluğunun davamlı təmin edilməsi üçün təkmilləşdirmə işlərinin həyata keçirilməsi |
| **8.6.3. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə kadr hazırlığının və ixtisaslaşmış struktur bölmələrin müvafiq kadrlarla təminatının gücləndirilməsi** | | | | | | |
| 8.6.3.1. Dövlət orqanlarında (qurumlarında) informasiya təhlükəsizliyi üzrə ixtisaslaşmış struktur bölmələrin yaradılması və onların müvafiq kadrlarla təminatının planlaşdırılması ilə bağlı təkliflər hazırlamaq | DTX | XRİTDX, ƏƏSMN, DİM, RİNN, ETN, MN | 2024 | Qurumlardan sahə üzrə kadr ehtiyacları haqqında məlumatların toplanması | Kadr təminatı üçün planlı yanaşmanın tətbiqinin araşdırılması | İxtisaslaşmış struktur bölmələrin yaradılması və onların müvafiq kadrlarla təminatı ilə bağlı təkliflərin hazırlanması |
| 8.6.3.2. İnformasiya təhlükəsizliyi üzrə mütəxəssislərin əməyinin stimullaşdırılması üçün təkliflər vermək | XRİTDX | RİNN, MN, ƏƏSMN, DTX, ETN | 2023 – 2024 | Sahə üzrə əməyin qiymətləndirilməsinin özəl və dövlət qurumlarında müqayisəli təhlilinin aparılması | Qurumlarda sahə üzrə əməyin stimullaşdırılması üçün müvafiq mexanizmlərin hazırlanması | İxtisaslı kadrların əməyinin stimullaşdırılması |
| **8.6.4. İnformasiya təhlükəsizliyi üzrə kadr hazırlığında təhsil müəssisələri ilə dövlət və özəl sektor arasında əməkdaşlığın genişləndirilməsi** | | | | | | |
| 8.6.4.1. İnformasiya təhlükəsizliyi üzrə mütəxəssislərin tədris prosesinə cəlb olunması və tələbələrin təcrübə keçmələrinə şərait yaradılmasını təmin etmək | ETN | RİNN, DTX, XRİTDX, MN | mütəmadi | Sahə üzrə təcrübə imkanlarının araşdırılması | Təcrübə proqramları üçün əməkdaşlığın qurulması | Mütəxəssislərin tədris prosesinə cəlbi və təcrübə imkanlarının genişləndirilməsi |
| 8.6.4.2. Xarici ölkələrin qabaqcıl universitetlərində, elmi mərkəzlərində informasiya texnologiyaları və informasiya təhlükəsizliyi üzrə ölkə üçün mütəxəssis hazırlığına dəstək vermək | ETN | RİNN, DTX | mütəmadi | Xaricdə təhsilin müvafiq sahələrinin araşdırılması | Mütəxəssis hazırlığı ilə bağlı müvafiq proqramların seçilərək təşviq edilməsi | Xaricdə sahə üzrə mütəxəssis hazırlığına dəstək verilməsi |
| 8.6.4.3. İnformasiya təhlükəsizliyi sahəsində kadr hazırlığını təmin edən təhsil müəssisələri ilə, eləcə də informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə beynəlxalq və yerli şirkətlərlə birgə laboratoriyalar formalaşdırmaq | İN | DTX, ETN, RİNN, XRİTDX, XİN | 2023 – 2027 | Sahə üzrə tələblər nəzərə alınmaqla təkliflər hazırlanması | Beynəlxalq və yerli şirkətlərin təkliflərə uyğun laboratoriyaların formalaşdırılmasına cəlb edilməsi | Müvafiq laboratoriyaların formalaşdırılması |
| 8.6.4.4. İnformasiya təhlükəsizliyi üzrə ixtisaslaşan yeniyetmə və gənclərə hüquqi və texniki yardım göstərilməsi, istedadlı şəxslərə dəstək verilməsi ilə bağlı tədbirlər görmək | RİNN | DTX, ETN, XRİTDX | mütəmadi | Sahə üzrə biliklər bazasının toplanması | Prioritetlərin seçilməsi | Müvafiq onlayn maarifləndirmə, məsləhət xidmətlərinin formalaşdırılması, dəstək verilməsi işlərinin həyata keçirilməsi |
| **8.7. Prioritet 7. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində normativ bazanın təkmilləşdirilməsi** | | | | | | |
| 8.7.1. Fərdi məlumatların işlənməsi və mühafizəsi sahəsində normativ hüquqi bazanın beynəlxalq təcrübə əsas götürülməklə təkmilləşdirilməsi | NK | RİNN, DTX, XRİTDX, DİN, ƏN | mütəmadi | Sahə üzrə beynəlxalq təcrübənin öyrənilməsi | Müvafiq təkliflərin təqdim olunması | Müvafiq sahədə normativ hüquqi bazanın təkmilləşdirilməsi |
| 8.7.2. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində qabaqcıl beynəlxalq hüquqi və texniki normativ alətləri, praktiki tövsiyələri təşviq etmək, milli standartların davamlı təkmilləşdirilməsinə dəstək vermək | RİNN | DTX, XRİTDX, ETN İN | mütəmadi | Ölkədə beynəlxalq standartların tətbiq olunması, milli standartların aktuallıq vəziyyətlərinin, problemlərin və tələbatların mütəmadi araşdırılması | Ölkədə beynəlxalq standartların tətbiqinə, milli standartlar bazasının genişlənməsinə aid təkliflər verilməsi | Təşkilati və metodiki tövsiyələrin verilməsi, icmalın dərc olunması |
| **8.8. Prioritet 8. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinin yüksəldilməsi** | | | | | | |
| **8.8.1. Cəmiyyətdə informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyəti üzrə zəruri biliklərin, bacarıqların artırılmasına və təbliğinə dəstək verilməsi** | | | | | | |
| 8.8.1.1. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə maarifləndirmə tədbirlərinin keçirilməsini təşkil etmək, o cümlədən bu barədə televiziya proqramları, videoçarxlar hazırlamaq və nümayiş etdirmək, informasiya təhlükəsizliyi və kibercinayətkarlığa qarşı ictimai mübarizə üsulları və bu üsullardan istifadə barədə cəmiyyətin, fərdlərin bilik səviyyəsini yüksəltmək | RİNN | ETN, DTX, XRİTDX | mütəmadi | Maarifləndirmə tədbirlərinin qiymətləndirilməsi | Maarifləndirmə tədbirlərinin intensivləşdirilməsi | Müvafiq sahədə zəruri bilik və bacarıqların səviyyəsinin yüksəldilməsi |
| 8.8.1.2. Dövlət orqanlarında (qurumlarında), özəl təşkilatlarda informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətini formalaşdırmaq – kibergigiyenanı təmin etmək məqsədilə tədbirlər görmək | XRİTDX | RİNN, DİM, VXSİDA | 2023 – 2027 | Nümunəvi kibergigiyena pilot layihəsinin həyata keçirilməsi | Kibergigiyenanın əməkdaşlar üçün əhəmiyyətinin təşviq olunması | Dövlət orqanlarında (qurumlarında), özəl sektorda informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinin formalaşdırılması və kibergigiyenanın təmin edilməsi |
| **8.8.2. Uşaqların internetdən təhlükəsiz istifadə imkanlarının möhkəmləndirilməsinə təşkilati dəstək verilməsi** | | | | | | |
| 8.8.2.1. Ailələrin, valideynlərin və uşaqların internetdəki təhlükələr barədə məlumatlandırılması üçün tədbirlər təşkil etmək | AQUPDK | RİNN, ETN, DİN, DTX | mütəmadi | Maarifləndirmə tədbirlərinin hazırlanması | Maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | Maarifləndirmə tədbirlərinin intensivləşdirilməsi |
| 8.8.2.2. "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələrin həyata keçirilməsi məqsədilə milli onlayn məlumatlandırma mərkəzinin yaradılmasını, həmin mərkəzin beynəlxalq şəbəkələrə inteqrasiyasını təmin etmək | AQUPDK | RİNN, ETN | mütəmadi | Milli onlayn məlumatlandırma mərkəzinin yaradılması | Milli onlayn məlumatlandırma mərkəzinin fəaliyyətinin təşviq olunması, beynəlxalq şəbəkələrə inteqrasiyasının təmin edilməsi | Uşaqların zərərli informasiyadan qorunmasının təmin edilməsi |
| 8.8.2.3. Təhsilin bütün səviyyələrində kibertəhlükəsizlik üzrə təhsil modulları hazırlamaq, eləcə də internetdə təhlükələr barədə materialları tədris resurslarına daxil etmək | ETN | RİNN, DTX | mütəmadi | Təhsilin bütün səviyyələrinə uyğun sahə üzrə materialların yaradılması | Yaradılmış materialların tədris resurslarına daxil edilməsi | Bu materialların mütəmadi yenilənməsinin həyata keçirilməsi |
| **8.9. Prioritet 9. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə ölkədaxili və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi** | | | | | | |
| **8.9.1. Dövlət orqanları (qurumları), özəl sektor və vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlığın inkişaf etdirilməsi** | | | | | | |
| 8.9.1.1. İnformasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin olunması, o cümlədən insidentlərə qarşı tədbirlər görülməsi üçün dövlət orqanları (qurumları), özəl sektor və vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlıq formalarını müəyyən etmək və onların hüquqi əsasını yaratmaq | XRİTDX | RİNN, DTX, DİN | 2023 – 2024 | Əməkdaşlığın müxtəlif formalarının effektivliyinin araşdırılması | Uyğun əməkdaşlıq formalarının seçilməsi | Əməkdaşlığın hüquqi əsasının yaradılması |
| 8.9.1.2. Təhdidləri qiymətləndirmə və həlli yollarını müəyyənetmə sahəsində dövlət–özəl koordinasiya və məsləhətləşmə platformalarını yaratmaq və onların inkişafına dəstək vermək | RİNN | DTX, DİN | 2023 – 2024 | Sahə üzrə müxtəlif koordinasiya və məsləhətləşmə platformalarının yaradılması | Müxtəlif mövzuların bu platformalarda müzakirələrə çıxarılması | Platformaların effektivliyinin ölçülməsi, inkişafına dəstək verilməsi |
| 8.9.1.3. Ölkə səviyyəsində kibertəhlükəsizliklə bağlı (təhdidlər, boşluqlar, risklərvə s. barədə) informasiya mübadiləsi və qarşılıqlı əməkdaşlıq sahəsində əlaqələndirməni həyata keçirmək, təhdidlərə və hücumlara qarşı erkən xəbərdarlıq, cavabvermə imkanlarını formalaşdırmaq | RİNN | DTX, DİN, XRİTDX | müntəzəm | Təhdidlər, boşluqlar, risklər və s. məlumatların əldə edilməsi və toplanmasının təşkili | Əldə edilən məlumatların bölüşdürülməsi və erkən xəbərvermə mexanizmlərinin yaradılması | Mexanizmlərin avtomatlaşdırılması imkanlarının genişləndirilməsi |
| 8.9.1.4. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində fəaliyyət göstərən qabaqcıl onlayn təlim-tədris platformaları ilə əməkdaşlıq əlaqələri qurmaq | RİNN | XRİTDX, ETN, DİM | mütəmadi | Əməkdaşlığın müxtəlif formalarının effektivliyinin araşdırılması | Pilot layihələrin həyata keçirilməsi | Uğurlu layihələr üzrə əməkdaşlığın davam etdirilməsi |
| **8.9.2. İnformasiya təhlükəsizliyini idarəetmə sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi** | | | | | | |
| 8.9.2.1. Kibercinayətkarlığa qarşı mübarizə üzrə beynəlxalq əməkdaşlığı genişləndirmək, qabaqcıl təcrübənin mənimsənilməsini və bölüşdürülməsini təmin etmək | DTX | DİN, ƏN, RİNN, XRİTDX | mütəmadi | Qabaqcıl təcrübənin və yeniliklərin mənimsənilməsi | Kibercinayətkarlığa qarşı mübarizə təcrübəsinin bölüşdürülməsi | Beynəlxalq əməkdaşlığın genişləndirilməsi |
| 8.9.2.2. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə beynəlxalq təlimlərdə, ekspert görüşlərində və müxtəlif tədbirlərdə mütəxəssislərin iştirakına təşkilati dəstək vermək | RİNN | XRİTDX, MN, DTX, ETN, MB, XKX | mütəmadi | İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə mütəxəssislərlə davamlı əlaqə yaradılması | Qabaqcıl təcrübəyə əsaslanan təlimlərin və görüşlərin kataloqunun yaradılması | Sahə üzrə mütəxəssislərin iştirakına təşkilati dəstək verilməsi |
| 8.9.2.3. İnformasiya təhlükəsizliyi subyektləri, o cümlədən Milli CERT və digər CERT-lər səviyyəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsini, kibertəhlükəsizlik sahəsində beynəlxalq təcrübənin öyrənilməsini təşkil etmək | RİNN | XRİTDX, ETN, DTX, MB | mütəmadi | Beynəlxalq CERT mərkəzləri ilə əməkdaşlığın inkişaf etdirilməsi | Beynəlxalq CERT mərkəzlərinə üzvlüyün təmin edilməsi | Beynəlxalq fəaliyyətdə qarşılıqlı fəaliyyət və təcrübə mübadiləsinin gücləndirilməsi |
| 8.9.2.4. Əhalinin fərdi məlumatlar sahəsində hüquqlarının qorunması üçün beynəlxalq miqyaslı operatorlarla (kontentdaşıyıcılarla) əlaqələr yaratmaq | RİNN | XİN | mütəmadi | Əhalinin fərdi məlumatlar sahəsində hüquqlarının qorunması üçün beynəlxalq miqyaslı operatorların dairəsinin müəyyənləşdirilməsi | Bu sistemlər üzrə cavabdeh şəxslərin müəyyənləşdirilməsinin təmin edilməsi | Beynəlxalq miqyaslı operatorlarla əlaqələrin yaradılması |

## Akronimlər

AQUPDK - Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
ASİ - Azərbaycan Standartlaşdırma İnstitutu
AMEA - Azərbaycan Milli Elmlər Akademiyası
AŞ - Azərbaycan Respublikasının Audiovizual Şurası
ASK - Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası
BP - Azərbaycan Respublikasının Baş Prokurorluğu
DİM - Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi
DİN - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi
DTX - Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti
DGK - Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi
ƏƏSMN - Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
ƏN - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
XRİTDX - Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti
XİN - Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi
XKX - Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti
İN - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
MB - Azərbaycan Respublikasının Mərkəzi Bankı
MN - Azərbaycan Respublikasının Müdafiə Nazirliyi
MdN - Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi
NK - Azərbaycan Respublikasının Nazirlər Kabineti
RİNN - Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
ETN - Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
VXSİDA - Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi

**«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 24 dekabr (Çərşənbə axşamı günü) tarixli 72-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Səşənbə, 20 rəbiüləvvəl sənə 1337.
24 kanuni-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rubledir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rubledir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

### Məclisi-Məbusan Rəisi həzrətlərinin əmrnamələri

**Nömrə 11**
Sabiq Şurayi-Milli İdarəsinin müdiri Məhəmməd Səid Axundzadə 1334 sənəsi kanuni-əvvəlin [dekabrın] 15-ci günündən etibarən Məclisi-Məbusan Rəisi həzrətlərinin baş katibi təyin edilir.

**Nömrə 12**
Azərbaycan Məclisi-Məbusan Rəisi baş katibi Məhəmməd Səid Axundzadə 1334 sənəsi kanuni-əvvəlin 16-dan etibarən iki həftəlik məzuniyyətə buraxılır.

**Nömrə 13**
Azərbaycan Hökuməti-Cümhuriyyəsi Səhhəti-Ümumiyyə Nəzarəti [Səhiyyə Nazirliyi] İdarəsinin müdiri Rza bəy Ağasıbəyov həmin 1334 sənəsi kanuni-əvvəlin 15-ci günündən etibarən Azərbaycan Cümhuriyyəsi Məclisi-Məbusan İdarəsinə müdir müavini təyinlə, müdir dəvət edilincəyə qədər müdiriyyət vəzifəsi ona mühəvvəl edilir [tapşırılır].

**Nömrə 14**
Məclisi-Məbusan İdarəsi ləvazim müdiri Mirzəbala Məhəmmədzadə 1334 sənəsi kanuni-əvvəlin 17-dən etibarən Məclisi-Məbusan cəlsələrinin [iclaslarının] məzbətə mühərriri [protokollarının yazan] təyin edilir.

**Nömrə 15**
Bakı şəhəri sakini Əlihüseyn Hüseynov həmin 1334 sənəsi kanuni-əvvəlin 17-ci günündən etibarən Məclisi-Məbusan İdarəsi ləvazim müdiri təyin edilir.

**Nömrə 16**
Azərbaycan Məclisi-Məbusan İdarəsi kargüzarı Mirhüseyn oğlu Mirməcid 1334 sənəsi kanuni-əvvəlin 19-dan etibarən bir həftəlik məzuniyyətə buraxılır.

**Nömrə 17**
Məclisi-Məbusan İdarəsi müqəyyədi (dəftərdarı) Mirfəttah Musəvi həmin 1334 sənəsi kanuni-əvvəlin 17-dən etibarən kəndi istidasına məbni [öz ərizəsinə əsasən] vəzifəsindən əzl [azad] olunur.

**Nömrə 18**
Şuşa şəhəri əhli Camal Paşazadə həmin 1334 sənəsi kanuni-əvvəlin 18-ci günündən etibarən Məclisi-Məbusan İdarəsi müqəyyədliyinə (dəftərdarlığına) təyin edilir.

## VƏZİFƏMİZ NƏDİR?

Erməni-gürcü toqquşması artıq adi müharibə şəklinə girdi deməki caizdir [mümkündür]. Bir tərəfdən erməni qoşunu baş komandanı Dronun Gürcüstan elçisi Mdivaniyə rəsmi surətdə elanı-hərb məhiyyətini haiz olan [daşıyan] təcavüz xəbərdarlığı, digər tərəfdən Gürcüstan Hökumətinin təkrar səfərbərlik elanı və bu yandan dəxi tərəfeyn [hər iki tərəf] qoşununun təm hərb üsuluna müvafiq kamali-şiddət və təhəvvürlə [tamamən şiddət və qəzəblə] vuruşması qarşımızda yeni bir müharibə meydanı açıldığını ələn [açıq-aşkar] isbat etməkdədir.

Deməli, qonşuluğumuzda rəsmi müharibə gedir. Müharibənin gedişini həqiqi və bitərəfanə bir surətdə təsəvvür etmək üçün əlimizdə məlumat olmağı lazım idi. Belə məlumat ki, bu tərəfin də, o tərəfin də əhvalını bizə təsvir edəydi. Halbuki hasil etdiyimiz məlumat ancaq bir tərəfdən gəlir. O biri tərəfin müharibə gedişi xəbərləri bizə çatmır. Doğrudur, gürcü qonşularımız tərəfindən alınan məlumata inanmamağa bizim heç bir haqqımız yoxdur və burası da bizə yəqindir ki, xəbərlərin doğrusunu biz ancaq bu tərəfdən biləcəyik. Lakin, nə tövr olsa da, müharibə zamanında sansur [senzura] hökmünün icrası həqiqəti-halın tamaşasına insanın ancaq bir gözünə müsaidət [icazə] verir.

Müharibənin nədən başlandığını və bu tökülən qanların məsuliyyəti kimin üzərinə düşdüyü məsələsinə hələlik əl vurmayıb da əmri-vaqe [fakt] qarşısında özümüzün nasıl bir vəziyyət alacağımızdan və nə vəzifələrdə bulunacağımızdan bir qədər danışaq.

Həmin məsələ Parlamanımızın fövqəladə iclasında danışılarkən məbus [Parlamentin üzvü] əfəndilərdən Səfikürdski cənabları qonşularımız miyanındakı [arasındakı] bu müharibəni iki qardaş arasına düşən davaya oxşadıb, bizi də bacı misalında qoyub, tələb edirdi ki, bayrağımızı bacı çadrası kimi dava edənlərin arasına atıb, vuruşmanı dayandırmaq üçün var qüvvəmizi sərf edək.

Əlbəttə, vuruşanlar haqqında, vuruşanlardan hər birinin bizə qarşı caiz gördükləri vəziyyət haqqında və bu işlərin nədən nəşət etdiyi [irəli gəldiyi] şərait barəsində hər bir kəsin nəzəriyyatı öz məlumatı və mülahizatı [mülahizələri] əsası üzrə qurulduğundan, mühariblərin [savaşanların] halı və bizim münasibatımız [münasibətlərimiz] hər kəsin xəyalında xüsusi bir şəkildə təcəssüm edəcəyi təbiidir.

Biz isək əhvalı, xəyalımızda bu surətdə təsvir edirik ki, iki qonşu evi od tutub yanmaqdadır. Böylə olan surətdə bizim vəzifəmiz aşkardır. Odun öz evimizə keçməməsi üçün lazım olan tədbirləri görmək və bu möhlik [həlak edici] yanğını basdırmaq və keçirmək üçün əlimizdə olan vasitələrə kamali-əcələ ilə təvəssül edək [sürətlə tədbir görək]. Yəni, genə məbus əfəndilərdən doktor Qara bəyin hüdudumuzun müdafiəsi xüsusundakı sualı, münasibətimizin təyini və ölkəmizin asayişi nöqteyi-nəzərindən daha həqiqi bir yola işarə olduğunu inkar etmək və nəzəri-diqqətə almamaq heç bir vəchlə mümkün deyildir.

Odu hələ indiyə qədər sönməmiş olan aləmşümul [bütün dünyanı əhatə edən] müharibənin ayrı-ayrı vəqələrindən olmaq üzrə, müharibədə qazanmaq üçün sövqülceyş [strateji] hökmü tələbiylə, bitərəf durmaq istəyən dövlətlərin yerindən [ərazisindən] qoşun keçirmək və bitərəf dövlətin əhalisini "qoşun keçidi" nəticəsindən əmələ gələn fəlakətlərə məruz qılmaq kimi hadisələrin vüqusu [baş verməsi] gözümüz önündədir. Bu mülahizə ilə hüdudumuzun və bitərəfliyimizin mühafizəsi üçün birinci tədbir olaraq iş başa qoşmalı, ondan sonra var qüvvəmizi iki qonşunu barışdırmaq yolunda sərf etməliyik.

Raisi-vüzəra [Baş nazir] Fətəli xan cənablarının doktor Qara bəyə verdiyi cavabından Hökumətimizin əvvəl-əvvəl bu işə iqdam etdiyini [girişdiyini] kamali-məmnuniyyətlə eşitdik. Bunu təkrar söyləməkdən məqsədimiz, Parlamanımızın və camaatımızın etibar və etimad etdiyi Hökumətimizə yol göstərmək deyildir. Hökumət öz vəzifəsini bilir; fəqət, Səfikürdski cənablarının iki qardaşı barışdırmaq üçün tezliklə araya soxulmağımızı tələb etməyinə əlavə olmaq üzrə, əvvəlcə evimizi yanğından od düşə bilər ehtimalına qarşı möhkəm surətdə mühafizə etməyə və ondan sonra yanğını keçirməyə yüyürmək borcumuz və vəzifəmiz olduğunu ixtar etməyi [xatırlatmağı] faydadan xali [faydasız; mənasız] görmədik.

*Hacıbəyli Üzeyir*

## QARABAĞ ƏTRAFINDA

21 kanuni-əvvəldə [dekabrda] Daxiliyyə Nəzarətinə Gəncə valisi vəkillərindən böylə bir teleqram göndərilmişdir:

Bu gün Cəbrayıl qəza qaimməqamından [qəza rəisindən] bu məzmunda bir teleqram aldım:

Bu gün Andranik əsgəri qitəatı [hərbi hissələri] yerli erməni dəstələri ilə Dovard kəndini əhatə edib qayda ilə müsəlmanları kəsməyə başlamışlardır. Dovardlılar kömək diləyirlər; çünki kənardan onlara kömək verəmməyirlər – ermənilər hər tərəfdən hücum edirlər. Binagüzarlıq [müraciət], təmənna və rica edirəm. Qaladərəsi yanında iləriki kimi dava davam edir. 781 – Cəbrayıl qəza qaimməqamı Molla Namazəliyev imza etmişdir.

İfadə olunmuş şu teleqrafı məlum etməklə, sizin binagüzarlığınızı [sərəncamınızı] rica edirəm.

*Gəncə valisi Vəkilov,*
*19 kanuni-əvvəl [dekabr].*

## YENİ HÖKUMƏT TƏŞKİLİNƏ DAİR

Srağagün Parlaman Heyəti-rüəsasının [Rəyasət heyətinin] Kabinə təşkili barəsində iclası vaqe olmuşdur. Heyəti-rüəsa, Kabinə təşkilinin təxirə salınmasının böylə mühüm bir zamanda arzu edilməyən hadisələrdən olduğundan dolayı qət etmişdir [qərara almışdır] ki, Fətəli xan Xoyski cənablarına müraciətən özünün şəxsi təsvibi mövcibincə [şəxsi qərarı əsasında], hər kəs tərəfindən olursa-olsun, heç bir şərait və hail [şərt və maneə] qarşısında durmayaraq, tezliklə Kabinə təşkilinə səy etsin.

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**4-cü (fövqəladə) iclas**

*(keçən nömrələrdən mabəd)*

**Qarabağ haqqında**

**Abdulla bəy Əfəndiyev** – Möhtərəm məbusan [millət vəkilləri]! Aləm-şümul müharibə yavaş-yavaş qurtarmağa üz qoyaraq mütarikə [atəşkəs] elan edilən zaman, vətənimiz müharibə yükü altında inləyirdi. Mütarikə, hələ vətənimiz tamamilə bizə qarşı ədavət göstərən tayfalardan təmizlənməmiş elan edildi. Fəqət bununla bərabər millətimiz mütarikə qanununa tabe oldu. Bu fikirlə ki, qonşularımızla həll edilməmiş qalan ixtilaflı məsələlərimizi Sülh Konfransında həll edəriz. Zira böyük millətlərin, Avropanın möhtəşəm əsgəri və texnika qüvvəsi ilə həll edəmmədiyi məsələləri bittəb' [təbii olaraq] biz dəxi silah gücü ilə həll edəmməzdik. Biz böylə zənn etdik ki, qonşularımız da mütarikəyə tabe olacaq və amali-milliyyələrinə [milli məqsədlərinə] tamamilə nail olmamışlarsa, istəkləri bilkülliyyə [büsbütün] əllərinə çatmamışsa, böylə məsələlərin həllini konfransa mühəvvəl edəcəklərdir [tapşıracaqlar].

Məəttəəssüf [təəssüf ki], zənnimiz yanlış çıxdı. Bir qədər keçməmiş ixtilaflı məsələlərin həlli və ümumi sülh konfransında Zaqafqaziya millətlərinin müttəhidən [birgə] fəaliyyətdə bulunaraq istiqlalımızı müttəfiqən [müttəfiq olaraq] müdafiə və mühafizə etmələri üçün zəminə [lazımi şərait] hazırlamaq qəsdiylə [məqsədiylə] gürcü hökumətinin təşəbbüsü ilə Tiflisdə sülh konfransı dəvət edildikdə, erməni hökuməti nümayəndə göndərmədi və konfrans baş tutmadı. Aşkar oldu ki, erməni hökuməti Qafqaziya millətlərinin sülhcuyanə [sülhpərvər] siyasətinə ziddir.

Biz yenə inanırdıq ki, bir qədər danışıqdan sonra saziş hasil olar. Lakin, zənnimiz batil oldu. Son hadisat [hadisələr] göstərir ki, onlar saziş axtarmır, ixtilafı sülhlə yatırmaq istəmirlər. Açıq deyəlim ki, hazırda vaqe olan hadisə, quldur işi olmayıb, ən adi, müəyyən plan üzərinə müəyyən məqsədlə icra edilən bir müharibədən ibarətdir. Sanaindən Qarabağadək bir xətt boyunda dağlar uzunu təcavüz hərəkatı açmaq, adi bir müharibədir. Bunu başlayanlar fürsətdən bilistifadə [istifadə edərək] naili-məram olmaq [məqsədlərinə çatmaq] istəyirlər. Biz böylə hərəkətlər müqabilinə protesto edərək, hökumətimizdən dəxi lazımınca tədbir görməsini, mümkün olan qədər məsələnin sülh təriqi [yolu] ilə həllinə çalışmasını və mümkün olmazsa, sair çarələrə təvəssül qılmasını [əl atmasını] tələb ediriz.

Bəziləri deyirlər ki, hazırda bizim qüvvəmiz yoxdur. Yanlış bir fikirdir. Millət böyük bir qüvvədir. Millət görsə ki, vətən, istiqlal müdafiəsinə qalxışmaq lazımdır, dərhal çetecilər müqabilində [quldurlar qarşısında] Cümhuriyyətimizi müdafiə və mühafizəyə hazırdır. Hökumətimiz millətin böylə hazırlığına istinad edərək, məsələni sülhlə həll etmək mümkün olmazsa, qüvvə müqabilinə qüvvə çıxara bilər.

Son söz hökumətə verilir.

**Fətəli xan** *(natiqlərə cavab verərək)* – Sosialistlərdən birisi nitqində dedi ki, Hökumət gördüyü tədbirlər kafi deyildir. Çünki məsələ bu vaxtadək həll edilib qurtarmamışdır. Əgər kafi dərəcə tədbir görülsəydi, ixtilaf indiyədək sülh təriqi ilə yatırılıb qurtarardı. Fəqət, mən dedim və yenə deyirəm ki, Hökumət bu uğurda çox çalışmışdır. Hələ iyul ayında Azərbaycan Hökuməti qonşu millətlərə müraciətlə təklif etdi ki, sərhəd məsələsinin həlli üçün bir beynəlmiləl komisyon təşkil olunsun. Bu da həll edə bilməzsə, məsələ hakəm [arbitr] vasitəsilə həll edilsin. Fəqət o vaxt bizim təklifimizə heç bir cavab çıxmadı. İkinci dəfə, bir ay bundan əvvəl, hökumətin təşəbbüsü ilə Gürcüstan səfirimiz yenə bu uğurda çalışmağa iqdam [təşəbbüs] etdi və gürcü hökuməti ilə bir yerdə Zaqafqaziya Konfransı dəvəti üçün layihə hazırladı. Tiflis Konfransının dəvətini əvvəlcə biz təklif etmişik. Öylə deyil ki, guya onlar təklif etmişlər, biz dəxi razı olmuşuz. Layihə hazır oldu. Təşrinisaninin [noyabrın] 10-da iclas təyin edildi, fəqət Ermənistan mürəxxəsləri [nümayəndələri] gəlmədilər. Konfrans dörd dəfə təxirə salındı. Ararat hökuməti yenə nümayəndə göndərmədi. Bir hökumət böylə işləri təklif edər, yazar, çağırar; daha gedib başqa hökumətləri qollarından tutub konfransa gətirə bilməz ki... Bu surətlə hökumət bu uğurda çox çalışmışdır və əgər nəticəsiz qalmışsa, təqsir Azərbaycan Hökumətində deyildir.

Digər natiqlərdən Qara bəy deyir ki, əsgəri işlərə diqqət verilməmişdir. Xeyr, böylə deyildir. Hökumət bu xüsusda da çox çalışmışdır. Bu barədə müfəssəl məlumat verməyi bəzi səbəblərə görə lazım bilməyirəm və nə edildiyini bu gün demək istəmirəm. Ancaq burası var ki, bir çox işlər görülübdür. Qoşun təşkilatı işləri məşhur general Mehmandarova mühəvvəl edilmişdir [tapşırılmışdır] və əsgəri işlər üçün para müzayiqə edilməyir [əsirgənməyir].

Bədəhu [sonra] Əhməd Cövdət Sosialistlər fraksiyası tərəfindən və sədr "Müsavat" tərəfindən edilən təhriri [yazılı] təklifləri (formulaları) oxuyurlar. Beş dəqiqə tənəffüs elan edilir. Tənəffüsdən sonra:

**Məhəmməd Əmin** – Müsaidənizlə, ümum fraksiyalar tərəfindən müttəfiqən [yekdilliklə] qəbul edilmiş olan formulanı oxuyuram.

Vaqe olan istizaha [sorğuya] cavabən Hökumət rəisinin Qarabağ məsələsi və bu vilayətdə vəhşiliklər icra edən Andranikin çetesi haqqında verdiyi izahatı eşidərək, Azərbaycan Məclisi-Məbusanı vətənin tamamiyyətimülkiyyəsi [ərazi bütövlüyü], Azərbaycan Cümhuriyyətinin heysiyyəti, Cümhuriyyət əhalisinin təmini-asayiş və hürriyyətinə aid olan məsələdə görəcəyi daha qəti siyasi və daha şiddətli və əsgəri [hərbi] tədbirlər görməsini tələb edərək, bu tədbirlərin icrasında məbusan heyətinin daima himayət və etibarına məzhər [nail] olacağını bəyanla, növbədəki məsələlərin müzakirəsinə keçir. Təklif, ittifaqi-ara ilə [yekdilliklə] qəbul olunur.

**Erməni-gürcü ixtilafı haqqında**

Qarabağ məsələsi bitdikdən sonra erməni-gürcü ixtilafı məsələsinə keçərək, sosialistlər tərəfindən Parlamana təhriri [yazılı] surətdə verilmiş olan təklifi Əhməd Cövdət əfəndi oxuyur. İstizahın [sorğunun] məzmunu:

Bu axır vaxtlarda Tiflisdən alınan teleqraf xəbərlərinə görə, iki qonşu hökumət olan Gürcüstan ilə Ermənistan dövlətləri arasında ixtilaf əmələ gəlib, qanlı toqquşmaya səbəb olmuşdur. Bu vaqeənin Zaqafqaziya millətləri üçün böyük əhəmiyyəti olub, onları fəlakətlərə düçar edə biləcəyindən, Müsəlman Sosialistlər Fraksiyonu bu məsələnin Parlamanda müzakirə edilməsini və bu yolda lazımi təşəbbüsatda bulunmasını təklif edir.

Sədr istizahı ruscaya tərcümə etdikdən sonra Səfikürdskiyə söz verilir.

*Bitmədi*

## TELEQRAF XƏBƏRLƏRİ
## (Royter acentəliyindən)

- Cümə günü kral Parisə varid olmuşdur [gəlmişdir]. Kralın vürudu günü, rəsmi surətdə bayram elan edilmişdir. Kralı təntənəli surətdə istiqbal edib [qarşılayıb], şərəfinə Yelisey Sarayında banket verilmişdir.
- Rəisi-cumhur Vilsonun Londraya vürudu mövludi-Məsih [İsa peyğəmbərin doğumu; Milad bayramı] üçün gözlənir.
- Dün iki illik təxirdən sonra Parislə Londra arasında seyri-səfain [gəmilərin hərəkəti] təcdid [bərpa] edilmişdir.
- Almaniya kanuni-saninin [yanvarın] 16-adək 5 mindən ziyadə parovoz verməlidir. İşbu parovozları Almaniya öz ixtiyarı ilə verməzsə, əlavə olaraq 590 parovoz da cərimə ediləcəkdir.

## SON XƏBƏRLƏR

**Gürcü qoşunu Ərkani-hərbindən [Baş qərargahından]**

Dekabrın 20-də, sübh saat 7-də düşmən top atəşi açıb, bədəhu [sonra] səngərlərimizə tərəf hücuma yürüməyə başladı. Saat 12-yə qədər müharibə davam etdi. Nəticədə düşmən qaçmağa məcbur oldu. Qaçan düşməni qarlı fırtınadan dolayı təqib etmək işi dayandırıldı. Müharibə meydanında düşmənin 3 nəfər zabit və yüz nəfəri mütəcaviz [yüz nəfərdən artıq] saldatı məqtul düşmüşdür [ölmüşdür]. İki dənə makinalı [pulemyot] və bir çox adi tüfənglərlə bərabər, xeyli patron alınmışdır. Bir nəfər zabit və 50 nəfər saldat əsir alındı. Hücum edən erməni dəstəsi üç qisim qoşun hissələrindən ibarət idilər.

Əlavə xəbər var ki, 19 dekabrdakı Yekaterinenfild müharibəsində düşməndən 300 tüfəng, bir mitralyoz və xeyli patron alınmışdır.

Yekaterinenfild cəbhəsində 20 dekabrda gecə asayişlə keçdi. Erməni qoşununun buradakı tələfatı hesabından 6 nəfər zabitin və 230 nəfər saldatın öldürüldüyü məlum olmuşdur. Ricət [qayıdış] yolundakı qan nişanələrindən görünür ki, yaralılarını götürüb aparıbdırlar. Xalq qvardiyasından (gürcü qoşunudur) 30 nəfər tələfat olubdur.

## ERMƏNİ-GÜRCÜ TOQQUŞMASI

**Müharibə elanı**

Rəsmi mənbələrdən xəbər verirlər ki, Gürcüstan əleyhinə hərəkət edən erməni qoşunları komandanı Dro, kanuni-əvvəlin [dekabrın] 11-ində Qarakilsədə Gürcüstan siyasi nümayəndəsinə rəsmi surətdə xəbər vermişdir ki, kanuni-əvvəlin 12-sində əsgər dəvət edib, 13-ündə isə hücuma keçəcəkdir. Bunu təsdiq üçün kanuni-əvvəlin 18-ində Gürcüstan komandanlığı Dronun özündən böylə bir məktub dəxi almışdır.

**Hərbə həvəs**

Gürcüstan Parlamanının kvestoru [təsərrüfat müdiri] S. Jordaniya sabiq zabit olduğuna görə, vətəni mühafizə etməyi özünə fərz bildiyindən, Parlaman rəisinə bir ərizə verib vəzifəsindən azad edilməsi xahişində bulunmuşdur.

**Təftiş və həbs**

Tiflisdə Qolovinski küçədə Aramyansın evində vaqe Erməni Milli Şurası mühasirə edilib axtarılmışdır. Bir çox adamlar, o cümlədən Erməni Milli Şura üzvləri həbs edilmişlərdir.

**Fəhlələr də ermənilər əleyhinə**

Tiflis Fəhlə Vəkilləri Şurası [Fəhlə Deputatları Soveti] Ermənistan sərhədində vaqe olan hadisələr haqqındakı məruzəni dinləyib yəqin etmişdir ki, Ermənistan Hökuməti iki qardaş millət arasında olan hamı mübahisəli məsələləri sülhlə həll etmək üçün nəinki özü iqdamatda [təşəbbüsdə] bulunmamışdır, hətta, Gürcüstan Hökuməti tərəfindən mübahisəli məsələləri həll etmək üçün dəfələrlə sülh konfransı dəvəti təşəbbüsatını nəzərə almayıb, erməni-gürcü mübahisələrinin həllini təxirə salmaqla, öz nümayəndələrini konfransa göndərməmişdir. Gürcüstan Hökuməti qardaşlıq əlini uzadıb erməni nümayəndələrinin sülh konfransına gələcəyini gözlədiyi bir zamanda, Ermənistan Hökuməti istihzari-əsgəriyyə [səfərbərlik] elan edib, hücuma keçmişdir.

Tiflis şəhərinin bütün demokratiyası [xalqı] üzvü olan Fəhlə Vəkilləri Şurası, Ermənistan Hökumətinin demokratiya əleyhinə açmış olduğu bu tövr həlakətli [məhvə səbəb ola biləcək] müamiləsini [əməliyyatını] protesto ilə izhar edir [bildirir] ki, millətlər arasında olan mübahisəli məsələlərin qılıncla həll olunmasını istəyənlər əleyhinə Gürcüstan Hökumətinin müharibəsinə hər növ müavinətdə [yardımda] bulunacaqdır. Bununla belə, Fəhlə Vəkilləri Şurası bu müharibənin tezliklə bərtərəf olması [aradan qalxması] üçün Gürcüstan Hökuməti tərəfindən edilən təklifi haqlı görür: hərəkati-hərbiyyənin dayandırılması, müharibədən əvvəlki vəziyyətin iadəsi [qaytarılması], tezliklə erməni-gürcü konfransı dəvət edilib ümumi bədbəxtliyə bais olan müttəhimlərin aşkar edilməsi.

Fəhlə Vəkilləri Şurası inanır ki, erməni millətpərəstlərindən və erməni kadetlərindən ibarət olan Ermənistan Hökumətinin sosialist Gürcüstan Hökumətinə qalib gəlməsi, əks-inqilabın inqilab üzrə, millətpərəstlərin beynəlmiləl və burjuaziyanın füqərayi-kasibə [proletar] üzərinə qələbə çalmasından ibarətdir. Tiflis Fəhlə Vəkilləri Şurası, Ermənistan demokratiyasına müraciətən qardaş öldürücü müharibənin dayandırılması üçün öz hökumətlərinə icrayi-təsirdə bulunmağa dəvət edir.

**Sülhə dəvət**

Tiflis mətbəə əmələlərinin [fəhlələrinin] Həmkarlar İttifaqı, erməni-gürcü müsadiməsini [toqquşmasını] müzakirə edib, demokratik hökumətlər tərəfindən mübahisəli məsələlərin qılınc və qanla həll olunmasını yaraşmaz ədd [hesab] edir. Bu müsadimə, macəra-cular [avantüristlər] tərəfindən qaldırılıb, hər iki qardaş milləti bir çox fəlakətlərlə təhdid etməkdədir. Bu qanlı müsadimə, imperialist ruhunda olan dairə tərəfindən hər iki hökumət demokratiyası [xalqı] əleyhinə döndərilmişdir. İttifaq idarəsi bunları nəzərə alıb mübahisəli məsələlərin konfrans və ya hakəm [arbitr] hökmü ilə həll olunması üçün hamı fəhlələri səslərini yüksəltməyə dəvət edir. Bundan əlavə, Həmkarlar İttifaqı izhar edir ki, həmişə müharibəyə mənfi bir münasibətdə bulunmağa baxmayaraq, hamı fəhlələr, bilafərqi-millətü firqə [millət və partiya fərqi olmadan], öz bayraqları altına cəm olub, təklif edilən vəsilələrlə bərabər öz hökumətlərinə müavinət [yardım] edəcəklərdir. Həmkarlar İttifaqı, fəhlə sinfinin ittihadını [birliyini] mühafizə etməkdən ötrü adətən böylə bir zamanda buraxılan müfəttinanə [fitnəkar] xəbərlərə inanmamağı tövsiyə edir.

## GÜRCÜSTANDA

**Ermənilərin hiyləsi**

Kanuni-əvvəlin [dekabrın] 17-də, Borçalı müsəlmanları tərəfindən təşkil edilmiş bir heyət, Gürcüstan Hökuməti Rəisi-vükəlası [Baş naziri] Jordaniya hüzuruna qəbul edilmişdir. Bunların dediyinə görə, ermənilər Borçalı qəzasının müsəlman hissələrində şayiat [şayiələr] buraxırlar ki, Ermənistan Hökuməti, Türkiyə və Azərbaycanın tövsiyəsi ilə Gürcüstanla müharibə edirlər. İşbu şayiatın təhqiqindən ötrü də heyət Tiflisə göndərilmişdir. Heyət Türkiyə və Azərbaycan mürəxxəslərindən [nümayəndələrindən] isticvabda bulunmuşlar [izahat istəmişlər]. Bunlar qəti surətdə bu şayiatı təkzib etmişlərdir. Heyət, Borçalı müsəlmanlarının gürcü milləti və Gürcüstan Hökumətinə olan əlaqeyi-dostanələrini [dostca yanaşmalarını] Rəisi-vükəlaya xəbər vermişdir.

**Qənaimi-hərbiyyə [hərbi qənimətlər]**

Tiflisə iki top və bir bayraq gətirilmişdir. Bunlar erməni qoşunlarından 17 kanuni-əvvəl [dekabr] müharibəsində alınmış qənaimdəndirlər [qənimətlərdəndir].

**Əsir zabitlər**

Kanuni-əvvəlin 20-də Tiflisə 38 nəfər hərbi əsir gətirilmişdir. Bunlardan ikisi zabitdirlər: ştab[s]-kapitan Ter-Kazaryan, poruçik Karçikyan.

**Könüllülər**

- Svimonişvili Hökumətə müraciətən Borçalı qəzasında könüllü qoşun düzəltmək üçün müsaidə istəmişdir.
- Duşetdən verilən xəbərlərə görə, əhalinin ruhu yüksəkdir. Bir çoxları ordu və xalq qvardiyasına könüllü yazılırlar. Nizam və asayiş hökmfərmadır [hökm sürür].
- Kaxetiyadan könüllü olaraq ordu və xalq qvardiyasına yazılanların hesabı o qədər böyümüşdür ki, xüsusi bir komisyon lazım görülmüşdür.

## ARTIQ YETƏR!

Ey bəşər, sənələrcə qan tökdün və tökməkdəsən, artıq yetər! Artıq yetər, ey mütəməddin [mədəni] bəşər! Ey insanlığa, gözəlliyə, mərhəmət və məhəbbətə "əlvida" etmiş bəşər! Ey xəstə bəşər! Adınla, ağıl və şüurunla, iradə və ehtisasınla (ehsasınla) [sezginlə, intuisiyanla] çox iftixar etdin. Təbiətin, qarşına çıxardığı müqavimətləri əzdin. Kürreyi-ərzə [yer kürəsinə], havaya hakim oldun; keçilməz ormanları [meşələri] qırdın; müntəzəm şəhərlər saldın; dəmiryollar apardın; simsiz teleqraf ixtira etdin; su altında yürüdün; mühib [heybətli] bir qartal şəklinə girdin də yüksək dağları, ucsuz-bucaqsız dəryaları görməz oldun. Kürreyiərzi dəlik-deşik etdin; qızıl, gümüş, mis, kömür, neft – nə varsa çəkdin. Hürufat [hərflər] icad etdin, yığım-yığım kitablar yazdın, dahilər yetişdirdin. Fəqət nə oldun? Bəşər ikən ac və yırtıcı bir qurd kimi həmnövünü gəmirməyə başladın. Susuzluğunu bəşər qanı ilə dəf etdin də usanmadın, utanmadın; dağları, dəryaları, ormanları al qanla boyadın; yıxdın, yaxdın; yorulmadın.

Artıq yetər, ey mütəməddin bəşər! Məbədləri yıxdın, çünki yenidən təmir edəcək bir qüvvəyə malik olduğunla məğrur idin. Müstə'mər [abad edilmiş] məmləkətlər[i] məzaristana döndərdin; çünki təxrib [yıxmaq, xaraba qoymaq] üçün "intiqama" çağırılmışdın. Milyonlarca bəşər səadəti pozdun; çünki öz istirahət və səadətinə çalışırdın. Elani-hərb etdin; çünki qəlbində başqalarına rəqabət bəsləmişdin. Özünə rəva görmədiyin şeyləri həmcinsinə gördün; çünki "mütəməddin" idin. Əski fəlsəfəni əfsanə bilmişdin. Təcəmmülat [zinət; bəzək-düzək] və eyş-işrətlə əxlaqını pozdun; çünki çalışmağa əlvida demiş, irsən kurul-kurul [bol, çoxlu] qızıl-gümüş əldə etmişdin. "İntihar klubları" açdın; çünki həvavühəvəsinlə [ürəyinin istədiyi kimi, öz kefinə görə] yaşamış, yorulmuşdun. Bir taqım "diplomatlarını", "qəhrəman komandanlarını", "bazari" filosoflarını nümuneyi-imtisal [nümunə götürüləcək şəxs və ya şey] ittixaz [qəbul] etdin də, onları təqlidə çalışdın. Fəqət nə oldun? Cəhənnəmnümun [cəhənnəmi andıran] toplar, tüfənglər icadına müvəffəq oldun. Nələr gördün? Qan tökdün, tökdürdün. Məhv etdin, məhv oldun, adını nə qoydun?

Artıq yetər, ey mütəməddin bəşər! Oyan! Aldanma! "İntiqam, intiqam" deyə çağırıb-bağırma! Onda səadət yoxdur. Artıq yetər! Hər nəfsi sev, çalış, alın təri ilə yaşa! Çocuqlarını da çalışmağa öyrət! Fikrini, əməlini düzəlt! Təriqi-haqqa [haqq yoluna] yanaş! Əmin ol ki, o vaxt həqiqi səadəti bulacaq, fəlakət və inhitata [alçalmağa, tənəzzülə] "əlvida" edəcəksən.

*Hüseyn Mirzəcamalov*

## MAARİF MÜFƏTTİŞLƏRİNİN YIĞINCAĞI

*(7-nci iclas)*

Məclis, möhtərəm Azad bəy Əmirovun təhtisədarətində [sədrliyi ilə] açılır. Növbədə olan məsələlərdən biri ibtidai və rüşdi məktəblər üçün tədris kitablarının intixabına [seçilməsinə] dair; seçilmiş ədəbiyyat heyəti nəzərdən keçirərək, heyətin mülahizəsi ilə hələlik tədrisə yarar kitablar barədəki bəratəlqövlünü [protokolunu] və kitabların adlarını oxuyur. Hələlik hal-hazırda məktəblərdəki [Mahmud bəy] Mahmudbəyovun, [Qafur Rəşad] Mirzəzadənin, [Rəşid bəy] Əfəndiyevin, Fərhad bəy Ağayevin və qeyri müəllim əfəndilərin kitabları tədrisə müvafiq görülür. Ümum məktəblərin proqramı xüsusunda xeyli müzakirə və mübahisə olduqdan sonra, vaxtın təngliyi [darlığı; azlığı], ələlxüsus, proqram kimi çətin və qarışıq bir məsələnin məqsədə mütabiq [məqsədəuyğun] surətdə tərtib olunması üçün iki-üç həftə deyil, iki-üç, bəlkə daha ziyadə aylarca oturub düzmək və bununla belə ibtidai məktəbin proqramı ilə rüşdi məktəbin proqramlarında təlimcə irtibat əmələ gətirmək mətlub olduğundan [tələb olunduğundan], yığıncaq müttəhidülqövl [yekdilliklə] bu qərarı qəbul görür:

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 24 dekabr (Çərşənbə axşamı günü) tarixli 72-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Hər surətdə gələn sentyabr ayına qədər müfəssəl və mükəmməl bir surətdə ümumi bir proqram tərtib edilməsinə Maarif Nəzarəti indidən təşəbbüs eyləsin. Fəqət, o vaxta qədər məktəblərdə köhnə proqramla tədris və təlim olunsun.

Məlumdur ki, kənd məktəblərində bəzən şagirdlər naxoş olurlar. Yavuqda əczaxana (aptek) olmadığından, cüzi bir şeydən ötrü şagird dərsdən qalır və buna münasib başqa təsadüfi vəq'ələr [hadisələr] baş verir. Təbabətcə onlara kömək edəcək ətrafda bir kimsə bulunmayır. Ona görə, bu xüsusda, məclisdə çox danışıqdan sonra əxirda qərar olunur hər kənd məktəbinin cənbində [nəzdində] bir balaca əczaxana tərtib və təşkil olunsun və bu baradəki məsarif [xərclər] də Hökumət tərəfindən dərəhdə edilsin [öhdəyə götürülsün].

Necə ki məlumdur, sabiqdə bəzi məktəblərdə mütəəllimlərə [şagirdlərə] məxsus əmanət sandığı təşkil olunmuşdu və hər şagird müxtəlif vasitələrlə həmin sandığa əmanət etdiyi paranın ziyadələnməsinə [çoxalmasına] artıq səy edirdi. Hərçənd şagirdlər hələ balaca ikən para cəm etmək adətinə alışırdılar; fəqət toplanmış paralar xüsusi olduğundan, bunun əxlaq və təbiətcə zərərli tərəfi də az deyildi. Bu xüsusda əxz olunmuş [qazanılmış] təcrübələr sayəsində minbəd [bundan sonra] şagirdlər üçün belə xüsusi əmanət sandığının məktəb daxilində olmasını yığıncaq qətiyyən lağv edir; fəqət bunun əvəzində şagirdlərin həyati-ictimaiyyəyə, cəmiyyət və müəssəsati-xeyriyyəyə [xeyriyyə qurumlarına], ələlxüsus nəşriyyati-risaləyə [kitabçalar nəşr etməyə], hələ məktəb daxilində ikən hazırlamaq üçün o məktəblərdə ki, hansında müvəffəqiyyətlə indidən iqdam etmək [başlamaq] olar, onların cənbində [nəzdində] nümunə olaraq ümum şagirdlərə aid bir əmanət sandığının açılmasını yığıncaq müvafiq hesab edir. Tainki bu nümunə sandıqlarının təcrübə ilə göstərmiş nəticəsi müvafiqi-məram [məqsədəuyğun] olarsa, o vədə hər məktəbin cənbində mövcud olunmasına ümumi və məcburi bir qərardad qoyulsun. Çünki müəllimlər həyatında maaşın azlığından, maddi müavinətə [köməyə] çox ehtiyac hiss olunur və belə zəruri ehtiyacları rəf etməyə [aradan qaldırmağa] zavallı müəllimlərin münfəridən [tək başına] iqtidarı olmadığı üçün cürbəcür rəzalətə düçar olurlar. Bu səbəbdən dolayı maarif işi ləngə düşür. Ona görə hər maarif müfəttişinin nahiyəsində ümum müəllimlər üçün bir əmanət və müavinət sandığının açılmasını yığıncaq [lazımlı] hesab edir. Bundan əlavə, ümum müəllimlərin iştirakı məcburi olmaq şərti ilə hər nahiyədə bir istiqrazi-mütəqabilə [qarşılıqlı istiqraz; qarşılıqlı borclanma] cəmiyyətinin açılmasını və bu barədə tez təşəbbüs olunmasını məclis, ümumiyyətlə qəbul və qərar edir.

Bundan sonra, kənd əhalisi üçün qiraət və mühazirə oxunmaq məsələsi müzakirə olunur. İstibdad dövründən bizə irs qalan şeylərin biri də camaatımızla məktəb və müəllimlərimizin yekdigərinə [bir-birinə] biganə və kəmələqə [əlaqələrinin zəif] olmasıdır. Hər ata öz övladının xoşbəxt olmasını arzu etdiyi kimi, həmin övladın ruhani atası olan müəllim əfəndi də bu arzuda olması vazehdir [aydındır]. Bəs nə üçün, bir məqsədə xidmət edən iki mürəbbi [tərbiyəçi] bir-birinə yabançı olsun? Şübhəsiz, bu xüsusda avam kəndli qardaşımızın qüsuru bir isə, müəllimlərimizdəki qüsur dərdir şayəstədir [yeridir]. Bərəks [əksinə], gərək hər vaxt müəllim əfəndilər uşaq sahibləri ilə və kəndin başqa əhalisi ilə təmasda və sıxı əlaqədə bulunub, mümkün və fürsət olduğu zaman onları (gündüzlər mümkün deyilsə, axşamlar) cəm edib tarixdən, ədəbiyyatdan, ziraət və iqtisadi işlərdən onlara mühazirə, xütbə [dini-əxlaqi məzmunlu nitq] və faydalı nitqlər söyləməklə onların arasında ittifaq və məhəbbət hissiyyatı oyatmağa çalışsınlar. Kənd müəllimləri bu vaxta qədər əgər bəzi səbəblərə görə bu vəzifələri yerinə yetirməyiblərsə, bu gün hürriyyət sayəsində bu vəzifələrə kamalınca əməl etmək müəllim əfəndilərə borcdur. Binaileyh [ona görə], hələlik bu məsələ mətluba müvafiq surətdə [arzu edildiyi kimi] hər məktəbdə əmələ gəlməyəcəyindən, heç olmasa mərkəzlərdə müəllimlərdən və ziyalı qüvvədən ibarət bir heyət tərəfindən müəyyən vaxtlarda bu işlərin əncam olunmasını, nədvə [yığıncaq] ümumiyyətlə qət və qərar edir.

Məlumdur ki, müəllimlərimizin əksəri, hökumət idarələri ilə və rəsmi məmurlarla təhriri mürasilə etməyi [yazışmağı; yazılı surətdə məktublaşmağı], ələlxüsus pul haqq-hesabını nə yolla [nə qaydada] saxlamağı qətiyyən bilməyirlər və bu cəhətə görə yazı işlərində çox böyük müşkülat törədirlər. Bu nöqsanın rəfi [aradan qaldırılması] üçün məəttəəssüf [təəssüf ki], indi vaxt müsaid [uyğun] olmadığından, nədvə qərar edir, gələcəkdə açılası müəllimlər kursunda bu qaydalar mühəqqəq [mütləq] və olduğu qədər mükəmməl kursa gələn əfəndilərə təlim olsun.

Saat 3-də məclis xitama yetib, gələsi iclas sabah səhər saat 9-da təyin olunur.

*İslam bəy Qabulov*

## XALQ MƏKTƏBLƏRİ MÜFƏTTİŞLƏRİNİN YIĞINCAĞINA DAİR

Müfəttiş əfəndilər yığıncağının 4-cü iclasından məlumat vermiş İslam bəy Qabulov sair mülahizələri arasında böylə yazır:

*"Mollaların üsulsuz, vaxtsız və məqamsız vermiş olduqları dərslər, çocuqların əxlaq və tərbiyələrini pozmaqdan başqa bir səmər[ə] baxş etmədi. Odur ki, tərbiyəcə millətimizə zərrə qədər fayda verməyən yarımçıq əqaid müəllimlərinin mənəviyyatca millətimizə külli ziyan verdikləri əzhəri-minəşşəmsdir [gün kimi aydındır]."*

Nə acı həqiqətlər! Bu məsələ ətraflıca düşünülərsə, həqiqətləri aranılarsa ondan böyük-böyük cildlər yazmaq mümkündür.

Sabiq rus hökumətinin təqib etdiyi məsləki bir saatlığına kənara qoyaq. Ətrafımızı araşdıraq, öz günahlarımızı gizlətməyib ortalığa çıxardaq. Əvvəlcə bunu boynumuza almalıyıq ki, Qafqaziyada indiyə qədər müsəlmanlara məxsus bir dənə ruhani məktəbi, yaxud seminariyası olmamışdır. Gürcülərin və ermənilərin seminariyası və hətta akademiyası belə olduğu cəhətə din və dünya həyatını oyadıcı keşişləri də az deyildi. Naəlac qalmış biçarə azərbaycanlılar isə gözlərini İrana dikib, ruhanilərini də oradan cəlb etmişlərdir. Bunlardan qabiliyyətliləri (axundlar) şəhərlərimizə və qeyri-qabiliyyətliləri də kəndlərimizə qismət olmuşdur. Hələ bəzi təvanasız [kasıb, imkansız] kəndlərə heç bunlar da qismət olmayırdı. İranda köhnə sxolastik üsul ilə təlim tapmış mollalar bugünkü təlim və tərbiyə işlərindən əsla xəbərdar olmayıb, öhdələrinə götürdükləri əqaid dərslərini də korapuça çıxarmışlardır. Əqaid müəllimlərinin ayda 8 manat məvacibi də nəzərə alınarsa, bu müəllimliklər axundlara yox, hətta mirzələrə də yox, bəlkə ilan oynadan, tas quran, cin tutan və minlərcə böylə mövhumatla uğraşan [məşğul olan] şəxslərə də vəzifə olmuşdur. Söz yoxdur ki, rus hökumətinə də həqiqi əqaid müəllimləri əvəzinə böylə "tascılar, ilançılar" lazım idi. Əcəba bu əfsunçular hansı əqaidi öyrədə bilmişdilər? Əlbəttə heç birini.

İkincisi, əqaid kitablarımız nə haldadır? Həştadıncı illərə qədər Qafqaz qitəsində məktəblərə məxsus bir dənə də əqaid kitabı yox idi. Camaat arasında fəqət [sadəcə] müctəhidlərin fətva və risalələri işlənirdi. Həmin illərdə Qori şəhərində müsəlmanlara məxsus bir darülmüəllimin [müəllimlər seminariyası] açılır və buranın əqaid müəllimləri mərhumeyn [ikisi də rəhmətə gedən] axund Molla Əbdüssəlam [Axundzadə] və Qədir əfəndi, məşhur pedaqoq Çernyayevskinin rəhbərliyi ilə birər [hərəsi bir dənə] əqaid kitabları yazmışlardır. Lakin bu kitablar 7-8 yaşlı mübtədilər [yeni başlayanlar] üçün olmayıb, məhz müəllimliyə hazırlanan 15-20 yaşlı cavanlar üçün yazılmışdır. Bununla belə, mübtədilərə məxsus əqaid kitabları olmadığı cəhətə, Qafqazın tamam ibtidai məktəblərində məzkur [adı çəkilən] kitablar qəbul olunmuşdur. Sonralardan həmin kitablara nəzirə olaraq bəzi mollalar tərəfindən bir çox şəriət kitabları yazılmışdır. Bu gün həmin kitabların ümumən böyük bir nöqsanı vardır ki, heç biri mübtədilərin anlaya biləcəyi və qüvveyi-idrakiyyələrinə [idrak qabiliyyətlərinə] müvafiq gələcəyi üsul ilə yazılmamışdır. Necə ola bilər ki, mükəlləf [yetkin] şagirdlər üçün yazılmış bir təlifi [əsəri], yeddi yaşlılar anlaya bilsin? Aya [görəsən; əcəba] südəmər bir tifil, bozbaşı ya sair xörəyi yeyib həzmə verə bilərmi? Məsələn götürək Əbdüssəlam axundun təlifini. Burada dəstəmaz ə'malına [əməlinə] məxsus bir çox ərəbi [ərəbcə] dualar yazılmışdır ki, onlardan təxminən bir neçəsini zikr edirəm:

1) Sağ əli yuyanda oxunan dua; 2) Sol əli yuyanda... 3) Ağzı yaxalayanda; 4) Buruna su çəkəndə; 5) Başa məsh çəkəndə; 6) Sağ ayağa və; 7) Sol ayağa məsh çəkəndə... ilaxır.

İştə, ana dili ilə yox, əcnəbi və biganə bir dildə yazılmış bu ərəb duaları heç bilirmisiniz məsum balaların yenicə nəşvünüma [inkişaf] edən zehinlərini nə dərəcədə korşaldır? Korşaldır da, sonra sair təlimatın hifz və dərk edilə biləcək istedadından məhrum buraxır? Lakin əminəm ki, böylə şəriat təlimindən nə Allah və nə də peyğəmbər razı olsun. Filhəqiqə [doğrudan da], şəriətimizin harasında yazılmışdır ki, namaz, oruc, zəkat, hac, cihad kimi mükəlləflər üçün qoyulmuş bu əsil vəzifələri səbi uşaqlara təklif və təlim etsinlər? O da ərəbcə tutivari [tutuquşu kimi]? Hərgah, icrayi-əməli [əməli surətdə icra] təklif olunmayırsa (sinni-büluğa [yetkinlik yaşına] qədər də oluna bilməz) tutivari təliminə nə ehtiyac vardır? Cavanlar üçün qoyulmuş dini vəzifələri varsınlar cavanlarımız da, yəni 15 yaşlılarımız öyrənsinlər və əməlini də tapsınlar. Mübtədilərə gəldikdə, onların yaşlarına müqabil şər'i [şəriətə aid] təklifləri azdırmı? Zənnimcə çox-çoxdur. Bunların adab və ətvarına [ədəb-ərkanına, davranışlarına] diqqət yetirilsin. Mənası anlanılmayacaq duaların əvəzinə əxlaq dərsləri təlim olunsun ki, həmin əxlaq dərsləri bu gün Avropa məktəblərinin bir çoxunda ədyan [din] təlimi əvəzində işlənilməkdədir. Zatən əxlaq dərslərinin özü də şəriətdən neşət etmiş [qaynaqlanan] bir əsasdır.

Hələ məktəblərimiz bir kənarda qalsın. Yüz illərdir ki, bir "ərəbcə şəriət" təlimi minbərlərdən camaata olunur. Bainhəmə [bununla belə] gürcülərdən, ermənilərdən əxlaqca geridə qalmışıq.

Müsəlman əxlaqsızlığı Qafqazda bir dərəcəyə gəlmişdir ki, məhkəmələrdə "Quran"a and içib, yalandan şəhadət göstərdiyimiz üçün bir çox rus məhkəmələrində şahidliyimizə bir o qədər əhəmiyyət verilməyirdi. Mövqufatın [vəqflərin] yerləri qəsb, ziyarətgahların malları qarət, məscidlərin palaz-paltarı bir çox dəfə müsəlmanlar əli ilə oğurlanmışdır. Öz müqəddəs məbədləri ilə böylə rəftar etmiş bir məxluq, sair şər'i məsələlərimizdə daha artıq əxlaqsızlıqlar büruzə vermişdir. Evlərdə ana tərbiyəsi görməmiş bir millət, məktəb və məclislərdə də şəriəti ərəb və fars dillərində tutivari öyrənərsə, axırı böylə böyük pozğunluq və zəlalətlərə düçar olacağı təbiidir.

Bu gün ev tərbiyəmiz olmadığı üçün bəlkə əxlaqsızlığa çarə təkcə məktəblərimizdə ola biləcəkdir. O da ərəbcə yox, məhz türkcə tərtib verilmiş əxlaq dərsləri vasitəsilə.

Əlan [hal-hazırda] Yevropada və ələlxüsus Amerika məktəblərində din təlimi valideyn öhdəsinə buraxılaraq, əvəzində əxlaq dərsləri verilməkdədir. Oralarda zatən hər kəsin özünəməxsus bir dini, bir etiqadı olduğu halda, hamının əxlaq tərbiyəsi bir rəvişdə [tərzdə], bir üsulda cari olmaqdadır [getməkdədir].

İstanbulda əxlaq dərsləri qoyulmuşdursa da, hələ nizama salınmamışdır.

Müntəzəm və mükəmməl əxlaq dərsləri bu gün Amerika məktəblərində qoyulmuşdur. Bunun bani və müəssisi [təsisçisi], oralı məşhur pedaqoq Adlerdir. Bu cənab, əxlaq dərslərini üç yerə bölüb, birisində şəxsi vəzifələri, o birisində ailə və valideyn və üçüncüsündə də vətən və ictimai vəzifələri təlim edir. Adlerin üsulu barəsində lazım gələrsə başqa bir məqalədə müfəssələn yazaram. Burada ancaq onu qeyd etməliyəm ki, hər dərs moizə və nəsihət təriqi [yolu] ilə olmayıb, hər fəzl [fəzilət] və nöqsan üçün ayrı-ayrı hekayə, əfsanə, timsal və nağıl yazmışdır. İştə, əxlaq tərbiyəsini həmin hekayələri oxumaqla şagirdlər özləri dərk və əxz edirlər [başa düşür və mənimsəyirlər].

Təcrübəli müəllimlərdən bir-ikisinə Adler üsulu ilə "əxlaq dərsləri" tərtib verilməsi həvalə edilsə [tapşırılsa] və bu iş tamamilə başa gələrsə, ibtidai məktəblərdə üsulsuz, vaxtsız və məqamsız təlimlərə nəhayə[t] verilərək bica [boş] yerə də məsum balaların zehinləri pozulmaz və bu dərslərin təlimi də üsul görmüş müəllimlərə həvalə olunarsa, xoşa ondan sonra Azərbaycan məktəblərinin halına! Vəilla fəla! [Yoxsa düzəlməz; belə olmasa olmaz; başqa cür düzəlməz!]

*Fərhad Ağazadə*

## BAKI XƏBƏRLƏRİ

- İkinci dairə ev komitəsi, 2-ci polis müfəttişliyi dairəsinin bütün ev komitələri sədrləri və katiblərini kanuni-əvvəlin [dekabrın] 24-də axşam saat 5-də Birinci Realnı məktəbi mülkündə təyin edilmiş iclasa dəvət edir. Müzakirə ediləcək məsələlər təşkilat və ərzaq məsələləridir.

- Kanuni-əvvəlin 24-ü, axşam saat 5-də Birinci Realnı məktəbi mülkündə siniflər nümayəndələrinin şurayi-müəlliminə [müəllimlər şurasına] nümayəndə göndərməsi barəsində iclas təyin edilmişdir. Burada şurayi-valideynin iclası da iniqad edəcəkdir [baş tutacaqdır] ki, heyəti-rüəsa [rəyasət heyəti] intixab ediləcəkdir [seçiləcəkdir].

- Statistika məlumatına məbni [əsasən], kanuni-əvvəlin [dekabrın] 8-indən 15-inə dək 47 min 685 pud buğda, 300 pud düyü, 8 min 687 pud un, 10 min 722 pud kartof, 10 min 265 pud kələm, 5 min 240 pud soğan, 12 pud yumurta, min 650 pud balıq, 46 min 238 pud arpa, 731 pud ələf, 2 min 711 pud saman, 11 min pud odun, 3 min 859 pud kömür gətirilmişdir.

- Ərzaq Nəzarəti, Gəncə Cəmiyyəti-Xeyriyyəsinə 300 tay bez vermişdir ki, Gəncə əhalisi arasında adambaşı 6 arşından çox olmamaq üzrə təqsim etsin [paylasın]. Qiymətdən (4 rublə 90 qəpik arşın) arşına 25 qəpik cəmiyyətin nəfinə [xeyrinə] götürüləcəkdir.

**Təftiş və həbslər**

- Srağagün, kanuni-əvvəlin 21-də, saat 6-da Fəhlə Klubu mülkündə Kəsbkarlar İttifaqı katibinin qardaşı Şterin tövqif [həbs] edilmişdir.

- Həman gecə saat 10-da Kaspi Qafqaziya Hökuməti xüsusi komisyonu üzvü Kovalın evində təftiş icra edilmişdir. Təftiş Kovalın evdə olmadığı vaxt icra edilmişdir.

- Həman gecə Neft Mədənləri Fəhlələrinin İttifaqı katibi Qryuzin də tövqif edilmişsə də, azad edilmişdir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Qaçqınların göndərilməsi**

Bakıya tərəf gündən-günə gəlməkdə olan və getdikcə ədədi artan qaçqınları və vətənlərinə getmək istəyən əsgəri əsirləri göndərmək üçün Ümuri-Xeyriyyə Nəzarəti [Sosial Təminat Nazirliyi] şəhərimizdə mövcud olan Müttəfiqlər qoşunu komandanı ilə bu barədə müxabirata girişib [təmasa keçərək] bir vapor istəmiş ki, qaçqınları və əsgəri əsirləri Krasnovodsk şəhərinə rəvanə etsinlər [yola salsınlar].

**Tiflis Cəmiyyəti-Xeyriyyəsi işləri**

Sabiq Tiflis Cəmiyyəti-Xeyriyyəsi cənbində [nəzdində] mövcud olan Tiflis darüleytamları [yetimxanaları] işləri[ni] bitirmək üçün Ümuri-Xeyriyyə tərəfindən Mustafa ağa Vəkilov göndərilir. Bu barədə Nəzarət [Nazirlik] tərəfindən Tiflisdəki səfirlə müxabiratda bulunmuşdur ki, mürəxxəsə [nümayəndəyə] müavinət [kömək] edilsin.

**Evlər Mərkəzi istidası [xahişi]**

Evlər Mərkəzi cənbində [nəzdində] iaşə məntəqələri müdiri, məntəqə və darüşşəfəqələr üçün daima at gətirənin hər ay üç vaqon ixtiyarına buraxılmağı Ümuri-Xeyriyyə nazirindən təmənna etdiyi üçün Nəzarət də Ərzaq Nəzarəti ilə müxabirata girişərək, Evlər Mərkəzinin bu barədə olan hər bir istidası lazımi binagüzarlıq olunmasını [lazımi addımların atılmasını] xahiş etmişdir.

**Zəngəzur qaçqınları**

Ümuri-Xeyriyyə Nəzarəti [Sosial Müdafiə Nazirliyi] Cəbrayıl qəza qaim-məqamından aldığı teleqramdan məlum olunur ki, Zəngəzur qəzasından 252 kişi, 245 qadın (cümlətan 497) bir kənd əhalisi qaçıb Cəbrayıl qəzasına gəlmişlərdir. Bunların özləri ilə heç bir ləvazimatı, əşyası yoxdur. Bu zavallılar böyük köməyə möhtacdırlar.

Buna binaən [buna görə], Ümuri-Xeyriyyə Nəzarəti bu qaçqınların ehtiyacının nə dərəcəyə qədər vara biləcəyini bilməklə bərabər, onlar üçün bir iaşə məntəqəsi açmaq haqqında teleqrafla acil bir binagüzarlıqda bulunmuşdur [sərəncam vermişdir].

Habelə Qaryagin qəza qaimməqamı teleqramına cavabən teleqram verilmişdir ki, gələn qaçqınlar üçün bir iaşə məntəqəsi açmaq vacibdir.

**Aras tərəfi nümayəndəsinin istidası**

Şəhərimizdəki Aras məbusu tərəfindən Azərbaycan Hökumətinə verilən istidada [ərizədə], erməni qoşun qitəatının [hissələrinin] müsəlman əhalisinə etdiyi cövr və sitəmi təsvir edərək, orada müsəlmanlara verilən xəsarəti təhqiq və tədqiq üçün Müttəfiq qoşunları komandanı ilə Hökumətimiz müamilatda bulunub bir komisyonun təəyyünü göstərilməsi [müəyyənləşdirilməsi] xahiş olunmuşdur.

**Əmələlər [fəhlələr] tətili**

Baş fabrika müfəttişindən Ticarət və Sənaət Nəzarətinə gələn müxabirə [xəbər] kağızından anlaşılır ki, "Nobel" qardaşları şirkətinin Balaxanadakı emalatxanasında işləyən əmələlər 14 kanuni-əvvəl [dekabr] şənbə günü işlərində tətil elan etmişlər. Bunun səbəbini təşrini-saninin [noyabrın] ikinci yarısından məvacib almadıqları olduğunu göstərmişlər və sonra demişlər ki, ayın 16-da, düşənbə [bazar ertəsi] günü pul verilməzsə, yenə də işə başlamayacaqlar. 16 kanuni-əvvəldə gəldikdə məvacib almadıqlarından işə başlamayaraq gedirlər. Tətil edənlərin sayı 102-dir.

## AZƏRBAYCANDA

### Quberniya əhvalı

**Qarət və atışma**

Cavad uyezdinin naçalniki Gəncə qubernatoru adına göndərdiyi bəyannamədə Cavad uyezdinin halını və bu axırlarda burada baş verən şuluqluq barəsində böylə yazır:

Bu ayın əvvəllərində Qarapirimli kəndinin əhli Cəmşid bəy Vəlibəyov öz adamlarından xəbər alır ki, Ağdərə erməniləri dəstə ilə onun qaramal otlağına hücum edib 1350 baş qoyunlarını və bir neçə də atlarını qarət edib aparıblar. Mal sahibi dərhal atlanıb, adamlarını götürüb qarətçilərin dalısınca düşübdür. Kənddən dörd-beş verst məsafədə qarətçilərə rast gəldikdə bunların arasında atışma başlanıb. Nəticədə Cəmşid bəyin öz atı yaralanıb və bir neçə də ermənilərdən qətl edilib, axırda da qoyunları buraxıb qaçıblar. Məlum olub ki, qətl edilən ermənilərin birisi məşhur erməni qoçusu Qara Sarkisin yeznəsi Markar və yaralananlar da Maki, Osip, Matasan adlı ermənilərdirlər.

### Erməni vəhşiliyi

Cavad uyezdində olan Davşanlı adlı erməni kəndində cümlətan 35 ədəd müsəlman xanəvadəsi [ailəsi] var imiş. Bu ayın əvvəllərində Şuşadan bir nəfər süvari bir məktub gətirib Davşanlı dairəsində komitə üzvü olan Nikolay Saruxanova vermişdir. Bu məxfi məktubun məzmunu barəsində ermənilər və ya ki müsəlmanlar sual etdikdə bunlara böylə cavab verilir ki, güya məktub Şuşada olan ingilis və Fransa heyəti tərəfindən gəlibdir ki, ermənilərlə müsəlmanlar gərək yaxşıca rəftar edib bir-biriləri ilə dostanə yola getsinlər. Bu xəbər müsəlmanları nə qədər sevindiribsə də amma axırda nəticəsi çox peşmançılıq gətiribdir.

Bu vəq'ədən [hadisədən] bir az keçmiş, gecə qaranlığı düşən kimi müsəlmanlar baxıb görüblər ki, hamısının evləri müsəlləh [silahlı] ermənilər tərəfindən əhatə ediliblər. Səbəbini xəbər aldıqda ermənilər deyiblər ki, gərək hamı atılan və kəskin əslihələrinizi [silahlarınızı] bizə təhvil verəsiniz. Əhatə edilmiş müsəlmanlar çarəsiz qalıb onların tələblərinə əməl etmişlər. Lakin, təkcə Eyvaz Molla Novruz oğlu və bir də Ocaqverdi Molla Qəmbər oğlu bunların tələblərinə əməl etmək istəməyiblər.

Müsəlləh ermənilər dərhal bunları tutub vəhşiyanə bir surətdə öldürüblər. Hətta, Ocaqverdinin özündən başqa övrəti Sona Şahməhəmməd qızını da həmin surətdə öldürüblər. Müsəlmanların silahlarını alandan sonra ermənilər əvvəlcə malqaradan başlayıb axırda tamam ev müxəlləfatlarını [əşyalarını] da qarət etməyə başlayıblar. Bütün müsəlmanların xalça-palazlarını, yorğan-döşəklərini, buğda, un, arpa və samanlarını daşıyandan sonra, kişi və övrətlərinin paltarlarını da soymağa başlayıblar. Bu halları görcək bu 135 evin müsəlmanları bittamam [tamamilə] dağlara, daşlara qaçıblar. Bu müsəlmanların oradaca qılınclara çəkilib qırılmamaqlarına səbəb olan bir tərəfdən həmin kəndin məşhur ermənilərindən Balasan bəy və oğlanları olubdur ki, bunlara qaçıb gizlənməyə yol veriblər və o biri tərəfdən də bu olub ki, ermənilər qarət etdikləri malları bölmək üstündə bir-birləri ilə dava etməyə başlayıblar.

Bu kənddən qaçıb gizlənən biçarə müsəlman ailələrini Bəyəhmədli, Kəngərli və Tarnavet kəndlərinin camaatı öz evlərinə aparıb müavinətdə bulunublar.

Mövsuq [etibarlı] mənbələrdən xəbər verirlər ki, Şuşadan gələn məktubda bunu yazıblarmış ki, əhalinin əksəri erməni olan mahallarda əqəliyyət [azlıq] təşkil edən müsəlmanlar gərək tezliklə oralardan çıxarılsın.

İştə həman məktubun nəticəsi olaraq yüz illərlə çiyinbəçiyin yaşayıb həmişə dostluq və qardaşlıqla gün keçirən iki qonşuların əlaqələri bir gecədə fasilədən dəyişib, dostluq düşmənçiliyə mübəddəl olub [çevrilib], nahaq qanlar tökülüb, xanimanlar viran edilib, heç bir günahın sahibi olmayan hər iki qonşu daimi düşmənliyə vadar edilmişlər.

## AZƏRBAYCAN HÖKUMƏTİNİN CƏNBİNDƏKİ [NƏZDİNDƏKİ] FÖVQƏLADƏ İSTİNTAQ HEYƏTİ NƏZƏR-DİQQƏTİNƏ

Mart və sentyabr həvadisatı [hadisələri] zamanında olan zərər və ziyanları istintaq heyətinə bildirməyi qəzetə vasitəsilə məlum etmişsiniz. Təbii, Bakıda olan zərərdidələr [zərərçəkənlər] və başqa yerdəki zərərdidələr ki Bakıda olurlar, bu fürsətdən istifadə edib də öz zərər və ziyanlarını heyətə məlum edəcəklərdir. Bakıda olmayıb da bu işdən ötrü Bakıya gələ bilməyən biçarə şamaxılılar və Şamaxı kəndliləri nə eyləsinlər? Var-yoxları əllərindən gedib, qışın bu soyuğunda hərəsi bir şəhərdə, bir kənddə, bir qəsəbədə, bir tanışının və ya bir Allah bəndəsinin qoltuğuna sığınıb öz müqəddəratını dörd gözlə gözləyirlər və bu işdən ötrü Bakıya gəlməyə də imkanları yoxdur.

Bunun müqabilində qonşumuz erməni həmşəhərlilərimiz və həmkəndlilərimiz də var. Onlar nə qədər uzaqda olsalar, bu fürsətdən istifadə edəcəklər. Çünki onların cəmiyyətləri, millət xadimləri işlərinə yetişəcək, dərdlərini lazım olan yerinə yetirəcək, ev-ev, şəhər-şəhər gəzəcək, axtaracaq, tapacaq, düsturüləməllər [təlimatnamələr] verəcəkdir. Belə olanda genə Şamaxı şəhəri və uyezdi ermənilərinin əlləri ilə yanıb, dağılıb, məhv olduğu halda, genə mühasibə vaxtında onların zərər və ziyanı bizimkindən fəzlə [artıq] olaraq ortalığa çıxacaq.

Məncə, yaxşı olardı ki, hökumət yazıb hər qəzaya və pristavlara xəbər verməlidir ki, hər yerdə zərərdidələr varsa, sakin olduğu yerində ərizə pişnihad [təqdim] edib, istintaq edilib göndərilsin ya Bakıya, həmin heyətə ki, mühasibə vaxtında bu biçarələrin də dərdi məlum olunub bəlkə çarəsi tapılsın.

*Bir şamaxılı*

## TEATRO VƏ MUSİQİ

Cümə günü dekabr ayının 28-də Hökumət teatrosunda Hacıbəyov Qardaşları müdiriyyəti tərəfindən bu mövsümdə birinci dəfə olaraq "Şah Abbas və Xurşidbanu" operası mövqeyi-tamaşaya qoyulacaqdır. Şah Abbasın rolunu Sarablı və Xurşidbanunun rolunu Məğfurə xanım icra edəcəklərdir. Biletlər satılır hər gün teatrın kassasında.

Bu günlərdə müqtədir şairlərimizdən Əbdülsəlimzadə Məhəmməd Hadi əfəndinin **"İnsanların tarixi faciələri" yaxud "Əlvahi-intibah"** adlı mənzum əsərinin ikinci cüzü çapdan çıxıb mövqeyi-füruşa [satışa] qoyulmuşdur. Kitabça gözəl və qalın kağız üzərində təb' [çap] edilmiş, fiatı [qiyməti] 2 manatdır. Turan mətbəəsində, Parapetdə "Məktəb" mağazasında və Bazar caddəsində Paşa Qasımzadənin mağazasında.

*b. 4 – 3*

Qoca anam, İzzət Mənsur qızı, 19 kanuni-əvvəldə [dekabrda] evdən çıxıb, bu vaxta kimi qayıtmamışdır. Bunun nerədə olduğunu bilənlərdən bu adresə xəbər verməlerini rica edirəm. Abşeron küçəsində nömrə 34, Məcnun Pini oğlu.

*2619*

**İngiltərə Dəniz Nəqliyyatı İdarəsi icazəsilə "Samolyot" paraxod cəmiyyəti**

Mal göndərən və mal gətirənlərə elan edir ki, 17 kanuni-əvvəldən [dekabrdan] cəmiyyət bütün Xəzər dənizindəki nümayəndəliklərini iadə etmişdir [geri qaytarmışdır]. Bakı şəhərində İran, Krasnovodsk və Petrovsk şəhərlərinə göndərilən yükləri 24 və 26-cı körpülərdə qəbul edir. Acentənin kantor telefon nömrəsi 19-22.

Acentə V. N. Natanzondur. Paraxodstvo [gəmiçilik] idarəsi, telefon nömrəsi 46-40.

Paraxodstvo müdiri F. F. Kulikov.

*b - 31*

**Həkimlərin xüsusi gecə və gündüz növbələri**

Ünvan: Bolşoy Moskva mehmanxanası, Qoqolevski və Torqovı küçələrin küncündə. Telefon nömrələri 7-96 və 49-81. Naxoşların evinə gedirlər.

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Doktor**
**Doktor Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282*

**Qoldqor-Fradkinin Diş müalicəxanası**

Dərya kənarında Başenni küçədə Ramazanovun 10 nömrəli evində qəbul edir hər gün saat 9-dan 2-yə kimi və 4-dən 7-yə kimi.

*2607*

**Diş həkimi İsay Samuiloviç Karşteynbaum**

Naxoşlar[ı] əvvəlki kimi qəbul edir. Dişləri ağrısız çıxarır və qızıl üzərində süni dişlər qayırır.

Ünvan: Tsitsyanovski və Çadrovı küçələrin küncündə İsrafilovun 41 nömrəli evində.

Qəbul edir hər gün saat 12-dən 3-ə kimi. Axşam 5-dən 8-ə kimi.

*2610*

**Mama M. K. Şerman**

Qəbul edir: mamalıq, ovmaq (massaj) və iynə vurmaq işləri. Həmçinin xəstələrə qulluq etmək işində də təcrübəsi vardır.

Ünvanı: Kolyubakinski küçədə Parapetin qabağında Dildarovun 26 nömrəli evində 2-nci mərtəbədə.

Telefon 24-62

**Müdir və baş mühərrir: Ceyhun bəy Hacıbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Qismi-rəsmi: Məclisi-Məbusan Rəisi həzrətlərinin əmrnamələri***

"...1334 sənəsi kanuni-əvvəlin ... günündən...": Məclisi-Məbusan Rəisinin əmrlərində il rumi təqvimlə göstərilmişdir; miladi təqvimlə 1918-ci il dekabr ayının müvafiq gününə uyğundur.

***Vəzifəmiz nədir***

"…məbus əfəndilərdən Səfi-kürdski…": Aslan bəy Səfikürdski nəzərdə tutulur.

"…məbus əfəndilərdən doktor Qara bəyin…": Qara bəy Qarabəy nəzərdə tutulur.

***Qarabağ ətrafında***

"781 – Cəbrayıl qəza qaimməqamı Molla Namazəliyev imza etmişdir.": qəzetdə "Molla Namazəliyev" kimi getmiş şəxs, güman ki, Fərəc bəy Məliknamazəliyevdir.

"Gəncə valisi Vəkilov": İbrahim ağa Vəkilov nəzərdə tutulur.

***Azərbaycan Məclisi-Məbusanında***

"..."Gürcüstan səfirimiz...": Məmməd Yusif Cəfərov nəzərdə tutulur.

***Teleqraf xəbərləri***

"Cümə günü kral Parisə varid olmuşdur.": İngiltərə kralı V Corc nəzərdə tutulur.

***Erməni-gürcü toqquşması***

"…Gürcüstan siyasi nümayəndəsinə…": söhbət Simon Mdivanidən gedir.

"…Aramyansın evində…": Mikael Ovsepoviç Aramyans nəzərdə tutulur.

***Artıq yetər!***

"…keçilməz ormanları qırdın…": qəzetdə "ormanları" yerinə "olmayanları" getmişdir.

***Maarif müfəttişlərinin yığıncağı***

"…rüşdi məktəblər…": ibtidai təhsildən sonrakı təhsil mərhələsinə məxsus məktəblər.

***Xalq məktəbləri müfəttişlərinin yığıncağına dair***

"əqaid": səh. 339-dakı izaha baxın.

"…məşhur pedaqoq Adlerdir.": Amerikalı pedaqoq Sayrus Adler nəzərdə tutulur.

"Vəilla fəla!": bu ərəbcə ifadə "belə olmasa olmaz; belə olmasa düzəlməz; başqa cür düzəlməz" mənasını verməkdədir.

***Nəzarətlərdə***

"…Tiflisdəki səfirlə…": Azərbaycanın Tiflisdəki səfiri Məmməd Yusif Cəfərov nəzərdə tutulur.

"darüşşəfəqələr": valideyn himayəsindən məhrum uşaqlar üçün pulsuz internat məktəbləri.

"...at gətirənin...": güman ki, "ət gətirənin" olmalıdır

"…cümlətan 497...": qəzetdə "497" yerinə "498" getmişdir.

Təkrar

## Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi respublika üzrə bir sıra təhsil müəssisələrinin əsaslı təmir işlərinin satın alınması ilə bağlı *açıq tender elan edir*

Respublika üzrə bir sıra təhsil müəssisələrinin əsaslı təmir işlərinin satın alınması

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar: Əlaqələndirici şəxs - Z.Quliyev.

Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.

Tel: (+99412) 465 73 48 (daxili 134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 2500,00 (iki min beş yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 01.08.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.08.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı, icra probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 01.08.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçı baş podratçı kimi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **14 sentyabr 2023-cü il saat 15:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **22 sentyabr 2023-cü il saat 14:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **25 sentyabr 2023-cü il saat 15:00-da** Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti balansında olan gəmilər üçün alüminium keçid trapların satın alınması məqsədi ilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 04 sentyabr 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Useynov küçəsi 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047.**

***Tender komissiyası***

# Bəzi yerlərdə hava yağıntılı olacaq

Azərbaycanda avqustun 29-na gözlənilən hava proqnozu açıqlanıb.




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, axşama doğru arabir güclənəcək. Havanın temperaturu gecə 20-24°, gündüz 27-32° isti olacaq. Atmosfer təzyiqi 756 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 45-55 faiz təşkil edəcək.

Abşeron çimərliklərində şimal-qərb küləyi əsəcək, axşama doğru arabir güclənəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 25-26°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 26-27° isti olacaq.

Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-24°, gündüz 25-30° isti, dağlarda gecə 8-13°, gündüz 13-18° isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında səhər dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 28-33° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə güclənəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 15-20° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 15-20°, bəzi yerlərdə 24° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 17-21°, gündüz 24-28° isti olacağı ehtimalı var.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Göyçay, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə güclənəcək. Havanın temperaturunun gecə 14-19°, gündüz 21-26° isti, dağlarda gecə 8-13°, gündüz 13-18° isti olacağı ehtimal edilir.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarının bəzi yerlərində gün ərzində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 20-24°, gündüz 25-30° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Axşam bəzi yerlərdə intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-22°, gündüz 25-30° isti, dağlarda gecə 15-17°, gündüz 19-22° isti olacaq.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Paytaxtın zeytun ağaclarında naməlum bakterial xəstəlik aşkarlanıb

Artıq bir müddətdir ki, şəhərin müxtəlif ərazilərindəki zeytun ağaclarında naməlum bakterial xəstəlik aşkarlanıb, bu da bəzi ağaclarda quruma və saralmalara səbəb olub.



Bu barədə AZƏRTAC-a Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, mütəxəssislərin yekdil rəyinə görə, əsas etibarilə qlobal iqlim dəyişiklikləri səbəbindən baş verən bu hal, demək olar, bütün dünyanı bürüyüb. Dünyanın aparıcı zeytun istehsalçılarından olan İtaliya, İspaniya, Yunanıstan və qardaş ölkə Türkiyədə xeyli zeytun ağacı xəstəlik səbəbindən məhv olur. Məsələ ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən müvafiq qabaqlayıcı tədbirlər həyata keçirilir, şəhərin bütün ərazisində zeytun ağaclarının vəziyyəti araşdırılıb. Xüsusi olaraq Bakıya xarici mütəxəssis dəvət edilib və xəstə ağacların müalicəsi ilə bağlı geniş tədbirlər həyata keçirilir.

Hazırda paytaxtın müxtəlif ərazilərində zeytun ağaclarının quruyan budaqları budanır, dibinə gübrə verilir və onlar xüsusi kimyəvi tərkibli dərmanlar olan ampulalarla inyeksiya edilir. Yoluxan ağacların budaqlarının və yarpaqlarının budanması xəstəliyin digər ağaclara yayılmasının qarşısının alınması məqsədi daşıyır.

Zeytun ağaclarının cavanlaşdırılması məqsədilə payız mövsümündə bu ağaclarda budanma işləri aparılacaq.

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi Saatlı rayonu, R.Səfərov adına Qara Nuru kənd 1176 şagird yerlik tam orta məktəbin bərpa-gücləndirilməsi və əsaslı təmiri işlərinin satın alınması ilə bağlı *açıq tender elan edir*

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Z.Quliyev.

Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.

Tel.: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 2000,00 (iki min) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 28 avqust 2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (28 avqust 2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış. 28 avqust 2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 28 avqust 2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1) (Təqdim olunması məcburidir. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə məlumatlar və müvafiq sertifikatlar əlavə edilməlidir. Müvafiq məlumatlar tələb olunan təsdiqedici sənədlər əlavə olunmaqla təqdim edilməlidir);*
- *iddiaçı baş podratçı kimi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının maddi texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədəolma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədəolma müddəti tender təklifinin qüvvədəolma müddətindən 30 (otuz) bank günü çox olmalıdır).*

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **02 oktyabr 2023-cü il saat 18:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **10 oktyabr 2023-cü il saat 11:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **11 oktyabr 2023-cü il saat 18:00-da** Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5458**
**Sifariş 2175**

**Qiyməti 40 qəpik**